Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin illik HESABATI

2013

Bakı
2014

Buraxılışa məsul: Firudin Qurbanov

Redaktorlar: Vaqif Quliyev,
Tehran Vəliyev

A40 Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin illik Hesabatı – 2013.
Bakı, «Təhsil», 2014, 96 səh.

A $\frac{4404000000}{053}$ 2014

© «Təhsil», 2014

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti, təşkilatçılığı və təşəbbüsü sayəsində 2013-cü ildə ölkəmizin həyatında qazanılan uğurlar cəmiyyətin bütün sahələrini əhatə etmişdir. Dövlət başçısı tərəfindən qəbul olunan qərarlar, mühüm fərman və sərəncamlar bu uğurların başlıca təminatçısıdır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi hesabat ilində öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyət və turizm sahələrinə dair imzaladığı fərman və sərəncamlarına, Nazirlər Kabinetinin qərarlarına, verdiyi göstəriş və tapşırıqlara, mövcud qanunvericiliyə uyğun olaraq qurmuş, ölkədə mədəniyyət və turizm sahələrinin inkişafı ilə əlaqədar bir sıra əhəmiyyətli layihələr həyata keçirmiş, milli mədəniyyətimizin və Azərbaycanın turizm potensialının dünyada tanıdılması, ölkəmizin dünyanın mədəniyyət və turizm məkanına uğurla inteqrasiya olunması, milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi istiqamətində uğurlu nəticələrə nail olmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli 2679 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən hesabat dövründə ölkəmizin bütün mədəniyyət müəssisələrində, eyni zamanda bir çox xarici ölkələrdə yubileylə bağlı müxtəlif tədbirlər ən yüksək səviyyədə keçirilmişdir.

Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının iştirakı ilə Heydər Əliyevin 90 illiyinə həsr olunmuş «Dünya klassik musiqi irsi» musiqi layihəsinin birinci konserti keçirilmiş və orada «Heydər Əliyev və mədəniyyətimiz» adlı böyük fotosərgi nümayiş olunmuşdur.

Tanınmış incəsənət xadimləri, mahnı və rəqs ansambllarının iştirakı ilə Biləsuvar, Beyləqan, Ağdam, Yevlax, Balakən, Zaqatala, Gəncə şəhər və rayonlarında müxtəlif konsert proqramları təşkil edilmişdir.

Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Sumqayıt, Şəki şəhərlərində və Ağcabədi, Bərdə, Salyan rayonlarında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Uşaq xor kollektivlərinin VIII Respublika müsabiqəsi keçirilmişdir. Müsabiqələrdə 178 uşaq xor kollektivi və 7000-dən çox şagird iştirak etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə Bakı şəhər Q.Qarayev adına 8 nömrəli onbirillik musiqi məktəbində Prezident təqaüdçülərinin konserti, eyni zamanda Azərbaycan Rus İcmasının Rus Mədəniyyət Mərkəzi ilə birlikdə Bakı şəhərində «Rodniki duşi» adlı IX Müsabiqə-festival keçirilmişdir.

Eyni zamanda bu əlamətdar yubiley ilə əlaqədar Sabirabad və Abşeron rayon sakinləri ilə ədəbiyyat, elm və mədəniyyət xadimlərinin görüşü təşkil edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 90 illiyi münasibətilə Azərbaycan İstiqlal Muzeyində «Heydər Əliyev. Vətənə qayıdış», Azərbaycan Milli İncəsənət Muzeyində «Heydər Əliyev və sənət müasirləri», Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində «Heydər Əliyev və musiqi mədəniyyətimiz» adlı sərgilər təşkil edilmiş və Muzey Mərkəzində «Bakı dünən, bu gün, sabah» respublika müsabiqəsinin yekun sərgisi keçirilmişdir.

Hesabat dövründə ölkəmizdə baş verən ən əlamətdar mədəni hadisələrdən biri olan, 23–25 sentyabr tarixində Bakı şəhərində keçirilən III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası da ulu öndərin 90 illiyinə həsr olunmuşdur. Sərgi-Yarmarkada 100-dən çox milli, 40-dan çox beynəlxalq nəşriyyat və təşkilatın, eləcə də xarici ölkə səfirliklərinin təmsilçiləri iştirak etmişdir. Sərgi çərçivəsində ulu öndərin yubileyinə həsr edilən müxtəlif tədbirlər, o cümlədən ümummilli liderin adını daşıyan mədəniyyət obyektləri haqqında məlumatlardan və fotolardan ibarət, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəfis şəkildə nəşr olunan fotoalbomun təqdimat mərasimi keçirilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Bakı şəhərində fəaliyyət göstərən internat məktəbləri arasında ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş

«Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə» adlı müsabiqə keçirilmişdir. Müsabiqə iştirakçılarına Nazirlik tərəfindən fəxri fərmanlar təqdim olunmuş, müsabiqənin qalibinə isə bir dəst kompyuter avadanlığı hədiyyə edilmişdir. Bundan başqa, müsabiqə iştirakçıları üçün Nazirlik tərəfindən «Qobustan» Dövlət Milli Tarix-Bədii Qoruğuna birgünlük ekskursiya təşkil edilmişdir.

Azərbaycan mədəniyyətinin tarixi və müasir nailiyyətləri barədə biliklərin gənclərə aşılanması, böyüməkdə olan nəslin mənəvi və estetik tərbiyəsinin gücləndirilməsi, ümummilli lider Heydər Əliyevin zəngin irsinin təbliği məqsədilə uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri arasında «Azərbaycan mədəniyyəti» mövzusunda respublika bilik müsabiqəsi keçirilmişdir.

Hesabat ilində ümummilli liderin yubileyi münasibəti ilə Nazirlik nümayəndələrinin, turizm şirkətlərinin və Azərbaycan Turizm İnstitutunda təhsil alan tələbələrin iştirakı ilə Xaçmaz rayonunda Səmti müəyyən etmə üzrə Heydər Əliyev adına birinci Beynəlxalq Kubok yarışı təşkil olunmuşdur.

Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən beynəlxalq kitab sərgisi çərçivəsində cari ilin 18 aprel tarixində «Heydər Əliyev: Müstəqilliyimiz əbədidir» çoxcildliyinin təqdimatı, 21 aprel tarixində isə «Müstəqillik illərində (1993–2013) Azərbaycanda kitab sənətinin inkişafı» adlı panel təşkil olunmuşdur. Tədbirlərdə Azərbaycan Respublikasının bu ölkədəki Fövqəladə və Səlahiyyətli Səfiri Vilayət Quliyev, azərbaycanlı tələbələr, Azərbaycan diasporunun üzvləri, bir sıra tanınmış türkoloq və azərbaycanşünas alimlər, macar ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 may 2011-ci il tarixli 432 nömrəli Fərmanına uyğun olaraq «Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq» şüarı altında 29 may – 1 iyun tarixlərində Bakıda dünya əhəmiyyətli II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Forumun əsas tərəfdaşları qismində UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO, BMT-nin Ümumdünya Turizm Təşkilatı kimi beynəlxalq qurumlar çıxış etmişdir.

Forumun açılış mərasimindən öncə – 29 may tarixində Dənizkənarı Milli Parkda Azərbaycanla BMT-nin Sivilizasiyalar Alyansının birgə təşkilatçılığı ilə Ümumdünya Mədəni Müxtəliflik Gününə həsr olunmuş «Mədəni müxtəliflik üçün nəsə et» qlobal kampaniyasının kulminasiya tədbiri keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycanın təşəbbüsü ilə 5 A – Mədəniyyətlərarası Əməkdaşlıq Platforması çərçivəsində hər qitədən mədəni müxtəlifliyi təbliğ edən bir layihənin təqdimatı keçirilmişdir. Məhz Bakı Forumu üçün BMT-nin Sivilizasiyalar Alyansı tərəfindən elan edilən şüarlar müsabiqəsinə və «Mədəni müxtəliflik üçün nəsə et» qlobal kampaniyasına sosial şəbəkələrdən qısa müddətdə bir milyondan çox insan qoşulmuşdur.

Heydər Əliyev Mərkəzində keçirilən rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dərin məzmunlu çıxışı ilə yadda qalan II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda 115-dən çox ölkənin nümayəndəsi – 40-dan çox ölkədən nazir, nazir müavini, həmçinin dövlət katibləri, UNESCO, BMT Sivilizasiyalar Alyansı, Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatı, ISESCO, İRSİKA, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, NATO, TÜRKSOY, TDƏŞ, Ərəb Liqası, ASEAN, Amerika Dövlətləri Təşkilatı kimi nüfuzlu 13 beynəlxalq qurumun rəhbər şəxsləri, 2 vitse-spiker (Türkiyə, Monteneqro), 15 ölkədən 40-dan çox millət vəkili, komitə rəhbərləri, Bolqarıstan, Serbiya və Xorvatiyanın sabiq prezidentləri, İtaliyanın sabiq Baş naziri, 70-dən çox nüfuzlu QHT, beyin mərkəzlərinin nümayəndələri, 100-dən çox məşhur alim və professor, ekspertlər, ümumilikdə 600 nəfərə yaxın xarici nümayəndə iştirak etmişdir.

Forum çərçivəsində bir çox mövzularda müxtəlif sessiyalar, dünyada ilk dəfə mədəniyyət və turizm sahələrinə məsul olan nazirlərin I konfransı, Avropa, Amerika və İslam dünyasında ictimai və siyasi sahədə fəal olan BMT-nin İnkişaf edən Liderlər proqramı üzvlərinin I Məzunlar sammiti kimi qlobal əhəmiyyətə malik tədbirlər təşkil olunmuşdur. Ümumilikdə 4 gün ərzində Forum çərçivəsində 29 tədbir keçirilmişdir.

Bağlanış mərasimində Forumun əsas tərəfdaşları qismində çıxış edən UNESCO və BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO, BMT-nin Ümumdünya Turizm Təşkilatının nümayəndələri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən «Bakı prosesi»nin artıq qlobal bir layihəyə çevrildiyini yüksək qiymətləndirərək, tədbirin təşkilinə göstərilən yüksək qayğı və dəstəyə görə dərin minnətdarlıqlarını ifadə etmişlər.

Forum çərçivəsində müxtəlif mədəni tədbirlər də keçirilmişdir. UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş «Qobustan» Dövlət Milli Tarix-Bədii Qoruğunda ilk dəfə açıq havada «Qobustan kölgələri» baletinin nümayişi olmuşdur. Tədbirin cəmiyyətdə geniş əks-səda doğurduğunu nəzərə alaraq növbəti gün Bakı şəhər sakinləri üçün həmin tamaşa yenidən nümayiş etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən mədəniyyətlərarası dialoqa dair «Bakı prosesi»nin dünyanın intellektual dairələrində, universitet və beyin mərkəzlərində geniş təbliği məqsədilə Böyük Britaniyanın Koventri Universitetinin Sosial Münasibətlər İnstitutu ilə birgə «Bakı prosesi» və Azərbaycanın bu prosesdə roluna dair kitabın yazılması və Böyük Britaniyada nəşri barədə razılıq əldə olunmuşdur.

Tədbir çərçivəsində UNESCO-nun Baş direktoru İrina Bokova ilə keçirilən görüş zamanı Azərbaycan – UNESCO əlaqələri müzakirə edilmişdir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın UNESCO ilə əməkdaşlığın inkişafına verdiyi töhfələr xüsusilə vurğulanmışdır. Görüşdə 2–8 dekabr tarixində Bakıda Azərbaycanın sədrliyi ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyasının və Qeyri-Maddi Mədəni İrs üzrə Konvensiyanın 10 illik yubiley tədbirinin keçirilməsinə dair müqavilə imzalanmışdır.

Forum iştirakçıları üçün xalqımızın mədəniyyətini, eyni zamanda mədəniyyətlərarası dialoqun təbliğində rolunu əks etdirən zəngin mədəni proqram təşkil edilmişdir.

İNCƏSƏNƏT

2013-cü ildə mədəniyyət və incəsənət sahəsində ölkəmizdə və bir sıra xarici ölkələrdə müxtəlif tədbirlər, sərgilər, festivallar, mədəniyyət günləri keçirilmişdir.

2013-cü ilin yanvar ayının 6-dan 13-dək Sumqayıt Dövlət Musiqili Dram Teatrının kollektivi M.F.Axundzadənin «Müsyö Jordan və dərviş Məstəli şah» tamaşası ilə Nyu Dehli şəhərində keçirilən Beynəlxalq Hindistan Teatr Festivalında iştirak etmişdir.

2013-cü ilin 18 yanvar tarixində Azərbaycan Dövlət Filarmoniyasında 20 Yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş gecə keçirilmiş, tədbirdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Dövlət Xor Kapellası və solistlər çıxış etmişdir. Gecədə C.Verdinin «Rekviyem» əsəri tamaşaçılara təqdim olunmuşdur.

Hesabat ilinin yanvar ayında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kollektivi dramaturq Afaq Məsudun «Qatarın altına atılan qadın» tamaşası ilə İran İslam Respublikasında keçirilmiş «Fəcr» Beynəlxalq Teatr Festivalında çıxış etmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında 7 iyul 2011-ci il tarixli 1621 nömrəli Sərəncamının icrası ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin tədbirlər planına uyğun olaraq, 2013-cü ilin 1 fevral tarixində Heydər Əliyev Sarayında gənc muğam ifaçılarının iştirakı ilə «Gəncləşən muğam» adlı konsert, 6 fevral tarixində Caz mərkəzində gənc caz ifaçılarının konserti və 8 fevral tarixində Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında gənc bəstəkarların əsərlərinin nümayişi olmuşdur.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 95 ili ilə bağlı tədbirlər silsiləsi çərçivəsində fevralın 5-də, bəstəkarın doğum günündə Fəxri Xiyabandakı məzarı musiqi ictimaiyyəti tərəfindən ziyarət edilmiş və Azərbaycan Dövlət Filarmoniyasında sənətkara həsr olunmuş konsert keçirilmişdir. Konsertdə Qara Qarayevin adını daşıyan Dövlət Kamera Orkestri və solistlər çıxış etmişdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 2 fevral tarixində Fransanın Mulus, 10 fevral tarixində Strasburq, 20 fevral tarixində Kolmar şəhərlərində «Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri» mövzusunda silsilə tədbirlər keçirilmişdir. Təşkil olunmuş konsert proqramlarında Q.Qarayev adına

Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, caz ifaçıları və solistlər çıxış etmişdir.

20 fevral tarixində Küveytdə Azərbaycan Mədəniyyət Günləri çərçivəsində Küveyt Milli Muzeyində Azərbaycanın incəsənət ustalarının çıxışı və fevralın 21-də dahi bəstəkar Qara Qarayevin 95 illik yubileyinə həsr edilmiş konsert proqramı təşkil olunmuşdur.

1 mart tarixində Azərbaycan Dövlət Filarmoniyasında Qara Qarayevin 95 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində Əməkdar İncəsənət Xadimi, tanınmış dirijor Elşad Bağırov və Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri birgə konsert proqramı ilə çıxış etmişdir.

Mart ayının 5-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Dövlət sifarişi ilə hazırlanmış, Xalq Yazıçısı Elçinin «Sənətkarın taleyi» əsərinin ictimai baxışı keçirilmişdir.

7–9 mart tarixində Muzey Mərkəzində 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş Azərbaycan rəssamlarının əsərlərindən ibarət «Gözəllik sirləri» adlı sərgi təşkil edilmişdir.

9–19 mart tarixində Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən «Muğam aləmi» III Beynəlxalq Muğam Festivalı keçirilmişdir. Martın 9-da Heydər Əliyev Mərkəzində festivalın təntənəli açılış mərasimi olmuşdur. Tədbirdə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir.

Festival çərçivəsində Türkiyə, İspaniya, İtaliya, ABŞ, Çin, Hindistan, Misir, Özbəkistan, Tunis, Liviya, İran, İraq, Mərakeşdən olan qruplar və musiqiçilər konsert proqramı ilə çıxış etmişdir. Ötən illərlə müqayisədə bu il «Muğam aləmi» beynəlxalq muğam festivalının coğrafi əhatəsi daha da genişlənmişdir.

Festival çərçivəsində ilk dəfə olaraq ölkəmizin bütün bölgələrində konsertlər və ustad dərsləri keçirilmiş, Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Təhsil Nazirliyi və UNESCO-nun Ənənəvi Musiqi üzrə Beynəlxalq Şurası (ICTM) nəzdində «Maqam» elmi-tədqiqat qrupu tərəfindən Bakı şəhərində 12–15 mart tarixində «Muğam aləmi» III Beynəlxalq Elmi Simpozium təşkil edilmişdir. Simpoziumda Almaniya, Fransa, Tunis, Yaponiya, Hindistan, Kanada, Qazaxıstan, İran, Tacikistan, Özbəkistan və Türkmənistandan dəvət olunmuş musiqişünas alimlər məruzə ilə çıxış etmişdir.

Hesabat ilinin 15–19 mart tarixində «Muğam aləmi» III Beynəlxalq Muğam Müsabiqəsi ilk dəfə olaraq həm solo, həm də instrumental muğam ifaçılığı üzrə keçirilmiş və müsabiqədə Tacikistan, İran, Mərakeş, Hindistan, İordaniya, Türkiyə, Çin və Türkmənistandan 55 nəfər xarici iştirakçı və Azərbaycandan istedadlı gənc ifaçılar iştirak etmişdir.

12–16 mart tarixində Muzey Mərkəzində Novruz bayramının yel çərşənbəsi günü münasibətilə Azərbaycan rəssamlarının əsərlərindən ibarət «Küləkli boyaların çərşənbəsi» adlı sərgi təşkil olunmuşdur. Sərgiyə son vaxtlar rəssamlar tərəfindən yaradılan – bahar fəslinin gəlişinə, Novruz bayramının tərənnümünə həsr olunmuş, Azərbaycan təbiətinin əsrarəngiz guşələrinin mənzərələrini, özünəməxsus koloritini əks etdirən tablolar təqdim edilmişdir.

Mart ayının 19-da Dənizkənarı Milli Parkda ölkə başçısının iştirakı ilə Novruz şənlikləri keçirilmişdir. Dənizkənarı Milli Parkda Novruz bayramı çərçivəsində Azərbaycan rəssamlarının əsərlərindən ibarət təsviri sənət sərgisi təşkil edilmişdir.

21–28 mart tarixində İrəvan Dövlət Azərbaycan Dram Teatrı Türkiyənin İqdır, Kars, Ardahan, İzmir, Manisa, Aydın və Uşak şəhərlərində Zihni Papaqçının «Soyqırımı abidəsinin dastanı» tamaşası ilə çıxış etmişdir.

22–31 mart tarixində Türkiyənin Ankara şəhərində Beynəlxalq «VII ETHOS Ankara Uluslararası Tiyatro Festivalı»nda Mingəçevir Dövlət Dram Teatrı Turqay Narın «Zibillik» tamaşası ilə çıxış etmişdir.

27 mart – 4 aprel tarixlərində Şri-Lankanın Kolombo şəhərində II Beynəlxalq Kolombo Teatr Festivalında Gənc Tamaşaçılar Teatrı Patrik Züskindin «Kontrabas» tamaşası ilə iştirak etmişdir.

Martın 29-da Fransanın La Roşel şəhərində Azərbaycan mədəniyyəti tarixini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Dövlət Rəqs Ansamblının kiçik heyəti və muğam ifaçıları konsert proqramı ilə çıxış etmişdir.

2013-cü ilin 2 aprel tarixində Akademik Milli Dram Teatrında Xalq Artisti Həsən Turabovun 75 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir.

2–8 aprel tarixində Muzey Mərkəzində Almaniyada yaşayan azərbaycanlı rəssam, Əməkdar İncəsənət Xadimi Ebrahim Ehrarinin 75 illik yubiley sərgisi keçirilmişdir. Sərgidə rəssamın 50-dək rəngkarlıq və qrafika əsərləri nümayiş etdirilmişdir.

4–6 aprel tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Gürcüstanın Tbilisi şəhərində Elçinin «Qatil» tamaşası ilə çıxış etmişdir.

7 aprel tarixində «Art Garden»-da DAVOS Dünya İqtisadi Forumunun iştirakçıları üçün Azərbaycan incəsənət ustalarından ibarət konsert proqramı təşkil edilmişdir.

10 aprel tarixində L.Nurenin «Müharibə» əsərinin ictimai baxışı, 13 aprel tarixində isə premyerası olmuşdur.

11–24 aprel tarixində Gəncə Dövlət Dram Teatrı Türkiyənin Konya şəhərində keçirilən «Min Nəfəs – Bir Səs» festivalında M.F.Axundzadənin «Müsyö Jordan və dərviş Məstəli şah» tamaşası ilə iştirak etmişdir.

MQIMO-nun məzunlarının I Beynəlxalq Forumunun iştirakçıları üçün aprel ayının 11-də «Qala Bazar»da, 12-də isə «Buta Palace»-də Azərbaycan incəsənət ustalarının konsert proqramı təşkil edilmişdir.

14–19 aprel tarixində Bakıda dahi Azərbaycan bəstəkarı Qara Qarayevin 95 illiyinə həsr olunmuş yubiley tədbirləri çərçivəsində Qara Qarayev adına V Beynəlxalq Müasir Musiqi Festivalı keçirilmişdir. Festivalda Azərbaycan, Almaniya, Fransa, Hollandiya və Rusiyanın solist və kollektivləri iştirak etmişdir.

Festival çərçivəsində müasir musiqinin problemlərinə həsr olunmuş elmi simpozium, Azərbaycan Dövlət Filarmoniyasında, Beynəlxalq Muğam Mərkəzində, Dövlət Mahnı Teatrında, Kamera və Orqan Musiqisi Zalında, Dövlət Gənc Tamaşaçılar Teatrında «Accroche Note» ansamblı (Fransa), «Asko/Schömberg» ansamblı (Hollandiya), «Avatara» rəqs qrupu (Almaniya/İspaniya), «Questa musika» (Rusiya), Vladimir Runçak (Ukrayna), Stas Malışev, Aleksey Lyubimov, İvan Sokolov (Rusiya), Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri, «Con tempo», Gülşən Annağıyeva kimi xarici və azərbaycanlı musiqiçilərin, musiqi kollektivlərinin ifasında konsertlər təşkil edilmişdir. Azərbaycan Milli Kitabxanası və Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən «Qara Qarayev. Həyat və yaradıcılığı» adlı foto və kitab sərgiləri nümayiş olunmuşdur.

16 aprel tarixində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə Moskva Konservatoriyasının Böyük Zalında dahi Azərbaycan bəstəkarı, SSRİ Xalq Artisti, akademik Qara Qarayevin 95 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Konsertdə Əməkdar İncəsənət Xadimi, tanınmış dirijor Elşad Bağırov, Beynəlxalq müsabiqələr laureatı, skripkaçı Alyona Bayeva və P.İ.Çaykovski adına Rusiya Akademik Böyük Simfonik Orkestri iştirak etmişdir. Zalın foyesində bəstəkarın həyat və yaradıcılığını əks etdirən fotoşəkillər nümayiş etdirilmişdir.

16 aprel tarixində Akademik Milli Dram Teatrında Xalq Artisti Əli Zeynalovun 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir.

17 aprel tarixində Rus Dram Teatrında C.Ostinin «Qürur və qərəz» tamaşasının premyerası olmuşdur.

18 aprel tarixində Azərbaycan Dövlət Musiqili Teatrının əsaslı təmirdən sonra açılışı olmuşdur.

23 aprel tarixində Polşa Respublikasının Qniezno şəhərində Azərbaycan-Polşa əlaqələrinin yaranmasının 540 illiyinə və «Dostluq» abidəsinin bərpasının 20 illiyinə həsr edilmiş açılış mərasimi təşkil olunmuşdur. Bundan əlavə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təşkil edilmişdir. Abidənin açılış mərasimində Qniezno şəhərinin meri Yasek Kovalski, Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyev, Polşanın Mədəniyyət və Milli İrs nazirinin müavini Y.Olbrayt, ölkəmizin Polşadakı səfiri Həsən Həsənov çıxış etmişlər. Əməkdar Artist Təyyar Bayramov və gənc muğam ifaçısı Arzu Əliyevanın iştirakı ilə muğam konserti keçirilmişdir. Eyni zamanda abidənin açılış və hazırlanmasına həsr olunmuş fotosərgi təşkil edilmişdir.

23–27 aprel tarixində Azərbaycan Dövlət Kukla Teatrı Türkiyənin Eskişəhər Bələdiyyəsi tərəfindən təşkil olunan Kukla Teatrları Festivalında R.Əlizadənin «Sehrli mücrü» tamaşası ilə iştirak etmişdir.

25–28 aprel tarixində Almaniyanın Bremen şəhərində «Jazzahead!» Beynəlxalq Sərgi-Yarmarkası keçirilmişdir. Azərbaycan caz musiqisini işıqlandıran «Jazz Dünyası» jurnalı adıçəkilən sərgidə ölkəmizi təmsil etmək üçün dəvət almışdır.

26 aprel tarixində Fransanın regionlarında Azərbaycan mədəniyyəti tarixini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə «Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri» mövzusunda həyata keçirilən tədbirlər silsiləsi çərçivəsində Bordo şəhərində Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestrinin, muğam ifaçıları və solistlərin iştirakı ilə konsert keçirilmişdir.

26–30 aprel tarixində Muzey Mərkəzində Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü, tanınmış rəssam Abbas Kazımovun əsərlərindən ibarət «Parlaq dünya» adlı fərdi yaradıcılıq sərgisi təşkil olunmuşdur. Sərgidə rəssamın qrafika və rəngkarlıq əsərləri nümayiş etdirilmişdir.

27 aprel tarixində Azərbaycan Dövlət Musiqili Teatrında görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın 90 illiyinə həsr olunmuş konsert proqramı hazırlanmışdır.

30 aprel tarixində Azərbaycan Dövlət Kukla Teatrında, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə mərhum rejissor, Əməkdar İncəsənət Xadimi Rəhman Əlizadənin «Şeir. Nəsr. Deyimlər» kitabının təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciətinə əsasən milli incəsənətimizin təbliği məqsədilə Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinə 35 (otuz beş) ədəd rəngkarlıq və 8 (səkkiz) ədəd heykəltəraşlıq əsəri verilmişdir.

Hesabat ilinin 5 may tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində görkəmli qazax bəstəkarı Yerkeqali Raxmadiyevin «Alpamıs» operasının premyerası keçirilmişdir. Tədbirdə TÜRKSOY təşkilatının Baş katibi Düsen Kaseinov, habelə Qazaxıstandan gələn qonaqlar, Y.Raxmadiyevin ailə üzvləri iştirak etmişdir.

6 may tarixində Azərbaycan Dövlət Filarmoniyasında ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş konsert keçirilmiş, konsertdə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin və dirijor Rauf Abdullayevin ifasında SSRİ Xalq Artisti Arif Məlikovun «Əbədiyyat» simfoniyası səslənmişdir.

6–11 may tarixində Azərbaycanda peşəkar milli teatrın yaradılmasının 140 illik yubiley tədbirləri çərçivəsində beynəlxalq mədəni əlaqələrin inkişaf etdirilməsi məqsədilə Rusiyanın Dövlət Akademik Malıy Teatrının Bakıya qastrol səfəri keçirilmişdir.

7 may tarixində Krımdakı 77-ci diviziya (Simferopol diviziyası) döyüşçülərinin xatirəsinə həsr olunmuş memorial abidənin təmir-bərpa və abadlıq işlərindən sonra təntənəli açılış mərasimi keçirilmişdir.

13 may tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Avstriyaya səfəri zamanı Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimi keçirilmişdir. Tədbirdə Azərbaycan musiqiçiləri Elçin Şirinov (piano), Ənvər Sadıqov (akkordeon), Fuad Mehdiyev (nağara), Şəhriyar İmanov (tar) və Nazim Kərimov (səs rejissoru) konsert proqramı ilə çıxış etmişdir.

15 may tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Kamal Abdullanın «Hamı, səni sevənlər burdadı və yaxud Şah İsmayıl Xətai» tamaşasına ictimai baxış keçirilmişdir.

28 may – Respublika Günü ilə əlaqədar 16 may tarixində Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi tərəfindən Slovakiyanın

Bratislava şəhərində, 28 may tarixində Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Səfirliyi tərəfindən Ər-Riyad şəhərində, 30 may tarixində isə Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı Səfirliyi tərəfindən Afina şəhərində keçirilmiş tədbirlərdə Azərbaycanın incəsənət ustalarının iştirakı təmin edilmişdir.

16 may tarixində Akademik Milli Dram Teatrında SSRİ Xalq Artisti Mirzağa Əliyevin 130 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir.

17–23 may tarixində Ukraynanın Dneprodzerjinsk şəhərində keçirilmiş «Klassika bu gün» adlı IX Beynəlxalq Teatr Festivalında Gəncə Dövlət Dram Teatrının kollektivi N.V.Qoqolun «Evlənmə» tamaşası ilə iştirak etmişdir.

18 may tarixində Azərbaycan mədəniyyətini və incəsənətini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər Əliyev Fondunun, Azərbaycanın Almaniyadakı Səfirliyinin təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Almaniyanın bir sıra şəhərlərində, o cümlədən Münhen şəhərində keçirilmiş silsilə tədbirlərdə Azərbaycanın incəsənət xadimlərinin iştirakı təmin olunmuşdur.

20 may tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında dövlət sifarişi ilə hazırlanmış «Buratino» əsərinin ictimai baxışı keçirilmişdir.

Ulu öndər Heydər Əliyevin 90 illiyi ilə əlaqədar 26–29 may tarixində İsveç Krallığında keçirilmiş tədbirlər çərçivəsində Stokholm şəhərinin «Södra» Teatrının səhnəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kollektivi M.F.Axundzadənin «Lənkəran xanının vəziri» tamaşası ilə çıxış etmişdir.

«Əliağa Ağayevin 100 illik yubileyi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 mart tarixli 2752 nömrəli Sərəncamına əsasən 31 may tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli teatr və kino aktyoru, Xalq Artisti Əliağa Ağayevin 100 illik yubileyi keçirilmişdir.

Hesabat ilində «Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiya»nın 7-ci iclas Protokoluna əsasən 4–7 iyun tarixində Azərbaycanda Belarus Respublikasının Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət Günləri çərçivəsində konsertlər, fotosərgi, Belarus kino günləri təşkil olunmuşdur.

Azərbaycan rəssamlarının əsərlərinin nümayişi və müxtəlif sərgilərin təşkili üçün lazımi şəraitin yaradılması, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən rəsm qalereyalarının fəaliyyətinin səmərəliliyinin artırılması, bölgələrdə mədəni mühitin rəngarəng tədbirlərlə zənginləşdirilməsi, əhalinin mədəni istirahətinin təşkili, Azərbaycan rəssamlarının

yaradıcılığının təbliği, gənc nəslin rəssamlıq sənətinə olan marağının artırılması məqsədilə 7 iyun – 10 iyul tarixlərində «Paytaxtdan bölgələrə» adlı layihənin dördüncü mərhələsi çərçivəsində müxtəlif regionlarda sərgilər keçirilmişdir. Sərgilər Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası ilə əlaqədar yenidən qurulmuş Ağstafa, Qazax, Qax, Sumqayıt, Salyan, Qusar, Saatlı dövlət rəsm qalereyalarında təşkil olunmuşdur.

11 iyun tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında SSRİ Xalq Artisti, Dövlət Mükafatları Laureatı Hökümə Qurbanovanın 100 illik yubileyi keçirilmişdir.

Fransanın regionlarında Azərbaycan mədəniyyəti tarixini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə iyunun 14-də Bove şəhərində «Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri» mövzusunda tədbir keçirilmişdir. Konsert proqramında Əməkdar Artist Salman Qəmbərovun rəhbərliyi ilə «Bakustik Caz» qrupu və Əməkdar Artist Sahib Paşazadənin rəhbərliyi ilə muğam üçlüyü iştirak etmişdir.

15 iyun – Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə Azərbaycan tarixi mövzusunda «Əsrlər-nəsillər» adlı respublika müsabiqəsinin yekun sərgisi təşkil olunmuşdur.

2008-ci ilin may ayında imzalanmış «Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Ukrayna Mədəniyyət və Turizm Nazirliyi arasında 2008 – 2013-cü illər üzrə əməkdaşlıq haqqında Protokol»a əsasən 16–19 iyun tarixində Azərbaycanda Ukrayna Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət Günləri çərçivəsində Bakıda və Sumqayıtda konsertlər, sərgilər təşkil olunmuşdur.

18 iyun tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq Artisti, Dövlət Mükafatı Laureatı Tofiq Kazımovun 90 illik yubileyi keçirilmişdir.

İyun ayının 20-dən 25-dək Muzey Mərkəzində tanınmış rəssam Səhət Veysovun 60 illik yubileyi münasibətilə fərdi sərgisi keçirilmişdir.

20 iyun tarixində Muzey Mərkəzində «Azərbaycan teatrı dünən, bu gün, sabah» teatr portalının təqdimatı keçirilmişdir.

25 iyun tarixində Heydər Əliyev Sarayında Azərbaycan peşəkar milli teatrının 140 illik yubileyi keçirilmişdir. Yubiley münasibəti ilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən bir sıra teatr xadimləri fəxri adlarla və dövlət mükafatları ilə təltif olunmuşdur.

2013-cü ilin 4–7 iyul tarixində Fransanın regionlarında Azərbaycan mədəniyyətini, tarixini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər

Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 2012–2013-cü illər ərzində həyata keçirilən «Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri» layihəsinin yekun tədbiri kimi Kann şəhərində Atəşfəşanlıq festivalında Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət günləri çərçivəsində Ənvər Sadıxovun qrupunun, İsfar Sarabskinin, Şahin Növrəslinin və Elçin Şirinovun caz qruplarının, Azərbaycan Dövlət Simfonik Orkestri və solistlərin, caz qrupunun, Dövlət Rəqs Ansamblının iştirakı ilə konsertlər təşkil olunmuşdur.

«Paytaxtdan bölgələrə» layihəsinin IV mərhələsində Şirvan (2–4 iyul), Xaçmaz (5–7 iyul), Sumqayıt (8–10 iyul) Dövlət Rəsm Qalereyalarında Fərəh Ələkbərli, İsmayıl İsmayılov, Novruz Məmmədov, Mehbarə Abbasova, Əhəd Məmmədov və s. gənc rəssamların əsərlərindən ibarət «Azərbaycan İncəsənət Festivalı – 2013» adlı müasir incəsənət sərgiləri təşkil olunmuşdur.

17–21 iyul tarixində Qırğızıstan Respublikasının Mədəniyyət, İnformasiya və Turizm Nazirliyinin təşkilatçılığı ilə Qırğızıstanın Çolpan-Ata şəhərində «Populyar musiqi ifaçılarının İssuk-Kul» adlı beynəlxalq festivalı keçirilmişdir. Tədbirdə Azərbaycanı gənc müğənni Amil Məmmədov təmsil etmişdir.

Hesabat ilinin 24 iyul – 6 avqust tarixlərində Qəbələdə V Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Rusiya, Türkiyə, Böyük Britaniya, ABŞ, İtaliya, Fransa, Koreya, İsrail, Litva, Kuba və Qazaxıstandan dünya şöhrətli dirijorlar, musiqiçilər və kollektivlər – Yerusəlim Simfonik Orkestri, Yuri Başmet və «Yeni Rusiya» simfonik orkestri, Kuba caz qrupu, Amos Talmon, Boris Berezovski, Vadim Repin, Oksana Yablonskaya, Dmitri Yablonski, Yader Benyamini, Mirko Roverelli, Karmelo Korrado Karuzo, İdil Biret, Nina Koqan, Jean Bernard Pommier, Jan Lothem Konig, Ayman Musaxacayeva, Aleksandr Solovyov, Sergey Leyferkus, Muza Rubayskite, Hee Youn Choue, Mixail Qutman və başqaları iştirak etmişlər. Festival konsertlərində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Kamera Orkestri, Xalq Artistləri Fərhad Bədəlbəyli, Rauf Abdullayev, Murad Adıgözəlzadə, Yalçın Adıgözəlov, Murad Hüseynov, Yeganə Axundova, Mənsum İbrahimov, Əməkdar İncəsənət Xadimi Fəxrəddin Kərimov, Əməkdar Artistlər Gülnaz İsmayılova, Toğrul Qəniyev, Elçin Əzizov, Fəridə Məmmədova, Səbinə Əsədova, Elçin Həşimov, Elnur Əhmədov, Sahib Paşazadə, beynəlxalq müsabiqələr laureatları Fuad İbrahimov, Yusif Eyvazov, Elvin Qəniyev, Azər Rzazadə və başqa istedadlı gənc solistlər, muğam ifaçıları çıxış etmişlər.

14–15 avqust tarixində Qəbələdə türkdilli ölkələrin Prezidentlərinin rəsmi görüşünə həsr olunmuş konsert təşkil olunmuşdur. Konsertdə Q.Qarayev adına Dövlət Kamera Orkestri, solistlər Samir Cəfərov, Azər Zeynalov, İnarə Babayeva, Aqşin Abdullayev, İlkin Əhmədov, Səbinə Babayeva və başqaları iştirak etmişdir.

Britaniya Şurasının (British Council) dəvət ilə avqustun 18–25-də Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti Böyük Britaniyanın Edinburq şəhərində keçirilən Beynəlxalq Teatr Festivalında iştirak etmişdir. İşgüzar səfər zamanı nümayəndə heyətinin rəhbəri, nazir müavini Ədalət Vəliyev Britaniya Şurasının rəhbər işçiləri, o cümlədən, Baş icraçı direktor Martin Devidson, idarə heyətinin üzvü Grehem Şeffild, dram və musiqi teatrları üzrə müşavir Endrü Cons, teatr məsələləri üzrə məsləhətçi Devid Miklem və Britaniya Şurasının Bakı nümayəndəliyinin direktoru xanım Elizabet Uayt ilə Azərbaycan Respublikası və Böyük Britaniya arasında möhkəm teatr əlaqələrinin yaranması və inkişafı perspektivlərini müzakirə etmişdir. Britaniyalı teatr mütəxəssislərinin Bakıda müxtəlif səpkili təlimlər keçirmələri, eləcə də Azərbaycan teatrlarının Böyük Britaniyada keçirilən beynəlxalq teatr festivallarında iştirakı barədə razılıqlar əldə edilmişdir.

Hesabat ilinin 2–12 sentyabr tarixində Azərbaycanda «TÜRKSOY» təşkilatının 20 illiyi ilə bağlı TÜRKSOY fotoqraflarının 10-cu görüşü keçirilmişdir. Tədbirdə iştirak edən səkkiz türkdilli ölkəni təmsil edən 14 fotoqraf Bakı şəhəri və onun ətrafını, daha sonra dörd qrupa ayrılaraq Azərbaycanın bütün bölgələrini gəzmiş, tarixi əhəmiyyətli, ölkəmizin turizm potensialı və müasir inkişafını göstərən yerlərinin fotolarını çəkmişlər. Sentyabr ayının 11-də «Qalereya – 1969» qalereyasında keçirilən yekun sərgidə həmin işlərdən seçilmiş fotolar nümayiş olunmuşdur.

18–28 sentyabr tarixində Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyliyə həsr olunmuş V Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Artıq ənənə halını almış bu möhtəşəm festivalın açılışı 5-ci ildir ki, 18 sentyabr «Musiqi Günü»nə təsadüf etmişdir. Builki festivalda Rusiya, Türkiyə, Almaniya, Fransa, ABŞ, Slovakiya və Litvadan tanınmış dirijor və solistlər, gənc, istedadlı ifaçılar, musiqi kollektivləri – Münhen Yeni Filarmonik Orkestri, Boqdan Varxal adına Slovakiya Dövlət Kamera Orkestri, «Romantik» kvarteti, «Utopik» kvarteti, Peter Rundel, Bricit Pinter, Vilija Poskute və Tomas Daukantas, Svetlana Berejnaya, V.Vorona, Viktoriya Çenskaya, Teymuraz Ququşvili, Petry Rakovitse, Varvara Nepomnyaşaya, Nikita

Volov, Daniel Tağıyev iştirak etmişlər. Festivalda Azərbaycanın aparıcı kollektivləri və musiqiçiləri ilə yanaşı, gənc nəslin istedadlı nümayəndələri də iştirak etmişlər. Festival konsertlərində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Buta Kamera Xoru, Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestri, dirijorlar – Rauf Abdullayev, Teymur Göyçayev, Yalçın Adıgözəlov, Fuad İbrahimov, Əyyub Quliyev, Elnarə Kərimova, solistlər – Nərgiz Əliyarova, Elnarə Kəbirlinskaya, Nəzakət Rimazi, gənc istedadlı ifaçılar – Anar İbrahimov, Riad Məmmədov, Cəmilə Qarayusifli, Firuzə Xancalova və başqaları çıxış etmişlər.

Festival çərçivəsində musiqisevərlər üçün Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında «Arşın mal alan» musiqili komediyasının 100 illiyinə həsr olunmuş yubiley tamaşası, GUAM ölkələri solistlərinin iştirakı ilə dahi italyan bəstəkarı C.Verdinin 200 illiyinə həsr olunmuş «Aida» operası nümayiş olunmuşdur. Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Dövlət Simfonik orkestrinin, dirijor P.Rundel və vokalçı Bricit Pinterin iştirakı ilə dahi alman bəstəkarı Rixard Vaqnerin 200 illiyinə həsr olunmuş yubiley konserti təqdim olunmuşdur.

Festival proqramında, həmçinin Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə «Türk xalqlarının musiqisi» adlı elmi konfrans və konsert keçirilmişdir.

Üzeyir Hacıbəylinin Ev-Muzeyində «Üzeyir evinin qonaqları» layihəsi adlı silsilə konsertlərdə gənc musiqiçilər iştirak etmişlər. Hər il olduğu kimi Ağcabədidə «Qarabağ» Muğam Mərkəzində təşkil edilən festival tədbirində Şuşa Musiqili Dram Teatrının «Üzeyir Hacıbəyli, musiqi və gülüş dünyası» adlı tamaşası təqdim olunmuşdur.

2013-cü ilin 8–12 sentyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Belarusun Brest şəhərində keçirilmiş «Belaya vejna» Beynəlxalq Teatr Festivalında Hüseynbala Mirələmovun «Xəcalət» əsəri ilə çıxış etmişdir.

20 sentyabr tarixində Azərbaycan Dövlət Musiqili Teatrında 141-ci teatr mövsümünün açılış mərasimi keçirilmişdir.

22–30 sentyabr tarixində Moldova rəssamlarının Azərbaycana yaradıcılıq səfəri təşkil edilmişdir. Səfər zamanı 4 Moldova rəssamı Azərbaycana gəlmiş, 7 gün ərzində Bakı şəhəri və onun ətrafını gəzmiş, rəsmlər çəkmişlər. 27 sentyabr tarixində «Qalereya – 1969» qalereyasında Moldova və yerli rəssamların çəkdiyi seçmə işlərdən ibarət yekun sərgi keçirilmişdir.

Roma Opera Teatrı ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı arasında ikitərəfli əməkdaşlıq haqqında Memorandumun imzalan-

ması və digər uzunmüddətli layihələrin müzakirə edilməsi məqsədilə Roma Opera Teatrının direktoru Katello de Martino, Roma şəhəri merinin köməkçisi Daniela Traldi və Roma Opera Teatrı direktorunun köməkçisi Galli Mikele sentyabrın 24-dən 28-dək Bakıda səfərdə olmuşlar. Sentyabrın 26-da qonaqlar Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevlə görüşmüş, Roma Opera Teatrı və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı rəhbərliyi tərəfindən ikitərəfli əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

25–29 sentyabr tarixində Azərbaycan Dövlət Rus Dram Teatrı Moskva şəhərində qastrol səfəri ilə çıxış etmişdir.

Hesabat ilinin 29 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Rusiyanın Həştərxan və Kalmıkiya Muxtar Respublikasında Rəsul Rzanın «Ana qaz», L.Nurenin «Müharibə» tamaşaları ilə çıxış etmişdir.

12 oktyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq Artisti, Azərbaycan Respublikasının Dövlət Mükafatları Laureatı, professor Arif Məlikovun 80 illiyinə həsr olunmuş yubiley konserti keçirilmişdir. Konsertdə Xalq Artisti Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin ifasında Arif Məlikovun 2, 4, 6, 7 saylı simfoniyaları səslənmişdir. Filarmoniyanın foyesində Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən hazırlanmış, bəstəkarın həyat və yaradıcılığına həsr olunan fotosərgi nümayiş olunmuşdur.

Azərbaycan mədəniyyətini və incəsənətini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 19 oktyabr tarixində İtaliyanın Florensiya şəhərinin «Teatro Comunale» zalında tədbir keçirilmişdir. Konsertdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, solistlər və muğam ansamblı iştirak etmişlər.

19 oktyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq Artisti Ramiz Məlikin 70 illiyinə həsr olunmuş «Qoca kloun tələb olunur» tamaşasının premyerası keçirilmişdir.

23 oktyabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq Artisti Hacağa Abbasovun 125 illik yubileyi qeyd olunmuşdur.

2013-cü ilin 23 oktyabr – 2 noyabr tarixlərində Bakıda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Mədəniyyət Fondu tərəfindən V Beynəlxalq Caz Festivalı keçirilmişdir. Festival çərçivəsində Heydər Əliyev Sarayı, Beynəlxalq Muğam Mərkəzi və Caz

Mərkəzində keçirilmiş konsertlərdə Joshua Redman Quartet, Kenny Garret, Avishai Kohen, Marcus Miller, Bob James and David Sanborn kimi dünyaşöhrətli musiqiçilər, habelə Azərbaycanın tanınmış caz ifaçıları və istedadlı gənc caz musiqiçiləri çıxış etmişlər.

Beynəlxalq Caz Festivalı günlərində Caz mərkəzində mədəniyyət və incəsənət sahəsində gənclər üçün ustad dərslər keçirilmişdir. Ustad dərslərinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə tanınmış caz ifaçıları – Samuel Rohrerin (İsveçrə) 27–30 oktyabr tarixində, Adam Baldych (Polşa), Michel Benita (Fransa) və Philippe Garcia (Fransa) isə 31 oktyabr – 2 noyabr tarixlərində Bakıya səfər etmişlər.

28 oktyabr – 2 noyabr tarixlərində Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə keçirilmiş «2+1» II Eksperimental Teatr Festivalının cədvəlinə uyğun olaraq 28 oktyabr tarixində Festivalın açılış mərasiminə, 31 oktyabr tarixində isə Mingəçevir Dram Teatrının «Zibillik» adlı tamaşasına baxış keçirilmişdir.

29 oktyabr tarixində Azərbaycan Milli Kitabxanasında teatr-tamaşa və konsert müəssisələrinin direktor və mühasiblərinin iştirakı ilə toplantı keçirilmişdir.

31 oktyabr 2013-cü il tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyevin iştirakı ilə əsaslı bərpadan sonra Şəki Dövlət Dram Teatrının açılış mərasimi keçirilmişdir.

İngiltərə və Azərbaycan cəmiyyətlərinin mədəni və dostluq əlaqələrinin inkişafı və ölkəmizin musiqi sənətinin dünyada tanıdılması məqsədilə 23–29 oktyabr tarixində azərbaycanlı musiqiçilər Vüsalə Musayeva, Elnur Zeynalov, Elçin Həşimov, Elnur Əhmədov, Elvin Xoca Qəniyev, Nərminə Qəniyeva və Ayla Seyidova Londonda konsert proqramı ilə çıxış etmişlər.

Hesabat ilinin 1 noyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında tanınmış dirijor və bəstəkar, Xalq Artisti Yaşar İmanovun 80 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Gecədə Əməkdar İncəsənət Xadimi Fəxrəddin Kərimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin ifasında Yaşar İmanovun əsərləri səslənmişdir.

Noyabr ayının 5-dən 10-dək «Fusion Doll» II Bakı Beynəlxalq Kukla Biennalesi keçirilmişdir. Biennaledə dünyanın 13 ölkəsindən (Azərbaycan, Rusiya, Ukrayna, İtaliya, Latviya, Gürcüstan, Belarus, Belçika, Çexiya, Estoniya, Almaniya, Qazaxıstan və İsrail) 20 kukla ustası iştirak etmişdir. Tədbirdə Azərbaycanı «KUKLA» Art Qalereyası, Elmira Abbaslı, Pərviz Hüseynov, İrina Qundorina, Tamilla Qurbanova və «DA ART» studiyasının tələbələri təmsil etmişlər. Sərgi tamaşaçıların geniş marağına səbəb olmuş,

yerli və xarici KİV-də və sosial şəbəkələrdə geniş işıqlandırılmışdır. Bu tədbir dünyada biennale formatında təşkil olunan ilk və yeganə müəllif kuklaları sərgisidir. Tədbirdə dünyanın ən nüfuzlu müəllif kuklaları ustalarından olan Siu Ling Cornelia Wang, Svetlana Pçelnikova, Laura Skottolini və başqalarının iştirakı «Fusion Doll» II Bakı Beynəlxalq Kukla Biennalesinin artan nüfuzunun göstəricisidir.

Fransanın Paris şəhərindəki xarici ölkələrin mədəniyyət mərkəzlərinin təşkilatçılığı ilə keçirilən XII «Jazzycolors» Caz Festivalında iştirak etmək məqsədilə Azərbaycanın caz triosu Elçin Şirinov (piano), Səlim Məmmədov (bas) və Elvin Bəşirov (zərb alətləri) 5–12 noyabr tarixində Paris və Qrenobl şəhərlərinə ezam olunmuşlar.

2013-cü ilin 9–16 noyabr tarixində UNİMA – Beynəlxalq Kukla Teatrları Assosiasiyası ilə birgə «Cırtdan» II Beynəlxalq Kukla Teatrları Festivalı keçirilmişdir.

Festivalda Azərbaycandan A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Qax Dövlət Kukla Teatrı, Böyük Britaniyadan Dorset Kukla Teatrı, Yaponiyadan «Yuki» Teatrı, İtaliyadan Teatro Verde Burattini və «Kapra Ballerina», Bolqarıstandan «Tarqovişte» Kukla Teatrı, Xorvatiyadan «Zorin dom» Karlovaç Şəhər Teatrı, İsveçrədən «Le Ginyöl Roulettes» Kukla Teatrı, Macarıstandan İvet Bojik Kompaniyası, Tatarıstandan «Ekiyat» Dövlət Kukla Teatrı 12 tamaşa ilə çıxış etmişlər.

15 noyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında görkəmli Azərbaycan bəstəkarı, Xalq Artisti, professor Musa Mirzəyevin 80 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Gecədə Əməkdar İncəsənət Xadimi Fəxrəddin Kərimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin və Dövlət Xor Kapellasının ifasında Musa Mirzəyevin əsərləri səslənmişdir. Filarmoniyanın foyesində isə Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən hazırlanmış, bəstəkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi nümayiş olunmuşdur.

Azərbaycan mədəniyyətini və incəsənətini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 13 noyabr tarixində Fransanın Paris şəhərindəki Azərbaycan Mədəniyyət Evində və 19 noyabr tarixində Strasburq şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illiyinə həsr olunmuş konsertlər keçirilmişdir. Konsertlərdə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin kiçik heyəti, vokalçılar, musiqiçilər, muğam ifaçıları çıxış etmişlər.

Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasındakı Səfirliyinin təşəbbüsü ilə 19 noyabr tarixində Braziliya-Azərbaycan diplo-

matik əlaqələrinin qurulmasının 20 illiyi münasibətilə Braziliyanın paytaxtı Braziliya şəhərində Klaudio Santoro adına Milli Teatrın Simfonik Orkestrinin konserti keçirilmiş, konsertdə Xalq Artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru Yalçın Adıgözəlov çıxış etmişdir.

19 noyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında tanınmış pianoçu və bəstəkar, «Dan ulduzu» ansamblının yaradıcısı, Əməkdar İncəsənət Xadimi Gülarə Əziz qızı Əliyevanın (1933–1991) anadan olmasının 80 illiyinə həsr olunmuş tədbir təşkil edilmişdir. Tədbirdə «Dan ulduzu» ansamblı, Xalq Artistləri İlhamə Quliyeva, Yalçın Rzazadə, Azər Zeynalov, Əməkdar Artist Almaz Orucova, gənc müğənnilər – Aqşin Abdullayev, Nurlan Növrəsli, Şəhla Həmidova çıxış etmişlər.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 20 noyabr tarixində Almaniyanın Köln və 5 dekabr tarixində Hamburq şəhərlərində Azərbaycan musiqiçilərinin iştirakı ilə konsertlər keçirilmişdir. Konsertlərdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, solistlər, muğam ifaçıları, Əməkdar Artist İsfar Sarabski və caz qrupu iştirak etmişlər.

22–25 noyabr tarixində Azərbaycanın İtaliyadaki Səfirliyi və Milandakı Azərbaycan İcması tərəfindən Milanda Gənc Azərbaycanlı Rəssamların sərgisi keçirilmiş və Azərbaycan Dövlət Kukla Teatrının cari repertuarında olan Ə.Səmədlinin «Cik-cik xanım» tamaşası oynanılmışdır.

22–28 noyabr tarixində Muzey Mərkəzinin sərgi salonunda Ərdəbildən olan rəssam Vədud Müəzzinin fərdi sərgisi keçirilmişdir. Sərgidə müxtəlif mövzularda yağlı boya və pastel texnikası üslubunda işlənmiş əsərlər, ulu öndər Heydər Əliyev, Məhəmməd Hüseyn Şəhriyar, Şah İsmayıl Xətai, Füzuli, Şəms Əttar, Habil Əliyev, Ağaxan Abdullayev kimi şəxsiyyətlərin portretləri, eləcə də Şahdağ və 1830-cu illərdə çəkilmiş fotolardan ilhamlanaraq çəkilən köhnə Bakı rəsmlərindən ibarət 110 əsər nümayiş olunmuşdur. Həmçinin V.Müəzzinin əl işi olan 15-dən çox heykəltəraşlıq nümunəsinin fotoları da sərgilənmişdir.

22 noyabr tarixində Azərbaycan Dövlət Rus Dram Teatrında Dövlət sifarişi ilə hazırlanmış M.Lermontovun «Maskarad» tamaşasına ictimai baxış keçirilmişdir.

23–24 noyabr tarixində Minsk Dövlət Opera və Balet Teatrında dahi Azərbaycan bəstəkarı Qara Qarayevin «Yeddi gözəl» baletinin premyerası keçirilmişdir. Baletin quruluşçu dirijoru Vyaçeslav Voliç, quruluşçu xoreoqrafı Y.Puzakov, quruluşçu rəssamı Aleksandr Kostyuçenko olmuşdur. Tamaşa Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə hazırlanmışdır.

26 noyabr tarixində Heydər Əliyev Sarayında görkəmli müğənni, Xalq Artisti Mirzə Babayevin (1913–2002) anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Tədbirdə Xalq Artistləri Flora Kərimova, Azər Zeynalov, Samir Cəfərov, Əməkdar Artistlər Gülyaz və Gülyanaq Məmmədovalar, İlqar Muradov, Zaur Əmiraslanov, gənc müğənnilər Arzu Əliyeva, Bəyimxanım Vəliyeva, Aqşin Abdullayev, Vaqif Şıxəliyev, Nurlan Növrəsli, Vüsalə Əsgərova, Ramil Qasımov və rəqs kollektivləri iştirak etmişlər.

Azərbaycan Respublikasının Avstriyadakı Səfirliyinin müraciətinə əsasən Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Sloveniyanın Çepovan kəndində yerləşən qəbirüstü abidəsinin bərpası və yenidənqurulması ilə bağlı işlər başa çatdırılmışdır.

27 noyabr tarixində Muzey Mərkəzində Mədəniyyət və Turizm Nazirliyi, Teatr Xadimləri İttifaqı, Teatr Muzeyi və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə «Azərbaycan teatrı–140» mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

29 noyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında Əməkdar İncəsənət Xadimi, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayevin 70 illiyinə həsr olunmuş müəllif konserti keçirilmişdir. Konsertdə dirijor Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, skripkaçı Stanislav Malışev (Moskva) və fleyta ifaçısı Vladimir Serov (Moskva) iştirak etmişdir. Filarmoniyanın foyesində Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən hazırlanmış, bəstəkarın həyat və yaradıcılığını əks etdirən fotolar nümayiş olunmuşdur.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 29 noyabr tarixində Reyms şəhərində və 11 dekabr tarixində Muluzda görkəmli Azərbaycan şairəsi Məhsəti Gəncəvinin 900 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir. Tədbirlərdə instrumental ansambl, muğam ifaçıları, vokalçılar çıxış etmiş, Məhsəti Gəncəvinin sözlərinə romanslar və mahnılar ifa olunmuşdur.

Hesabat ilinin dekabrın 5-də Azərbaycan Dövlət Filarmoniyasında tanınmış bəstəkar, Xalq Artisti Elza İbrahimovanın (1933–2011) anadan olmasının 75 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, G.Əliyeva adına «Dan ulduzu» ansamblı, Xalq Artistləri Flora Kərimova, Yalçın Rzazadə, Əməkdar Artistlər Almaz Orucova, İlqar Muradov, müğənnilər Ramil Qasımov, Aqşin Abdullayev və başqaları iştirak etmişlər. Filarmoniyanın foyesində Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən hazırlanmış, bəstəkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi nümayiş olunmuşdur.

1–20 dekabr tarixində Dərbənd Dövlət Azərbaycan Dram Teatrının Bakıya və Azərbaycanın regionlarına qastrol səfərləri keçirilmişdir.

Dekabrın 5-də Moskvada Qalina Vişnevskayanın Opera İfaçılığı Mərkəzində Rostropoviç Fondunun təqaüdçülərinin iştirakı ilə keçirilən konsertdə həmin fondun dəvəti ilə gənc fleyta ifaçısı, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin artisti, Mstislav Rostropoviç Fondunun təqaüdçüsü, Nicat Məmmədov iştirak etmişdir.

5–12 dekabr tarixində Latviyanın Riqa şəhərində Riqa şəhər Şurasının təşkilatçılığı ilə keçirilən Gənc ifaçıların vokal musiqisi üzrə beynəlxalq festivalında gənc istedadlı musiqiçi Çingiz Mustafayev iştirak etmişdir.

6 dekabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında tanınmış dirijor, Əməkdar İncəsənət Xadimi Elşad Bağırovun konserti keçirilmişdir. Konsertdə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri və pianoçu Andrey Şibko (Rusiya) iştirak etmişlər.

12–15 dekabr tarixində Moskva şəhərində dünyanın ən böyük kukla sərgisi sayılan IV Moskva Beynəlxalq «Kukla İncəsənəti» Sərgisi keçirilmişdir. Sərgidə Azərbaycanı «KUKLA» Art Qalereyası, kukla ustaları Pərviz Hüseynov, İrina Qundorina və Tamilla Qurbanova təmsil etmişlər.

16 dekabr tarixində «Zamanla üz-üzə» layihəsinin 1-ci mərhələsi çərçivəsində ilk dəfə olaraq Bakıda, Gənc Tamaşaçılar Teatrında görkəmli bəstəkar Fərəc Qarayevin 70 illiyi ilə əlaqədar «Journey to love» monooperasının premyerası keçirilmişdir. Tamaşanın səhnələşdirilməsində Ukraynadan dirijor Vladimir Runçak, tanınmış rejissor, Gürcüstanın Əməkdar İncəsənət Xadimi Gela Kandelaki və digər mütəxəssislər iştirak etmişdir.

MUZEY İŞİ

Hesabat dövründə muzey fondlarının komplektləşdirilməsi, ekspozisiyalarının təkmilləşdirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, onlara əməli və metodiki kömək göstərilməsi, mövcud olan nöqsanların aradan qaldırılması istiqamətində məqsədyönlü iş aparılmış, respublika muzey işçilərinin geniş müşavirəsi keçirilmiş, rayon (şəhər) muzey direktorları ilə söhbətlər aparılmış, muzeylər tərəfindən təqdim edilmiş hesabatlar təhlil edilmişdir.

Respublikanın tarix, tarix-diyarşünaslıq və döyüş şöhrəti muzeylərində 20 Yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər təşkil olunmuşdur. Tədbirlərdə sərgilər, mühazirələr, tarix dərsləri, faciənin şahidləri ilə görüşlər təşkil olunmuşdur. Şəhidlər Xiyabanına və abidələrə ziyarətlər təşkil edilmişdir.

Viktor Klaynın Göygöl rayonunda yerləşən evində muzeyin təşkili və təmir-bərpa, bədii tərtibat işlərinin həyata keçirilməsi üçün evdəki əşyaların təhlükəsizliyini və düzgün mühafizəsini təmin etmək məqsədilə «Azərbaycan Respublikası Muzey Sərvətlərinin və Muzey Kolleksiyasının Uçotu və Mühafizəsinə Dair Təlimat»a uyğun olaraq, əşyalar siyahıya alınmış, fotoşəkillər çəkilmiş və elmi pasportlaşdırma işləri aparılmışdır.

Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi və «Burqanovlar evi» Moskva Dövlət Muzeyinin təşkilatçılığı ilə 30 yanvar tarixində Muzey Mərkəzinin Akt zalında «İqor Burqanov – Müasir Xalça» adlı beynəlxalq elmi konfrans təşkil olunmuş, konfransda İqor Burqanovun yaradıcılığına həsr edilmiş məruzələr dinlənilmişdir. «Sərhədsiz sənət: Azərbaycan xalça dünyası İqor Burqanovun yaradıcılığında» adlı müsabiqənin nəticələrinə əsasən qalib gəlmiş iştirakçıların mükafatlandırılma mərasimi keçirilmiş, qaliblərə diplomlar təqdim edilmişdir.

2013-cü ilin aprel ayında Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış hündürmərtəbəli yaşayış binalarından ibarət qəsəbənin açılışı ilə bağlı keçirilmiş tədbir çərçivəsində qəsəbədə inşa edilmiş məktəbin ikinci mərtəbəsində Zəngilan rayonunun Tarix-Diyarşünaslıq Muzeyinin eksponatlarından ibarət sərgi təşkil edilmişdir.

8 may tarixində Gürcüstanın Tbilisi şəhərində M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin təntənəli açılış mərasimi keçirilmiş, açılış mərasimində Gürcüstanın Baş naziri Bidzina İvanişvili iştirak etmişdir. Muzeyin beş dəfə artırılmış sahəsində yüksək tələblərə cavab verən müvafiq inzibati, fond və ekspozisiya sahələri ilə yanaşı, geniş kon-

frans zalı, ədəbiyyat kafesi, kitabxana, elektron kitabxana və rəsm qalereyası yaradılmış, bütün sahələr müasir texnika və mebel avadanlığı ilə təchiz edilmişdir. M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin ekspozisiyasının 6 zalından 3-də qədim dövrlərdən bu günə kimi Azərbaycanın mədəniyyətini və incəsənətini təcəssüm etdirən ekspozisiya, 3 zalda isə M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən, bədii tərtibatı memorial üslubda gerçəkləşdirilmiş ekspozisiya yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 22.05.2009-cu il tarixli 292 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı»nın icrası vəziyyətinin müzakirə edilməsi məqsədilə 7 may tarixində Azərbaycan Milli İncəsənət Muzeyində muzey işçilərinin respublika müşavirəsi keçirilmişdir.

18 may Beynəlxalq Muzeylər günündə Bakı şəhər muzeyləri tərəfindən müxtəlif mövzularda tədbirlər keçirilmişdir. Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya Nazirliyinin təşəbbüsü ilə hər il ənənəvi olaraq keçirilən «Muzeylər gecəsi» aksiyası çərçivəsində Beynəlxalq Muzeylər Günü münasibətilə tədbirlər təşkil olunmuş və muzeylərdə Açıq Qapı günü elan edilmişdir.

İCOM (Beynəlxalq Muzeylər Şurası) Beynəlxalq Muzeylər Günündə «Muzeylər gecəsi»nin muzey işçilərinin peşə bayramı ilə vəhdətdə «Muzeylər (yaddaş+yaradıcılıq) = sosial dəyişiklik» devizi altında keçirilməsini elan etmişdir.

Hesabat ilinin mayın 18-də görkəmli dövlət xadimi, yazıçı, publisist Nəriman Nərimanovun Xatirə Muzeyinin əsaslı təmir və bədii tərtibat işlərinin başa çatdırılması ilə əlaqədar muzeyin açılış mərasimi keçirilmişdir.

7 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan Milli İncəsənət Muzeyinin yeni keçid korpusunun açılışı mərasimi keçirilmişdir. Yeni korpus Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə layihə əsasında inşa olunmuşdur. 2009-cu ildə tikintisinə başlanılmış Azərbaycan Milli İncəsənət Muzeyinin yeni korpusunun mükəmməl layihə əsasında inşa olunması ölkəmizdə həyata keçirilən yenidənqurma işlərinin geniş miqyasını və keyfiyyətini göstərir. Burada milli memarlıq elementləri ilə yanaşı, beynəlxalq təcrübədən də geniş istifadə olunmuşdur. Foyedə nümayiş etdirilən, qədim Şamaxının Xınıslı yaşayış məntəqəsində aparılan arxeoloji qazıntılar zamanı tapılan, eramızın I–III əsrlərinə aid olan insan fiqurları Azərbaycanda heykəltəraşlığın çox qədim tarixə

malik olduğunu sübut edir. Laçın rayonundan tapılan at formalı məzar daşı isə eramızın XVI əsrinə aiddir. Burada təşkil edilmiş art-köşk muzeyə gələnlərin böyük marağına səbəb olmuşdur. Yeni korpusun metal fondunda qiymətli metallardan hazırlanmış müxtəlif incəsənət nümunələri saxlanılır. Buradakı rəngkarlıq bölməsində Azərbaycan, Qərbi Avropa, Rusiya və Şərq rəssamlarının müxtəlif dövrlərə aid 3000-dən çox nəfis sənət incisi mühafizə olunur. Qrafika fondundakı sayı 6000-ə çatan yüksək sənət nümunələri də Azərbaycan, Qərbi Avropa və Rusiya rəssamlarına məxsusdur. Bu fondlarda Finlandiya istehsalı olan ən müasir avadanlıqlar quraşdırılmışdır.

13–15 iyun tarixində Bakı şəhərində Beynəlxalq Musiqi Muzeyləri və Kolleksiyaları Assosiasiyasının üzvlərinin toplantısı keçirilmişdir. Tədbir çərçivəsində Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin hazırladığı «Azərbaycan-Rusiya: Musiqi paralelləri» adlı sərgi təşkil olunmuşdur.

18 iyun tarixində İCOC-nun və «Azərbaycan Xalçaçıları» İctimai Birliyinin üzvü, Amerika kolleksiyaçısı Qrover Şiltsinin xanımı Beverli Şilts həyat yoldaşının şəxsi kolleksiyasından iki ədəd Azərbaycan xalçasını («Əjdahalı» Qarabağ, XVIII əsr və Gəncə-Qazax, XIX əsr) Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinə hədiyyə etmişdir.

29 iyun və 3 iyul tarixlərində İstanbulda ATƏT Parlament Assambleyasının növbəti yay sessiyası keçirilmişdir. 2014-cü ildə ATƏT Parlament Assambleyasının Azərbaycanda keçirilməsi münasibətilə İstanbul şəhərində sessiya zamanı ölkəmiz haqqında təqdimat pavilyonu nümayiş olunmuşdur. Tədbirdə Azərbaycan haqqında dolğun məlumat verilmiş, ölkəmiz təmsil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, UNESCO-nun birgə layihəsi çərçivəsində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün inşa edilən yeni binada tikinti işləri başa çatdırılmışdır. Muzeyin yeni ekspozisiyasının dizayn layihəsinin işlənməsi üçün tədqiqat və bədii tərtibat işlərinin aparılması ilə əlaqədar Avstriyanın «Hs art storage Gmbh» şirkəti Bakıya dəvət olunmuş və hazırda işlər görülməkdədir.

Samux rayonunda fəaliyyət göstərən Tarix-Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyasının yaradılması ilə əlaqədar burada toplanılmış eksponatların zənginləşdirilməsi məqsədilə Gəncə Tarix-Diyarşünaslıq Muzeyindən müəyyən eksponatlar müvəqqəti olaraq Samux Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verilmişdir.

Hesabat ilində Tovuz rayonunda Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin yenidən qurulması ilə əlaqədar muzeyin ekspozisiyası 20 sentyabr tarixindən ziyarətçilər üçün bağlanılmışdır. Hazırda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında yeni muzey binasının inşası davam edir.

Cəlilabad Tarix-Diyarşünaslıq Muzeyində ekspozisiyanın sistemləşdirilməsi, bəzi vitrin və stendlərin bir-birinə uyğunlaşdırılması, yeniləri ilə əvəz edilməsi, etiketaj və annotasiyaların dəyişdirilməsi işlərinin aparılması ilə əlaqədar müəyyən işlər görülmüşdür.

Astara rayon Kakalos kənd sakini, «Əvəsor» Folklor Xalq kollektivinin rəhbəri Fərbiyə Şabanovanın təşəbbüsü ilə toplanılmış və hazırda Kalakos kənd Mədəniyyət Evində saxlanılan mis döymə, saxsı məmulatları, xalq tətbiqi sənəti nümunələri, sənəd, şəkil və sairələrdən ibarət, ümumi sayı 2000-ə qədər olan kolleksiya əsasında yeni muzeyin yaradılması məsələsinə baxılmışdır. Eksponatların əksəriyyətinin elmi, tarixi və bədii əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, Astara rayon Kakalos kənd Mədəniyyət evində təşkil edilmiş muzeyin 26 sentyabr tarixindən Astara rayon Tarix-Diyarşünaslıq Muzeyinin filialı kimi fəaliyyət göstərməsi qərara alınmışdır.

25 oktyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan mədəniyyətinin zəngin və böyük tarixi dövrünü əks etdirən, xalq sənətkarları tərəfindən əsrlər boyu yaradılmış incilərdən ibarət «Azərbaycan incəsənəti minilliklər boyu» adlı sərginin açılış mərasimi və «Azərbaycan el sənəti» adlı kitab-albomun təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 22.05.2009-cu il tarixli 292 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı»nın icrası vəziyyətinin öyrənilməsi və yerlərdə əməli köməyin göstərilməsi məqsədilə 19–26 noyabr tarixində Astara, Lənkəran, Lerik, Yardımlı və Masallı rayonlarında monitorinq keçirilmişdir.

Şabran rayonunun Pirəbədil kəndində fəaliyyət göstərən Qəzənfər Musabəyovun Ev-Muzeyinin binasının tarixi-memarlıq abidəsi kimi qeydə alındığını, muzeyin kolleksiyasında çoxlu sayda bölgə üzrə tarixi sənəd, foto və arxiv materiallarının, müxtəlif səpkili əyani eksponatların, o cümlədən, xalq tətbiqi sənəti nümunələrinin qorunub saxlanıldığını nəzərə alaraq və kəndin tarixi, burada yetişmiş görkəmli tarixi şəxsiyyətlər barədə dolğun məlumatın təqdim edilməsi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri ilə 25 noyabr 2013-cü il tarixindən Şabran rayonunun Pirəbədil kəndində fəaliyyət göstərən Qəzənfər Musabəyovun Ev-Muzeyi Pirəbədil Tarix Muzeyi adlandırılmışdır.

2013-cü ilin 2 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni tikilmiş binasının açılış mərasimi keçirilmişdir. Açılış mərasimi zamanı dövlət başçısına gələcəkdə qurulacaq tam ekspozisiyanın dizayn layihəsi təqdim edilmiş və muzeyin fondlarından ibarət sərgi yaradılmışdır.

Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyi tərəfindən Berlin İbtidai və Qədim Dövr Tarix Muzeyinin fondlarında Azərbaycanın tunc dövrünü, xüsusilə də Xocalı-Gədəbəy mədəniyyətini əks etdirən 2600-dən çox eksponat qorunub saxlanılır. Heç bir nəşrdə öz əksini tapmamış bu eksponatların elmi cəhətdən tədqiq olunması ilə əlaqədar muzeyə elmi-tədqiqat komissiyasının ezam olunması barədə məsələ qaldırılmışdır. Aparılan danışıqlar nəticəsində Berlin İbtidai və Qədim Dövr Tarix Muzeyinin fondlarında Alman Tədqiqat Birliyi və Azərbaycan mütəxəssisləri tərəfindən birgə elmi-tədqiqat işlərinin aparılması, tədqiqat əsasında elmi məqalələrin yazılması barədə razılıq əldə edilmişdir. Bu məqsədlə Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmrinə əsasən elmi-tədqiqat komissiyası yaradılmışdır. İlkin tədqiqat işlərinin aparılması ilə bağlı 9–12 dekabr tarixində komissiyanın iki üzvü Berlin şəhərinə ezam olunmuşdur.

Muzeylərin fondlarının ölkəşünaslığa və diyarşünaslığa dair eksponatlarla zənginləşdirilməsi məqsədilə hesabat dövründə Nazirlik tərəfindən bir sıra əşyalar alınmışdır:

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində yaradılmış Musiqi Alətləri Dövlət Kolleksiyası üçün:

– Həsənov Zakir tərəfindən təqdim edilən 1 ədəd qaval, 1 ədəd zurna və 1 ədəd balaban;

– İtaliyanın Kremona şəhərində fəaliyyət göstərən tanınmış skripka ustası Vladimir Ovçinnikov (Vincenzo Obici) tərəfindən təqdim edilən 1 ədəd alt və 1 ədəd skripka;

– Səməd Vurğunun Ev-Muzeyinin fondunu zənginləşdirmək məqsədilə Xalq Yazıçısı Yusif Səmədoğlunun ailəsi tərəfindən təqdim edilmiş bir ədəd xalça;

– Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin fondunun zənginləşdirilməsi məqsədilə görkəmli bəstəkar, SSRİ Xalq Artisti Soltan Hacıbəyova məxsus arxiv materialları;

– Qara Qarayevin Ev-Muzeyinin fondunun komplektləşdirilməsi məqsədilə Əməkdar İncəsənət Xadimi, bəstəkar Fərəc Qarayev tərəfindən təqdim edilmiş görkəmli bəstəkar, SSRİ Xalq Artisti və SSRİ Dövlət Mükafatı Laureatı Qara Qarayevə məxsus arxiv materialları və bəstəkar, Əməkdar

İncəsənət Xadimi, professor İsmayıl Hacıbəyovun «P.İ.Çaykovskinin portreti» və «İ.F.Stravinskinin portreti» adlı rəsm əsərləri;

– Xocalı Tarix-Diyarşünaslıq Muzeyinin fondunun zənginləşdirilməsi məqsədilə isə Məhərrəmov Səxavət Bəhmən oğlu tərəfindən təqdim olunan və Xocalının tarixini əks etdirən 31 ədəd əşya.

Muzey fondlarında qorunub saxlanılan eksponatların uçotu, mühafizəsi, konservasiyası və bərpası üzrə işin təkmilləşdirilməsi ilə əlaqədar 2013-cü il ərzində L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində, Milli İncəsənət Muzeyində, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində, Üzeyir Hacıbəylinin Ev-Muzeyində, Naxçıvan Muxtar Respublikasında Bəhruz Kəngərlinin Ev-Muzeyində, Naxçıvan şəhər Tarix-Diyarşünaslıq, Hüseyn Cavidin Ev-muzeylərində, Şəki şəhər muzeylərində, Sabirabad, Qax, Göygöl, Beyləqan, Ucar, Qusar, Gəncə, Biləsuvar, Lerik, Cəlilabad, Salyan, Şəmkir, Şirvan tarix-diyarşünaslıq muzeylərində bərpası tələb olunan 450-dən çox eksponat Nazirliyin Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi tərəfindən bərpa edilmişdir. Eyni zamanda mərkəz tərəfindən Quba, Şəmkir, Sabirabad, Saatlı rayonlarında eksponatların konservasiyası üzrə sərgi-treninqlər keçirilmişdir.

Fransada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Evinə Nazirlik tərəfindən ölkəmizin tarixi və mədəniyyətinə aid müxtəlif səpkili əşyalar: 3 ədəd xalça, 4 ədəd rəsm əsəri, 4 ədəd tam dəst milli geyim nümunələri, Azərbaycan bayraqları, suvenirlər alınıb hədiyyə edilmiş, Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzinə lazımi çap məhsulları göndərilmişdir.

QEYRİ-MADDİ MƏDƏNİ İRS

Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, təbliği və təşviqi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuş «2010–2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları» Proqramı ilə əlaqədar 2013-cü il üçün Xaçmaz şəhəri «Azərbaycanın Əfsanələr Paytaxtı», Zaqatala şəhəri «Azərbaycanın Folklor Paytaxtı» və Göygöl şəhəri «Azərbaycanın Sənətkarlıq Paytaxtı» elan edilmişdir. 19 fevral tarixində Bakı şəhərində yerləşən Muzey Mərkəzində «2013-cü il üçün Azərbaycanın Xalq Yaradıcılığı Paytaxtları»nın təqdimat mərasimi keçirilmişdir. Yeni «paytaxt» seçilmiş şəhərlərə bununla bağlı hazırlanmış xatirə kubokları və fəxri diplomlar təqdim edilmişdir.

Təsdiq edilmiş illik tədbirlər planına əsasən «paytaxt» seçilmiş şəhərlərdə il ərzində nominasiyalara uyğun olaraq təntənəli mərasimlər, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslar, dəyirmi masalar, konsertlər, müsabiqələr, festivallar, sərgilər, yarmarkalar, infoturlar və s. keçirilmişdir.

Hesabat ilinin 18–23 mart tarixində Türkmənistanın Axal vilayətində, Kopetdağın ətəklərində keçirilən Beynəlxalq Novruz bayramına həsr olunmuş silsilə tədbirlərdə Nazirliyin əməkdaşlarından və Azərbaycan Dövlət Filarmoniyasının Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solistlərindən ibarət 26 nəfərlik nümayəndə heyəti iştirak etmişdir.

Respublikamızın incəsənət ustalarının çıxışları böyük maraqla qarşılanmış və bayramın ən maraqlı ifalarından biri kimi qiymətləndirilmişdir.

Bununla yanaşı, Türkmənistan Respublikasının Axal vilayətində keçirilmiş «Novruz-sülh və xeyir bayramı» adlı elmi konfrans çərçivəsində Azərbaycan Respublikasının pavilyonunda Azərbaycanın tarixinə və mədəniyyətinə həsr olunmuş sərgi təşkil edilmiş, Milli Kulinariya Mərkəzi tərəfindən təqdim olunmuş milli mətbəx nümunələri bayram iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir.

25–26 mart tarixində Belarus Respublikasının Mədəniyyət Nazirliyinin, Mədəniyyət İnstitutunun, UNESCO Milli Komissiyasının və UNESCO Moskva Bürosunun təşkilatçılığı ilə Minsk şəhərində keçirilmiş «Qeyri-maddi mədəni irsin müəyyənləşdirici amil kimi qorunmasında identifikasiya və inventarizasiya» adlı beynəlxalq elmi-praktiki seminarda Nazirliyin iştirakı təmin edilmişdir.

20–23 aprel tarixində Bakı şəhərində, İsmayıllı və Qəbələ rayonlarında Rusiya Federasiyası Tatarıstan Respublikasının rayon mədəniyyət şöbə müdirlərindən ibarət nümayəndə heyəti üçün «Qeyri-maddi mədəni irsin

qorunmasında Azərbaycan modeli» adlı təcrübə mübadiləsi səfəri təşkil edilmişdir. Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycanda qeyri-maddi mədəni irs sahəsində həyata keçirilmiş konseptual proqram və layihələrlə tanış olmuş və bu təcrübəni öz ölkələrində tətbiq edəcəklərini bildirmişlər.

7–8 may tarixində Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, UNESCO üzrə Türkiyə Milli Komissiyasının və Eskişehir Valiliyinin təşkilatçılığı ilə Eskişehir şəhərində təşkil olunmuş «Nəsrəddin Xoca tədqiqatları» üzrə beynəlxalq seminarda və «Nəsrəddin Xoca lətifə ənənələrinin çoxmillətli nominasiya sənədlərinin hazırlanması» üzrə dəyirmi masada Nazirliyin və AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun nümayəndələri iştirak etmişlər. Albaniya, Azərbaycan, Banqladeş, Bolqarıstan, Bosniya və Herseqovina, Çin, Əfqanıstan, Gürcüstan, İordaniya, İraq, Küveyt, Qazaxıstan, Qırğızıstan, Livan, Makedoniya, Mərakeş, Misir, Moldova, Pakistan, Polşa, Rumıniya, Səudiyyə Ərəbistanı, Sudan, Tacikistan, Tunis, Türkiyə, Ukrayna, Yəmən və UNESCO təmsilçilərinin iştirak etdiyi bu beynəlxalq tədbirlərin əsas məqsədi Molla Nəsrəddin lətifə ənənələrinin çoxmillətli nominasiya sənədlərinin hazırlanması, UNESCO-nun «Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı»na daxil edilməsi ilə bağlı təklif irəli sürülməsi imkanlarının araşdırılması və məsələnin UNESCO-nun «Qeyri-maddi mədəni irsin qorunması haqqında» Konvensiyasına uyğunluğuna dair ilkin müzakirələrin aparılması olmuşdur.

28 may tarixində Tatarıstan Respublikasının (Rusiya Federasiyası) Kazan şəhərində Nəriman Nərimanovun xatirə lövhəsinin açılış mərasimində Azərbaycan aşıqlarının iştirakı təmin edilmişdir.

2013-cü ilin 5–11 iyun tarixində Rusiya Federasiyası Dağıstan Respublikasının Mahaçqala şəhərində keçirilmiş «Xəzər dənizi-dostluq sahilləri» Rusiya regionları və Xəzəryanı ölkələrin II Beynəlxalq Xalq Yaradıcılığı Festivalında Lerik rayonunun «Uzunömürlülər-Rəfti» Folklor Xalq kollektivinin 16 nəfərdən ibarət üzvü və 2 nəfər aşıq iştirak etmişdir.

12–16 iyun tarixində «2010–2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları» Proqramına əsasən 2012-ci ildə Azərbaycanın Folklor Paytaxtı elan edilmiş Masallı şəhərində Mədəniyyət və Turizm Nazirliyi və Masallı rayon İcra Hakimiyyəti tərəfindən II Beynəlxalq Folklor Festivalı keçirilmişdir. Festivalda respublikamızın tanınmış folklor kollektivləri ilə yanaşı, Dağıstan (RF), Gürcüstan, İran, Qazaxıstan, Latviya, Rusiya və Türkiyədən bədii kollektivlər iştirak etmişdir. KİV-in də qatıldığı Festival ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

29 iyun tarixində Azərbaycan aşıq poeziyasının və aşıq sənətinin görkəmli nümayəndəsi, müasir Şirvan aşıq məktəbinin yetirməsi Aşıq Məmmədağa Babayevin 80 illiyi ilə əlaqədar Azərbaycan Dövlət Mahnı Teatrında yubiley konserti keçirilmişdir.

Hesabat ilinin 24–25 avqust tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Qəbələ rayon İcra Hakimiyyətinin təşkilatçılığı və «Qafqaz Resort Hotel»in dəstəyi ilə Qəbələ rayonunda I Mürəbbə Festivalı keçirilmişdir. Avqustun 24-də mehmanxananın qarşısındakı meydanda təşkil edilmiş Festivala Qəbələ ilə yanaşı, Ağdaş, Balakən, Göyçay, İsmayıllı, Qax, Oğuz, Şəki, Ucar, Yevlax və Zərdab rayonlarının təmsilçiləri qatılmışlar. Festivalda iştirakçı rayonların hər birindən 12 çeşiddə mürəbbə hazırlayan 12 nəfər, habelə həmin rayonların bədii kollektivləri, xalq tətbiqi sənəti ustaları iştirak etmişlər. Daha sonra Festivalın yarış formasında təşkil olunmuş hissəsinə start verilmişdir. Bu hissədə müvafiq sahə üzrə mütəxəssislər və digər ekspertlərin yer aldığı 8 nəfərdən ibarət münsiflər heyəti təqdim edilən mürəbbələri müxtəlif xüsusiyyətlər üzrə qiymətləndirmişlər. Qaydalara əsasən hər iştirakçı müsabiqəyə bir mürəbbə növü ilə qatılmış və Festivalda nümayiş olunan 12 çeşid mürəbbənin hər biri 100 ballıq sistemlə qiymətləndirilmişdir.

Festivala avqustun 25-də yekun vurulmuşdur. Münsiflər heyətinin qərarına əsasən Ucar rayon sakini Bəsirə Abbasovanın hazırladığı ərik mürəbbəsi 93,6 balla birinci yerə layiq görülmüş və qalibə 500 manat pul mükafatı təqdim edilmişdir. Qəbələ komandası ən yaxşı gül mürəbbəsinə görə ikinci yerə və 300 manat pul mükafatına, Oğuz komandası isə gavalı mürəbbəsinə görə üçüncü yerə və 200 manat pul mükafatına layiq görülmüşdür. Digər rayonların komandaları diplomlarla təltif olunmuşdur. Yarışlar bitdikdən sonra mürəbbələrin satışı üçün şərait yaradılmışdır.

Festival çərçivəsində xalq tətbiqi sənəti ustalarının əsərlərindən ibarət sərgi-yarmarka təşkil edilmiş, həmçinin iştirakçı bölgələrin bədii kollektivləri öz bacarıqlarını nümayiş etdirmişdir.

2–3 sentyabr tarixində Türkiyə Respublikasının Eskişehir şəhərində təşkil edilmiş TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının IV Görüşündə və TÜRKSOY-un Qeyri-maddi mədəni irs üzrə VI Seminarında Nazirliyin nümayəndə heyəti iştirak etmişdir.

Görüşə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TÜRKSOY, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Rusiya, Moldova, Tatarıstan (RF), Başqırdıstan (RF), Şimali Kipr Türk Cümhuriyyəti, Altay (RF), Qaqauz Yeri (Moldova), Xakasiya (RF), Saxa (Yakutiya) və Tıva (RF) kimi

dövlətlərin geniş tərkibli nümayəndə heyətləri və tədbirə ev sahibliyi edən Türkiyə Cümhuriyyətinin mədəniyyət, elm və ictimai xadimləri qatılmışdır.

UNESCO üzrə Milli Komissiyaların əməkdaşlıq perspektivlərinin müəyyən edilməsinə həsr olunmuş IV Görüş çərçivəsində TÜRKSOY təşkilatının Qeyri-maddi mədəni irs üzrə VI Beynəlxalq Seminarı, Mədəni və təbii irs üzrə II Beynəlxalq Seminarı, Dünya Yaddaşı üzrə II Beynəlxalq Seminarı və Təhsil üzrə I Beynəlxalq Seminarı təşkil edilmiş, ətraflı müzakirələr aparılmış, müvafiq tövsiyələr verilmişdir.

2013-cü ilin 25–27 sentyabr tarixində UNESCO üzrə Rusiya Federasiyası Milli Komissiyasının dəstəyi və Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin Rusiya Dövlət Xalq Yaradıcılığı Evinin təşkilatçılığı ilə Rusiyanın Ulyanovsk şəhərində «Yeni dövrün mədəniyyəti» adlı III Beynəlxalq Mədəniyyət Forumu çərçivəsində keçirilmiş «MDB və Baltikyanı ölkələrdə qeyri-maddi mədəni irsin qorunması, inkişafı və idarə edilməsi» adlı beynəlxalq elmi-praktiki konfransda Azərbaycanı Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi təmsil etmişdir.

26–29 sentyabr tarixində Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Həştərxan şəhərində keçirilmiş Xəzəryanı əməkdaşlıq çərçivəsində Beynəlxalq Mədəni-Turizm Forumunda Nazirliyin nümayəndəsi iştirak etmişdir.

Ustad aşıqların xatirəsinin yad edilməsi, onların zəngin irsinin öyrənilməsi, gənc nəslin aşıq sənətinə olan marağının artırılması, Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ayrılmaz hissəsi olan aşıq sənətinin qorunub saxlanılması, milli mədəniyyətimizin inkişafında rolunun artırılması, tanıdılması və təbliğ edilməsi məqsədilə Azərbaycan aşıq poeziyasının tanınmış nümayəndəsi Aşıq Əkbər Cəfərovun anadan olmasının 80 illiyi ilə bağlı 30 sentyabr tarixində Bakı şəhərində R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında, həmçinin 12 noyabr tarixində Tovuz rayonunda yubiley tədbirləri təşkil edilmişdir.

11–13 noyabr tarixində Mexiko Federal Bölgəsinin Mədəniyyət Katibliyi və Meksikanın Milli Antropologiya və Tarix İnstitutunun Dünya İrsi Mərkəzinin təşkilatçılığı ilə Mexiko şəhərində «İdentifikasiyanın səsləri və kökləri, Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyanın 10 illiyi: inkişaf və perspektivlər» mövzusunda keçirilmiş beynəlxalq konfransda Nazirliyin əməkdaşı tərəfindən həyata keçirilən «Novruz bayramı: qeyri-maddi mədəni irsin beynəlxalq əməkdaşlığa töhfəsi» mövzusunda 45 dəqiqəlik təqdimat böyük maraqla qarşılanmışdır. Azərbaycan dövlətinin məqsədyönlü beynəlxalq mədəniyyət siyasəti nəticəsində Novruz

bayramının UNESCO və BMT səviyyəsində qeyd olunması tədbir iştirakçıları tərəfindən təqdirəlayiq hesab edilmişdir.

Milli mənəviyyatın və mədəniyyətin inkişaf özəyini təşkil edən diyarşünaslıq (adət-ənənə, bayram, mərasim, ayin, rəmz, sehr, sirr), folklor (musiqi, oyun-tamaşa, şifahi xalq yaradıcılığı) və sənətkarlıq (ənənəvi dekorativ, xalq təsviri və tətbiqi sənəti) üzrə qeyri-maddi mədəni irs nümunələrinin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması məqsədilə «Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri» tərtib edilir. Bu iş 3 mərhələdə aparılır. Artıq qeyri-maddi mədəni irs nümunələrinin siyahısı hazırlanmışdır. Hazırkı mərhələdə bütün nümunələr pasportlaşdırılır. Növbəti mərhələdə isə nümunələrin UNESCO standartlarına uyğun faylları hazırlanacaqdır.

Azərbaycan Milli Kulinariya Mərkəzi tərəfindən milli mətbəxin öyrənilməsi və təbliği istiqamətində aparılan işlər davam etdirilmişdir. «Üç nöqtə» filmi və «Azərbaycan Mətbəx kitabı» hazırlanaraq təqdimatı keçirilmiş, ADPU-nun Musiqi fənləri və onların tədrisi metodikası kafedrasında «Milli mətbəximiz və musiqimiz» mövzusunda elmi seminar təşkil edilmiş, Qafqaz və Asiya mətbəxlərini əhatə edən «The Cook Book» kitabında Azərbaycan bölməsi hazırlanaraq çap edilmiş, «Azerbaijani Cuisine» və «Söz mətbəxi» adlı kitablar nəşr edilmiş, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə təhsil alan gənc kulinarların I Ümumrespublika Çempionatı keçirilmişdir.

Bundan başqa, Azərbaycan kulinarlarının beynəlxaq çempionat və müsabiqələrdə iştirakları təmin edilmiş və ümumi nəticə olaraq, ölkəmizə 3 kubok, 15 qızıl, 14 gümüş, 21 bürünc və çoxsaylı diplom mükafatları gətirilmişdir.

Qeyd edilənlərdən əlavə, hazırda «Azərbaycan qeyri-maddi mədəni irsinin qorunmasına dair Dövlət Proqramı», «Qeyri-maddi mədəni irs subyektlərinin (ifaçı, kollektiv, sənətkar və sair) portfolio bankı»nın və Azərbaycan qeyri-maddi mədəni irsinin infrastruktur vahidlərinin və inventar avadanlığının mövcud durumunu əks etdirən «Şəhər (rayon) mədəniyyət mərkəzlərinin və onların filiallarının Dövlət Kadastrı»nın yaradılması, digər konseptual proqram və layihələr üzrə işlər davam etdirilmişdir.

MƏDƏNİ İRS

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına, Mədəniyyət və Turizm Nazirliyinin Tədbirlər Planına, kollegiyasının qərarlarına əsasən 2013-cü il ərzində Nazirlik tərəfindən Azərbaycanın mədəni irsinin özünəməxsusluğunun qorunub saxlanılması, tarix-mədəniyyət abidələrinin öyrənilməsi və mühafizəsi ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə «2014–2020-ci illərdə daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı üzrə» Dövlət Proqramı müvafiq qurumlarla razılaşdırılaraq təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.

«2013–2016-cı illərdə Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun inkişafı üzrə» və «Qafqaz Albaniyası irsinin tədqiqi, mühafizəsi və təbliğinə dair» Dövlət Proqramlarının qəbul edilməsi istiqamətində də işlər davam etdirilmişdir.

May ayında «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutunun fəaliyyəti barədə» Mədəniyyət və Turizm Nazirliyinin Kollegiyası keçirilmiş və müvafiq qərarlar qəbul olunmuşdur.

Hesabat ilində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə bağlı 10 may tarixində bütün qoruqlarda tədbirlər keçirilmiş, o cümlədən Xınalıq Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunda «Heydər zirvəsi»nə, «Keşikçidağ» Dövlət Tarix-Mədəniyyət Qoruğunda «İlham Əliyev zirvəsi»nə, «Avey» Dövlət Tarix-Mədəniyyət Qoruğunda Göyəzən dağına, Çıraqqala Tarix-Memarlıq Qoruğunda dünya əhəmiyyətli Çıraqqala abidəsinə yürüşlər təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunun mühafizəsinin təmin olunması və maddi-texniki təminatı barədə» 1 iyul 2009-cu il tarixli 365 nömrəli Sərəncamının icrası ilə bağlı qoruğun ərazisində aparılan geniş miqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidənqurma və abadlaşdırma işləri başa çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və xanımı, millət vəkili Mehriban Əliyeva bərpa-tikinti və yenidənqurma işləri ilə tanışlıq məqsədilə cari ilin 29 mart tarixində «Atəşgah məbədi» qoruğunu ziyarət etmiş və aparılan işlərlə tanış olmuşlar. Bu məqsədlə istifadəyə veriləcək yeni tikilidə muzey üçün ayrılmış 215 kv.m sahədə «Abşeronun maddi mədəniyyəti»nə aid müvəqqəti ekspozisiya təşkil edilmişdir.

Bağlanılmış müqaviləyə əsasən «Dd Studio» şirkəti tərəfindən «Atəşgah məbədi» qoruğunda aparılan bərpa-tikinti işlərinin yekunlaşması ilə bağlı istifadəyə veriləcək abidənin daxilinin, o cümlədən yeni inzibati binanın interyerinin və ekspozisiya sahəsinin bədii tərtibatının layihəsi

hazırlanmışdır. Layihə ilə bağlı mövzuya aid kifayət qədər tarixi materiallar, fotolar və s. məlumatlar toplanılaraq təqdim edilmişdir.

Müvafiq Tədbirlər Planına əsasən Böyük Mərdəkan qəsri abidəsində «Atəşgah məbədi» qoruğu tərəfindən abadlıq işləri aparılmışdır.

Ölkəmizin zəngin mədəni irsinin dünyada təbliği, eləcə də UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş «Atəşgah məbədi»nin tanıdılması məqsədilə UNESCO-nun rəsmi nəşri olan «World Heritage review» jurnalının aprel və iyun buraxılışlarında «Azərbaycan odlar yurdu» başlıqlı material yerləşdirilmişdir.

Şəki şəhəri «Yuxarı Baş» Dövlət Tarix-Memarlıq Qoruğunun UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi üçün İdarəetmə planının hazırlanması məqsədilə İCCROM-i baş direktorunun xüsusi məsləhətçisi Yukka Yokilehto 4–11 iyun tarixində növbəti dəfə Azərbaycanda işgüzar səfərdə olmuş və işçi qrupu ilə birgə müəyyən materialların hazırlanmasında iştirak etmişdir. Eyni zamanda Nominasiya faylının hazırlanması istiqamətində müvafiq işlər aparılmışdır.

Novruz bayramı münasibəti ilə Nazirlik tərəfindən «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq və «Yanar dağ» Dövlət Tarix-Mədəniyyət və Təbiət qoruqlarında təntənəli bayram tədbirləri, digər qoruqlarda isə qoruqların daxili imkanları çərçivəsində tədbirlər və Açıq Qapı günləri keçirilmişdir.

18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü bütün qoruqlarda qeyd edilmiş və Açıq Qapı günləri təşkil edilmişdir.

Eyni zamanda həmin gün «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunda «xalq gəzintisi» formatında bayram şənlikləri təşkil olunmuşdur.

Həmçinin ölkəmizin zəngin mədəni irsinin təbliği, milli memarlıq və bərpaçılıq sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində fəaliyyətin dəstəklənməsi və stimullaşdırılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin «Milli irs mükafatı» təsis edilmiş, 2013-cü il üzrə qaliblərin mükafatlandırılması mərasimi baş tutmuşdur.

Tədbir çərçivəsində «Atəşgah» Sığorta Şirkəti əmtəə nişanı kimi daşıdığı «Atəşgah məbədi»ni ikinci dəfə öz vəsaiti hesabına 3 milyon dollar məbləğində sığortalamışdır.

«Qobustan» Milli Tarix-Bədii Qoruğu 15–20 may tarixində Belçikada keçirilən Avropa Muzeylər Forumunda «Avropanın ən yaxşı muzeyi» mükafatı ilə təltif edilmişdir.

2012-ci ildə «Qobustan» Milli Tarix-Bədii Qoruğu ABŞ Dövlət Departamenti tərəfindən «Museum connect 2012» layihəsinə tərəfdaş seçilmişdir. Azərbaycan tərəfindən Mədəniyyət və Turizm Nazirliyi və «Qobustan» Milli Tarix-Bədii Qoruğu, ABŞ tərəfindən isə Amerika Hindularının Milli Muzeyi və Smitsonian İnstitutunun dəstəyi ilə layihə çərçivəsində

2013-cü ilin mart ayında ABŞ-da «Qayalarda yazılanlar» layihəsi həyata keçirilmişdir.

Hesabat dövründə tarix-mədəniyyət qoruqlarının sərhədlərini və mühafizə zonalarını əks etdirən xəritələrin hazırlanması istiqamətində də işlər davam etdirilmişdir. Şəki şəhəri «Yuxarı Baş» Tarix-Memarlıq Qoruğunun xəritəsinin hazırlanması üçün Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə müvafiq sifariş verilmişdir.

Xınalıq Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun Əbu-Müslüm və Xıdır Nəbi məscidlərində bərpa və konservasiya işləri tamamlanmışdır.

Lahıc tarixi-mədəniyyət, Çıraqqala Tarix-Memarlıq və «Şabran şəhəri» Tarixi Qoruqlarının yeni inzibati binalarının tikintisi və bu abidələrin konservasiyası ilə bağlı layihələr hazırlanmış, torpaq sahəsi ayrılmışdır.

Qəbələ rayonu Nic kəndindəki «Bulun» və «Göyün» məbədlərinin bərpasına, Oğuz şəhərindəki iki alban məbədinin konservasiya və istifadəsinə dair layihələr hazırlanmış və Dövlət Ekspertizasına təqdim edilmişdir.

«Avey» qoruğunun daxili vəsaiti hesabına abadlıq və təmir işləri görülmüşdür.

«Qobustan» Milli Tarix-Bədii Qoruğu abidələrinin müasir texnologiyalar vasitəsilə gənclər arasında təbliğinin vacibliyi nəzərə alınaraq İOS və Android tipli mobil vasitələr və sosial şəbəkələr (Facebook) üçün nəzərdə tutulmuş yeni layihələrin işlənilməsinə başlanılmışdır.

Hesabat dövründə «Şəki xanlarının evi»nin bərpası vaxtından əvvəl və yüksək səviyyədə başa çatdırılmışdır. Bu gözəl memarlıq abidəsinin açılışında ölkə Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Bundan əlavə, Gəncə şəhərindəki «Şah Abbas» və «Uğurlu Xan» karvansaralarında birinci mərtəbədə bərpa işləri davam etdirilmiş, karvansaraların sağ və arxa hissəsinin və ikinci mərtəbələrin tikintisinin layihə-smeta sənədləri ekspertiza olunmuşdur. Bərdə şəhərində «Allah-Allah» türbəsində isə konservasiya işləri elmi tədqiqat işlərinin davam etdirilməsinə ehtiyac yarandığından dayandırılmışdır.

Qazax rayonunda yerləşən «Sınıq körpü» abidəsinin bərpası ilə bağlı işlər davam etdirilmişdir. Azərbaycan-Gürcüstan mütəxəssislərindən ibarət müştərək işçi qrup yaradılmış, körpünün ətraf ərazilərində arxeoloji və elmi-tədqiqat işləri aparılmış, bərpa-konservasiya layihəsi hazırlanmışdır.

«Bir mənbədən satınalma metodu»ndan istifadə edərək «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutu ilə tarix və mədəniyyət abidələrinin Pasportlarının və müvafiq xəritə və proqram təminatının hazırlanması, daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası üçün elmi-layihələndirmə sənədlərinin tərtibi, işlənmə qaydası və təsdiqi üzrə təlimatın hazırlanması, abidələrin Mühafizə zonalarının müəyyənləşdirilməsi, Mühafizə zonalarının müəyyən-

ləşdirilməsi üzrə Göstərişlərin hazırlanması, Şəki şəhəri «Yuxarı Baş» Dövlət Tarix Memarlıq Qoruğunun UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi məqsədilə İlkin Fəaliyyət Planının və Uzunmüddətli İdarəetmə Planının hazırlanması və nəzərdə tutulan işlərin həyata keçirilməsi ilə bağlı məsləhətçi xidmətlərinə dair birbaşa müqavilələr imzalanmışdır.

Hesabat dövrü ərzində 100-ə yaxın abidənin pasportu tərtib edilmiş, bu məqsədlə proqram təminatı hazırlanmış, Şəki Xan Sarayının qala divarının təmiri, Xəzər rayonu Şağan qəsəbəsindəki XIV əsrdə inşa olunmuş qalanın qalıqlarının konservasiyası və Lənkəran şəhərində Tarix Diyarşünaslıq Muzeyinin (eyni zamanda «Mir Əhməd xanın yaşayış evi» adı ilə ölkə əhəmiyyətli abidələr siyahısındadır) əsaslı təmiri işlərinə başlanılmışdır.

«Xudafərin» və «Qız qalası» hidroqovşaqlarının tikintisi ilə bağlı müqavilənin son variantının (tərkib hissədən biri də Xudafərin körpülərinin qorunması ilə bağlıdır) işlənilməsinə dair XİN və aidiyyəti təşkilatların mütəxəssisləri ilə məsləhətləşmələr aparılmışdır.

Şəki rayonunun Fazıl kəndində yerləşən «Təpəbaşı» nekropolunun perspektivləri barədə (inkişafı, mühafizə zonası, istifadəsi) təkliflər toplusu hazırlanmış, Şəki şəhərində «Yuxarı Baş» Tarix-Memarlıq Qoruğu ərazisindəki «Aşağı Karvansara»nın mehmanxanaya uyğunlaşdırılması layihəsi üzrə «Ata Holdinq»in mütəxəssisləri ilə birgə işçi qaydada müzakirələr aparılmışdır.

Nazirliyin əməkdaşları və «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutunun mütəxəssisləri ilə İsmayıllı rayonunun Basqal kəndinin səlahiyyətli nümayəndələri arasında «Basqal kəndindəki Mərkəzi meydanın abadlaşdırılması» layihəsinin müzakirəsi və işçi cizgilərin hazırlanması ilə bağlı görüş keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən edilən vəzifələrin icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 22 fevral tarixində «Azərbaycan 2020: Mədəni irs prioritet inkişaf istiqamətlərindən biri kimi» mövzusunda konfrans keçirilmişdir.

Ölkəmiz ilk dəfə olaraq Avropa Arxeologiya Şurasının illik toplantısında təmsil olunmuşdur.

2013-cü ilin 18–19 mart tarixində Florensiyada Romualdo Del Bianko Fondunun Beynəlxalq Ekspertlər Şurasının XV illik toplantısında Nazirlik təmsil olunmuşdur.

24–27 sentyabr tarixində Memarlıq və arxeoloji abidələrin bərpası və konservasiyası sahəsində I Payız Məktəbi təşkil olunmuşdur. Tədbirin açılış mərasimi sentyabrın 24-də «Four Seasons» mehmanxanasında keçirilmişdir. Layihə çərçivəsində 30 gənc nəzəri təlimlərə qatılmış, «Qobustan»

Milli Tarix-Bədii və «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq qoruqlarını ziyarət etmiş, həmçinin Quba rayonunda «Xınalıq» Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunda arxeoloji qazıntılarda iştirak edərək praktiki məşğələlərə cəlb olunmuşdur.

27–30 sentyabr tarixində Azərbaycanda ilk dəfə olaraq «Avropa İrs Günləri» layihəsinə həsr olunmuş tədbirlər keçirilmişdir. Hər il ölkəmizin müxtəlif regionlarında keçirilməsi nəzərdə tutulan tədbirlər bu il Şəki, Qax, Zaqatala və Balakən rayonlarını əhatə etmiş, layihənin mərkəzi tədbiri sentyabrın 29-da Zaqatala rayonunda keçirilmişdir.

UNESCO-nun Dünya İrs Mərkəzi tərəfindən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və UNESCO üzrə Milli Komissiyanın təşkilatçılığı ilə 29–31 oktyabr tarixində Bakı şəhərində Dünya İrs Mərkəzinin Dövri Hesabatları üzrə Mərkəzi, Cənubi və Şərqi Avropa ölkələrinin (Albaniya, Azərbaycan, Belarus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Makedoniya, Rusiya, Gürcüstan, Macarıstan, Monteneqro, Polşa, Moldova, Çexiya, Rumıniya, Serbiya, Slovakiya, Sloveniya və Ukrayna) əlaqələndirici şəxslərinin və Azərbaycan üzrə UNESCO-nun Dünya İrs Siyahısında olan ərazilərin rəhbərlərinin treninq-seminarı keçirilmişdir. Treninq-seminarın keçirilməsində əsas məqsəd ərazisində dünya irsi abidəsi olan Mərkəzi, Cənubi və Şərqi Avropa ölkələri üzrə dövri hesabatın hazırlanması, o cümlədən, Mərkəz tərəfindən təqdim edilmiş Sorğunun Mərkəzin rəsmi saytında onlayn rejimində cavablandırılması metodunun öyrənilməsi olmuşdur.

31 oktyabr – 5 noyabr tarixində Bakı şəhərində Mədəniyyət və Turizm Nazirliyinin və Memarlar İttifaqının təşkilatçılığı, Beynəlxalq Memarlar İttifaqının dəstəyi ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş I Bakı Beynəlxalq Memarlıq Mükafatı müsabiqəsi keçirilmişdir. Tədbirdə iştirak etmək məqsədilə Beynəlxalq Memarlar İttifaqının baş katibi Mişel Barmakinin rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də MDB ölkələrinin memarlar ittifaqlarının sədrləri ölkəmizə səfər etmişlər. Tədbir günlərində Bakı Biznes Mərkəzində müsabiqə işlərinin sərgisi açılmış, qonaqlar üçün Bakı şəhərinin memarlıq abidələri ilə tanışlıq proqramı tərtib olunmuş, həmçinin noyabrın 3-də müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Hesabat dövründə BP Azərbaycan şirkətinin Səngəçal Terminalında yeni giriş yolu marşrutunun dəstəklənməsi məqsədi ilə həyata keçiriləcək arxeoloji axtarışların aparılması ilə əlaqədar tədbirlər həyata keçirilmişdir.

«Nərgiztəpə» yaşayış yeri arxeoloji abidəsində arxeoparkın yaradılması və abidənin turist marşrutuna salınması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və

Etnoqrafiya İnstitutu, Xocavənd Rayon İcra Hakimiyyəti və s. təşkilatlar ilə yazışmalar aparılmış və razılıq əldə edilmişdir.

Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi Layihəsi çərçivəsində arxeoloji abidələr olan ərazilərin tədqiqi ilə əlaqədar BP şirkəti ilə birgə araşdırma və tədqiqat işləri aparılmışdır.

Hesabat dövrü ərzində 7-dək tarix və mədəniyyət abidəsində qanunsuz olaraq təmir və bərpa işlərinin aparılması ilə əlaqədar akt tərtib olunmuş, 4 mühafizə müqaviləsi bağlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2013-cü il tarixli 14 nömrəli Sərəncamı ilə Salyan şəhərinin yaxınlığında yerləşən Muğan Babazanlı abidələrinin 2800 illiyinin qeyd olunması ilə əlaqədar «Tədbirlər planı» hazırlanmış və təkliflərin bildirilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasına və Salyan Rayon İcra Hakimiyyətinə təqdim edilmişdir.

Mədəniyyət və Turizm nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 13–14 noyabr tarixində Litva Respublikasının Vilnüs şəhərində «Mədəni İrs və Aİ 2020 – vahid yanaşmaya doğru» mövzusunda Beynəlxalq Konfransda iştirak etmiş, tədbirdə Azərbaycanda mədəni irs sahəsində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilmiş, «Azərbaycanda Avropa İrs Günləri»nə həsr olunmuş kitabça və videodisk konfrans iştirakçılarına paylanmışdır.

2013-cü ilin 14–17 noyabr tarixində İtaliya Respublikasının Paestum (Kapaço-Pestum) şəhərində keçirilmiş «Arxeoloji Turizm üzrə Aralıq Dənizi Yarmarkası»nda ölkəmizi Mədəniyyət və Turizm nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmiş, tədbir çərçivəsində keçirilən sərgidə ölkəmizin stendi qurulmuş, Azərbaycanın zəngin irsi və turizm potensialı barədə sərgi iştirakçılarına məlumat verilmiş, çoxsaylı video və çap materialları paylanılmışdır. Tədbir zamanı Vaqif Əliyevlə İtalyanın Salerno əyalətinin prezidenti Antonio İannone, Ümumdünya Turizm Təşkilatının Baş direktoru Taleb Rifahi, UNESCO-nun Baş katibinin müşaviri Munir Buşenaki, Mədəni Mülkiyyətin Qorunması və Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İKKROM) Baş direktoru Stefano de Karo, Sərginin kuratoru və əsas təşkilatçısı Uqo Pikarelli və başqaları arasında görüşlər keçirilmiş, ölkəmizlə mədəni əlaqələrin daha da gücləndirilməsi ilə bağlı gələcək əməkdaşlığın inkişafına dair müzakirələr aparılmışdır.

Nazirliyin əməkdaşları 27–29 noyabr tarixində İtaliya Respublikasının Roma şəhərində keçirilən UNESCO-nun Ümumdünya İrs Mərkəzinin məşvərətçi orqanı Mədəni Mülkiyyətin Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İKKROM) XXVIII Baş Assambleyasında iştirak etmiş, tədbir zamanı mədəni irsin qorunması üzrə ixtisaslaşmış beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələr qurulmuş, birgə perspektiv layihələr müzakirə olunmuşdur.

KİNEMATOQRAFİYA

«Azərbaycan kinosunun 2008–2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq, 2013-cü ilin əvvəlindən başlayaraq dövlət sifarişi ilə istehsalatda olan filmlər üzərində işlərin ardıcıl qaydada davam etdirilməsi üçün lazımi tədbirlər görülmüşdür. Hesabat dövründə C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında «Qisas almadan ölmə», «Ehram TV» («Ağ-qara gecələr»), «Qorxma mən səninləyəm–2» (Azərbaycan-Rusiya), «Dərvişin qeydləri» bədii filmləri təhvil verilmişdir. «Axınla üzü aşağı», «Nabat» və «Axırıncı dayanacaq» bədii filmlərinin, «Sirr» və «Axırıncı» (Azərbaycan-Rusiya) qısametrajlı bədii filmlərinin, altı qısametrajlı bədii filmdən ibarət olan «Motivlər» kinoalmanaxının, «Mansurovlar. Tarın səsində» və «Sarılar. Qarabağ atının səyahəti» sənədli filmlərinin istehsalına başlanılmışdır.

«Azərbaycanfilm» kinostudiyasının yenidən qurulması və onun maddi-texniki bazasının müasir tələblərə uyğun texnoloji avadanlıqla təchiz edilməsi istiqamətində 3-cü faza üzrə işlər tamamlanmışdır.

«Salnamə» sənədli filmlər studiyasında «Mən evimə qayıdıram» bədii filmi təhvil verilmək ərəfəsindədir. «Qırmızı bağ» bədii filminin (Azərbaycan-Rusiya) montaj işləri davam edir. «Mahmud və Məryəm» (Azərbaycan-Türkiyə) bədii filmi, «Müslüm Maqomayev» musiqili bədii-sənədli və «15 ispaniyalı Bakıda» (Azərbaycan-İspaniya) sənədli filmləri təhvil verilmişdir. Ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar «Əbədiyyət yolu» sənədli filmi istehsal olunaraq təhvil verilmişdir. «Şərəf və vicdan» («Hüseyn xan Naxçıvanski») – Azərbaycan-Rusiya, «Parisdən məktublar», «Lahıc etüdləri», «Ömrümün simfoniyası», «Müşketyor», «Vətəni ucaldan əməlin» («Kamran Hüseynov–100») sənədli filmləri istehsal edilmişdir.

«Yaddaş» sənədli filmlər studiyasında «Azərbaycanın Milli Qəhrəmanları» silsiləsindən 10 sənədli film, «Ağa Nemətulla», «Qəlbin monoloqu», «Qafqaza qayıdış» (Azərbaycan-Fransa), «Sirli bənövşə» («Məhsəti Gəncəvi») sənədli filmləri təhvil verilmişdir. «Qafqaz Albaniyasının memarlığı», «Lətif Feyzullayev» və «Çay bir aləm» sənədli filmləri hazırda istehsalın müxtəlif mərhələsindədir.

«Debüt» studiyasında «Alo, bu mənəm!» qısametrajlı bədii filmi təhvil verilmişdir.

«Azanfilm» studiyasında «Tənha ada» sənədli filmi təhvil verilmişdir. «Ən güclü kimdir?» cizgi filmi və «Həyatın işığı» sənədli filmi istehsala buraxılmışdır.

Hesabat dövründə kinonun təbliği ilə bağlı müəyyən işlər görülmüşdür. Fevralın 12-də Nizami Kino Mərkəzində dövlət sifarişi ilə «Azərbaycanfilm» kinostudiyasında rejissor Şamil Əliyevin çəkdiyi «Çölçü» bədii filminin təqdimatı keçirilmişdir. Həmin film 10-dan artıq beynəlxalq kinofestivalda iştirak etmişdir.

Fevralın 11-dən 15-dək Bakıda «Cizgi filmləri həftəsi» keçirilmişdir. Həftənin proqramına Bakının 8 ümumtəhsil məktəbində Azərbaycanın yeni cizgi filmlərinin nümayişi, uşaq evlərində, internat-məktəblərdə, Nizami Kino Mərkəzində «Cizgi bayramı» tədbirinin təşkili daxil edilmişdir.

Azərbaycan dramaturgiyasının banisi, böyük mütəfəkkir və ictimai xadim Mirzə Fətəli Axundzadənin 200 illik yubileyi ilə əlaqədar «Azərbaycanfilm» kinostudiyasında dövlət sifarişi ilə çəkilən «Sübhün səfiri» bədii filminin martın 12-də Tbilisi şəhərində təqdimatı keçirilmişdir.

«Yaddaş» sənədli filmlər studiyasında istehsal olunan Xalq Artisti Fərhad Bədəlbəylinin yaradıcılığına həsr edilmiş «Qəlbin monoloqu» sənədli filminin martın 15-də Caz Mərkəzində təqdimatı təşkil olunmuşdur.

2013-cü ilin aprelin 24-dən 27-dək Gürcüstanda Azərbaycan Kinosu Günləri keçirilmişdir. Qardabani, Rustavi, Marneuli bölgələrində və Tbilisi şəhərində rejissorlar Şamil Nəcəfzadənin «Qala», Yavər Rzayevin «İlahi məxluq», Samir Kərimoğlunun «Niyyət», Vaqif Mustafayevin «Milli bomba» və Ülviyyə Könülün «Vəkil hanı?» filmləri nümayiş olunmuşdur. Mayın 20-də Nizami Kino Mərkəzində görkəmli gürcü rejissoru Rezo Çxeidzenin iştirakı ilə onun məşhur «Əsgər atası» filminin yeni rəngli variantının təqdimatı keçirilmişdir.

Nizami Kino Mərkəzində mayın 5-də Azərbaycan mədəniyyətinin və kino sənətinin böyük hamisi Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfrans təşkil edilmişdir. Tanınmış kino xadimlərinin çıxışları ilə yanaşı, Xalq Artisti Vaqif Mustafayevin çəkdiyi «Xüsusi təyinat» sənədli filmi də nümayiş olunmuşdur.

14–25 may tarixində 66-cı Beynəlxalq Kann Kinofestivalında Azərbaycanı təmsil edən xüsusi pavilyon fəaliyyət göstərmişdir. Pavilyonumuzda milli kinomuzun tarixini və hazırkı durumunu əks etdirən audiovizual və çap materialları, ölkəmizin turizminə aid müxtəlif çeşiddə bukletlər ziyarətçilərə təqdim olunmuşdur. Festival boyu iri monitorda son illərdə istehsal olunmuş filmlərimiz və ölkəmiz haqqında reklam çarxları nümayiş etdirilmişdir.

İyunun 5-də və 6-da Azərbaycanda Belarus Mədəniyyət Günləri çərçivəsində «Brest qalası», «Belmondonun oğurlanması» və cizgi filmləri toplusu nümayiş olunmuşdur.

Hesabat ilinin avqust ayının 2-də Kino Gününə həsr olunmuş tədbir keçirilmiş, Xalq Artisti Eldar Quliyevin «Dərvişin qeydləri» bədii filmi təqdim olunmuşdur. Həmin gün respublikanın qırxa yaxın şəhərində Qarabağ müharibəsindən bəhs edən «Dolu» bədii filminin təqdimatı keçirilmişdir.

Dövlət Film Fondunda görkəmli kino və teatr aktyoru Əliağa Ağayevin – 90, sənədli kino ustası, rejissor Muxtar Dadaşovun – 100, görkəmli kino aktyoru Şahmar Ələkbərovun – 70 illiyinə həsr olunmuş xatirə axşamları, kinorejissor və operator Ələkbər Muradovun yaradıcılığına həsr olunmuş yubiley tədbiri, fotoqraf-rəssam Pərviz Quliyevin 70 illiyi ilə əlaqədar onun işlərindən ibarət fotosərgi təşkil olunmuşdur.

Nizami Kino Mərkəzində sentyabrın 26-da Xalq Yazıçısı Elçinin ssenarisi əsasında Azərbaycan-Türkiyə birgə istehsalı olan «Mahmud və Məryəm» bədii filminin Qala gecəsi, sentyabrın 30-da Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının 90 illik yubileyinə həsr olunmuş təntənəli gecə və dekabrın 18-də rejissor Şamil Nəcəfzadənin «Yaddaş» studiyasında çəkdiyi «Sirli bənövşə» sənədli-bədii filminin təqdimatı keçirilmişdir.

Noyabrın 15-də Heydər Əliyev Sarayında Yuli Qusmanın «Qorxma, mən səninləyəm. 1919» bədii filmi təqdim olunmuşdur.

Noyabrın 22-də «Üns» Yaradıcılıq səhnəsində Azərbaycanın Xalq Artisti, Dövlət Mükafatları Laureatı, kinorejissor Rasim Ocaqovun 80 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir.

Noyabrın 20-dən 24-dək Nizami Kino Mərkəzində keçirilmiş I Bakı Beynəlxalq Turizm Filmləri Festivalının müsabiqə proqramında 31 ölkədən 78 film iştirak etmişdir. Beynəlxalq münsiflər heyətinin qərarı ilə 7 nominasiya üzrə qaliblər mükafatlandırılmışlar. Festivalın açılışında tanınmış Fransa aktyoru Jerar Depardyenin iştirakı ilə çəkilmiş, Azərbaycan və Fransanın birgə istehsalı olan «Qafqaza qayıdış» sənədli filminin təqdimatı baş tutmuşdur. Həmçinin festival çərçivəsində «Odlar yurdu» fotomüsabiqəsi, turizm filmləri üzrə xarici ekspertlərin iştirakı ilə Azərbaycan Turizm İnstitutunda ustad dərsləri və s. tədbirlər təşkil olunmuşdur.

Dekabrın 5-dən 9-dək Nizami Kino Mərkəzində keçirilmiş Rusiya Kino Həftəsinin proqramına «Cəsus», «Metro», «Matç», «İki gün» və başqa filmlər daxil edilmişdir.

NƏŞRİYYAT, REKLAM, İNFORMASİYA VƏ KİTABXANA İŞİ

2013-cü il ərzində Nazirliyin müvafiq iş planına uyğun olaraq nəşriyyat, reklamın təşkili və informasiya sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Mayın 16-da Nazirliyin və ölkəmizin UNESCO yanındakı daimi nümayəndəliyinin təşkilatçılığı ilə qurumun Parisdəki mənzil-qərargahında görkəmli Azərbaycan şairi və mütəfəkkiri Məhsəti Gəncəvinin yaradıcılığının 900 illiyinə həsr olunan yubiley tədbiri olmuşdur. Baş nazirin müavini Elçin Əfəndiyev, UNESCO Baş direktorunun müavini Qianq Tanq, Mədəniyyət və Turizm nazirinin birinci müavini Vaqif Əliyev və digər rəsmi şəxslərin, həmçinin Fransa ictimaiyyətinin və UNESCO-da təmsil olunan xalqların nümayəndələrinin iştirak etdiyi tədbirdə şairin rübailəri səsləndirilmişdir. Qədim Musiqi Alətləri Ansamblının ifasında Azərbaycan xalq musiqisindən nümunələr ifa olunmuş, Azərbaycan, ingilis, fransız, rus, ərəb dillərində çap olunmuş «Məhsəti Gəncəvi» kitabı iştirakçılara paylanılmışdır.

«Prezident İlham Əliyev və mədəniyyət (2008–2013)» (2 cild), Qara Qarayevin «Fortepiano üçün üç səsli fuqa» partiturası, «Həsən bəy Zərdabi xatirələrdə», Ənvər Məmmədxanlının «Seçilmiş əsərləri» və «Həyatım ağrıyır», «Gəncə Dram Teatrı», «Djevdet Qadjiyev. Xronika jizni. Statyi. Vıskazıvaniya», «Tofiq Kazımovun rejissor dərsləri», «Pamyatniki Zapadnoqo Azerbaydjana», Ramiz Mirişlinin «Mənim ömrüm. Mahnılar toplusu», «Teatr naxışları», «Azərbaycan Dövlət Musiqili Teatrı», «Azərbaycan Dövlət Milli Dram Teatrı» (3 cild), Ramiz Zöhrabovun «Azərbaycan muğamları», Südabə Ağabalayevanın «Zamanla üz-üzə» (Xalq şairi Mirvarid Dilbazi haqqında), Munisə Abdullayevanın «Polifoniçeskiye formı v kamerno-instrumentalnom tvorçestve Kara Karayeva» Nigar Rəfibəylinin «Məhəbbətim bölünmədi», Elçinin «Romanlar» və «Meçta, jizn, literatura», «Nədir ömrün mənası?» (Elçin haqqında şeirlər), Firudun bəy Köçərlinin «Balalara hədiyyə», Rafael Hüseynovun «Məhsəti Gəncəvi» oçerki (13 dildə), «Söztək gözəl Məhsəti», «Məhsəti Gəncəvi – nəğmələr», «Tsaritsa derjavı rubai. Mexseti Qyandjevi», Surxay Əlibəylinin «Qeybdən gələn səs» (Qədir Rüstəmov haqqında), «Əhməd Bakıxanov xatirələrdə», Anarın «Literatura, iskusstvo, kultura Azerbaydjana» (III cild), Mübariz Xəlilovun «Pir Hüseyn Şirvani», Həcər Babayevanın «Ağabacı Rzayeva», V.Vinoqradovun «Mir muzıki Fikreta», «Cəfər Cabbarlının tərcüməsində dünya ədəbiyyatından seçmələr», Əli Kərimin «Seçilmiş əsərlər» (I cild), «Müasir musiqi haqqında esselər», «Ç.Aytmatov. Türk ruhunun qələbəsi», «İlin beşinci fəsli. Kamran», «Tərlan Seyidov. Məqalələr. Materiallar:

Azərbaycan musiqi mədəniyyəti haqqında» kitabları, «Sabir poeziya günləri»nin ədəbi almanaxı, «Azərbaycan Bəstəkarlar İttifaqının məlumat kitabçası», «Mədəniyyət» kataloqunun 6-cı sayı, «Azərbaycan bəstəkarlarının IX qurultayının bukleti» və s. nəşr olunmuşdur.

Bu nəşrlər arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə ulu öndərin adını daşıyan mədəniyyət obyektləri haqqında məlumatlardan və fotolardan ibarət fotoalbom kitabı xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan kitabı beynəlxalq müsabiqə və sərgilərdə uğurla təmsil olunmuşdur. 23–24 may tarixində Belarus Respublikasının paytaxtı Minsk şəhərində keçirilən X Beynəlxalq Kitab Sənəti müsabiqəsində ölkəmiz üç nominasiyada birincilik qazanmışdır. Nazirliyin dəstəyi ilə «Təhsil» nəşriyyatında nəfis şəkildə nəşr olunmuş Nizami Gəncəvinin «Lirika» kitabı «Art kitab» nominasiyasında, Ədalət Vəliyevin müasir teatrın strukturlaşma proseslərindən bəhs edən kitabı «Mədəniyyət. Elm. Təhsil» nominasiyasında və Vaqif Bəhmənlinin «Elm və təhsil» nəşriyyatında işıq üzü görən «Maqomayev planeti» kitabı «Mənim ölkəm» nominasiyasında birinci yeri tutmuşdur. Bununla yanaşı, «Şərq-Qərb» nəşriyyatında çapdan çıxan «Ana» kitabı «Uşaq və gənclər üçün kitab» nominasiyasında xüsusi diploma layiq görülmüşdür. «Qran-Pri» nominasiyasında isə professor Misir Mərdanovun «Azərbaycan təhsil tarixi» dördcildliyi xüsusi diplomla təltif olunmuşdur.

Hər il olduğu kimi bu il də beynəlxalq kitab sərgilərində Nazirliyin iştirakı ilə Azərbaycan kitabı uğurlu şəkildə təmsil olunmuşdur. 6–10 fevral tarixində Minsk, 15–17 aprel tarixində London, 18–21 aprel tarixində Budapeşt, 18–22 aprel tarixində Kişineu, 4–9 sentyabr tarixində Moskva, 9–13 oktyabr tarixində Frankfurt, 2–5 noyabr tarixində İstanbul şəhərlərində keçirilən Beynəlxalq Kitab Sərgisində nümayiş etdirilən milli nəşr və çap məhsullarımız ziyarətçilərin böyük marağına səbəb olmuş, ölkəmiz haqqında həqiqətlər onların diqqətinə çatdırılmışdır.

Frankfurt sərgisində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley tədbiri və Nazirliyin dəstəyi ilə işıq üzü görmüş «Heydər Əliyev adına» fotoalbomun təqdimat mərasimi, İstanbul Kitab Sərgisi çərçivəsində isə «Sözün qoşa qanadı – Məhsəti Gəncəvi, Nigar Rəfibəyli» adlı elmi, ədəbi-bədii tədbir və Azərbaycan yazıçılarının imza mərasimləri keçirilmişdir.

Hesabat dövründə nəşriyyat işi sahəsində ən əlamətdar hadisələrdən biri 23–25 sentyabr tarixində keçirilən III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası olmuşdur. Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkilində əsas məqsəd Azərbaycan dövlətinin kitab nəşri, kitabın təbliği və yayılması,

dərsliklərin, lüğətlərin, tərcümə və elmi ədəbiyyatın işıq üzü görməsinə yönəlmiş qərar və göstərişlərinin mühüm rolunu vurğulamaq, gənc nəslin kitaba maraq və sevgisini daha da artırmaq, Azərbaycan oxucusunun dünyanın aparıcı nəşriyyatlarının nəşrləri ilə tanışlığını təmin etmək olmuşdur.

İki ildən bir keçirilən bu beynəlxalq tədbir çərçivəsində dünyanın müxtəlif nəşriyyatlarının çap işləri nümayiş olunur, tanınmış yazıçılarla görüşlər, ədəbi-bədii gecələr, təqdimatlar, müzakirələr keçirilir, ən yaxşı nəşriyyatlar və ən yaxşı kitablar mükafatlandırılır.

Ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunan III Bakı Kitab Sərgi-Yarmarkasında əvvəlki iki sərgidə olduğu kimi kitab satışı və nümayişi üçün sahələr və bütün stend avadanlıqları iştirakçılara ödənişsiz verilmişdir. Sərgi-Yarmarkada 100-dən çox milli, 40-dan çox beynəlxalq nəşriyyat və təşkilatın, eləcə də səfirliklərin təmsilçiləri iştirak etmişdir.

Azərbaycan Milli Kitabxanasının 90 illiyi ilə bağlı tədbirlərin, eləcə də Avropa Milli Kitabxanaları Konfransının (CENL) XXVII illik və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının XV ümumi iclaslarının da sərgi-yarmarkanın keçirildiyi günlərə təsadüf etməsi sərginin əhəmiyyətinin daha da artmasına səbəb olmuşdur. Dünyanın 65 ölkəsindən bu iclaslara qatılan nümayəndələr sərgidə ziyarətçi və iştirakçı qismində iştirak etmişlər. Sərgidə dünyanın müxtəlif ölkələrindən gələn dünyaca məşhur nəşriyyat assosiasiyaları və poliqrafiya müəssisələrinin («Oxford University press», «АСКИ», «SİESTA Publishing House Ltd», «Zvaigzne ABC Publishers Ltd» və s.) nəşr məhsulları nümayiş olunmuşdur. Sərgi çərçivəsində kitab təqdimatları, xarici və Azərbaycan yazarları ilə görüşlər keçirilmiş, Xalq şairi Zəlimxan Yaqubun 13 cildliyinin təqdimatı, «Uşaqlar, kitab oxuyun» adlı müzakirə, uşaq ədəbiyyatı yaradıcıları ilə görüş, Rusiya nəşriyyatlarının təşkil etdiyi tədbirlər ziyarətçilərin marağına səbəb olmuşdur. Sərginin sonuncu günü «Müəllif günü» adlandırılmışdı. Həmin gün Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi və iki ildən bir təqdim edilən «Qızıl Kəlmə» mükafatının laureatları, rus şairi Yevgeni Reyn ilə görüş, GUAM ölkələri nümayəndələrinin iştirakı ilə «Mədəniyyətlərarası dialoqda çağdaş ədəbiyyatın rolu» mövzusunda müzakirələr ictimaiyyətin geniş marağına səbəb olmuşdur. Sərginin sonunda «Ən yaxşı kitab» və «Ən yaxşı nəşriyyat» nominasiyaları üzrə xüsusi ödüllər təqdim edilmiş, Azərbaycan ədəbiyyatının Türkiyədə çapı və təmənnasız yayılmasında göstərdiyi xidmətlərə görə Türkiyənin «Bengü» yayınları «Ən yaxşı nəşriyyat», AMEA-nın Folklor İnstitutunun nəşri olan «Qarabağ: folklor da bir tarixdir» kitabı isə «Ən yaxşı kitab» nominasiyasında xüsusi mükafata layiq görülmüşdür.

III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasını əvvəlki sərgilərdən fərqləndirən cəhətlərdən biri də sərgi ərəfəsində BBKS-nın internet saytının (www. bakubookfair.com) yaradılması olmuşdur. Sayt daimi fəaliyyət göstərəcək və istifadəçilər burada BBKS və digər beynəlxalq kitab sərgiləri ilə yanaşı, Azərbaycanda və dünyada kitab nəşri sahəsində baş verən yeniliklərlə tanış ola biləcəklər.

Hesabat dövründə, həmçinin «Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr məhsullarının satınalınması müsabiqəsi»nə müraciətlər qəbul olunmuş, təqdim edilən kitablara Müsabiqə Komissiyası tərəfindən baxılmış və 99 (doxsan doqquz) adda kitabın alınmasına qərar verilmişdir.

2013-cü il üçün «Qızıl Kəlmə» Ədəbi Mükafatı müsabiqəsinə yekun vurulmuşdur. Əsasnaməyə uyğun olaraq, müsabiqəyə təqdim olunan əsərlərin qəbulu 1 mart tarixində başa çatdırılmışdır. 4 nominasiya üzrə (nəsr, poeziya, ədəbi tənqid və publisistika və orijinaldan bədii tərcümə) 30 əsər qəbul edilmişdir.

Mustafa Çəmənlinin «Ölüm mələyi» və Pərvinin «Qar yağacaq» kitabları Nəsr nominasiyası, Adil Cəmilin «Yurd yerim – dərd yerim» və Elçin İsgəndərzadənin «Qürbət hücrəsində» kitabları Poeziya nominasiyası, Rüstəm Kamalın «Sözü işığa danışdım» və Əsəd Cahangirin «Kim yatmış kim oyaq?» kitabları Ədəbi-tənqid və publisistika əsərləri nominasiyası, Elxan Zal Qaraxanlı və Akif Əhmədgilin «Kuman nəğməsi» kitabı Bədii tərcümə nominasiyası üzrə «Qızıl Kəlmə» Ədəbi Mükafatlarına layiq görülmüşdür. «Qızıl Kəlmə» Ədəbi Mükafatı çərçivəsində Qismətin «Meqapolis hüznləri», Elnarə Akimovanın «Yeni təfəkkür və ədəbi tənqid» kitabları «Şans» ödülünü qazanmışdır. Ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində – mayın 7-də «Qızıl Kəlmə» Ədəbi Mükafatının qaliblərinin təltifolunma mərasimi keçirilmişdir.

Ölkəmizin mədəni irsi və tarix-mədəniyyət qoruqları mövzusunda qələmə alınan elmi-publisistik məqalələri dəyərləndirmək, təbliğ etmək, jurnalistləri bu mövzularda yazmağa həvəsləndirmək məqsədi ilə «Mədəni irs və tarix-mədəniyyət qoruqları» mövzusunda müsabiqə keçirilmiş, müsabiqə qaliblərinə pul mükafatları və diplomlar verilmişdir.

2013-cü ilin 13 may tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq Yazıçısı Elçin Əfəndiyevin 70 illik yubileyi keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq aprelin 22-də Ənvər Məmmədxanlının – 100, oktyabrın 31-də İslam Səfərlinin – 90, noyabrın 27-də Nigar Rəfibəylinin – 100, dekabrın 9-da Məmməd Arazın – 80 və dekabrın 17-də Kamran Hüseynovun – 100 illik yubiley tədbirləri keçirilmişdir.

Eyni zamanda 18 dekabr tarixində Dövlət Akademik Milli Dram Teatrında ikitərəfli razılaşma əsasında qırğız yazıçısı, ictimai xadim və mütəfəkkir Çingiz Aytmatovun 85 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir. Yubiley tədbirində Qırğız Respublikasının mədəniyyət, informasiya və Turizm nazirinin birinci müavini Akim Anarbekoviç Rekeşov, Çingiz Aytmatovun oğlu Askar Aytmatov və tanınmış kinorejissor, Qırğızıstanın Xalq Artisti Bolot Şamşiyev iştirak etmişdir.

14 oktyabr tarixində Beynəlxalq Muğam Mərkəzində «Prezident İlham Əliyev və Mədəniyyət (2008–2013)» 2 cildliyinin, 17 dekabr tarixində Azərbaycan Milli Kitabxanasında isə Vaqif Bəhmənlinin Kamran Hüseynova həsr olunmuş «İlin beşinci fəsli. Kamran» kitabının təqdimat mərasimləri keçirilmişdir.

Hesabat ilində Nazirliyin tabeliyində olan «Mədəniyyət» qəzeti və «Mədəni həyat» jurnalı vaxtlı-vaxtında nəşr olunmuş, öz səhifələrində ölkəmizin mədəni həyatında baş verən hadisələrə dair maraqlı yazılar dərc etmişdir.

Hesabat dövründə kitabxana işi sahəsində də xeyli nailiyyətlər əldə edilmişdir.

«Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın 2.2.41. bəndinin icrası ilə əlaqədar C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının nəzdində kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və Elektron kataloqların ümumi Toplu Kataloqu və AZLİBNET Milli Kitabxana-İnformasiya Mərkəzi yaradılmışdır. Toplu Kataloqun geniş təqdimatı keçirilmiş və kataloq istifadəyə verilmiş, Azərbaycan Diplomatik Akademiyasının Elmi Kitabxanasının elektron bazasına daxil edilmişdir.

«2013-cü ilin Azərbaycan Respublikasında «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi haqqında» Prezident Sərəncamının icrası, habelə kitabxanalarda oxucu auditoriyasını genişləndirmək məqsədilə bir çox kitabxanaların oxu zalında Wİ-Fİ zonaları yaradılmışdır.

Nazirliyin maliyyə vəsaiti hesabına Göyçay, Quba, Neftçala, Ucar, Laçın, Füzuli, Salyan və Masallı rayon mərkəzləşdirilmiş kitabxana sistemləri müvafiq inventar və avadanlıqlarla təmin olunmuşdur.

Gəncə şəhər, Beyləqan, Xaçmaz, Göyçay, İsmayıllı, Salyan, Şabran və Neftçala rayon MKS-ləri Nazirlik tərəfindən elektron nəşrlərlə təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın icrası, kitabxana filiallarının birləşdirilməsi, kitabxanaların informasiyalaşdırılması, kitabxana-informasiya sahəsində müasir iş

üsullarının tətbiqi, habelə yerlərdə metodiki köməyin göstərilməsi məqsədilə ölkənin regionlarında müxtəlif tədbirlər keçirilmişdir.

Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə 15–17 aprel tarixində Bakıdakı Amerika Mərkəzində respublikanın 4 şəhər və rayon mərkəzi kitabxanasının nəzdində fəaliyyət göstərən Amerika Mərkəzlərinin ənənəvi illik konfransı keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə bağlı respublikanın bütün şəhər və rayonlarında V Kitab Bayramı təşkil olunmuş, 15 iyun – Milli Qurtuluş Günü qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın Tədbirlər Planının 2.5.8. bəndinin icrası ilə əlaqədar «İlin kitabxanası» baxış-müsabiqəsi və kitabxanaçıların peşə ustalığı üzrə «İlin kitabxanaçısı – 2013» respublika müsabiqəsi haqqında əsasnamələr hazırlanmış və təsdiq edilmişdir.

Avropa Şurasının ATHENA layihəsi çərçivəsində hazırlanmış «Mədəniyyətə aid veb-saytların istifadəçi ilə qarşılıqlı təsiri» adlı kitab Nazirlik tərəfindən birgə layihə əsasında Azərbaycan dilinə tərcümə edilərək nəşr edilmiş və respublikanın kitabxanalarına göndərilmişdir.

Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinə Azərbaycan-rus dillərində lüğət, Azərbaycan dilini öyrənmək üçün danışıq və tədris kitabları, Dağlıq Qarabağ münaqişəsinə dair nəşrlər, müasir Azərbaycan yazıçılarının rus dilində olan əsərləri, Azərbaycan uşaq ədəbiyyatı və digər ədəbiyyatlar göndərilmişdir.

Azərbaycan Respublikasının İspaniya Krallığındakı Səfirliyinin müraciətinə əsasən yanvar ayında 20 Yanvar faciəsinin 23-cü ildönümü və fevral ayında Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar bir sıra geniş tədbirlərin keçirilməsi məqsədilə Səfirliyə müvafiq əyani vəsaitlər göndərilmişdir. Azərbaycan Dövlət Tibb Universitetinin müraciətinə əsasən universitetin kitabxanası kitablarla zənginləşdirilmişdir.

Kitabxana-informasiya sahəsində müasir təcrübənin öyrənilməsi məqsədilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları Litva Respublikasına ezam olunmuşlar.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında mütəmadi olaraq Elektron kataloq və Elektron kitabxanaya dair təlimlər keçirilir. 2013-cü il ərzində 5 treninq keçirilmiş və həmin treninqlərdə respublikanın regionlarında fəaliyyət göstərən kitabxanalardan 80-dən çox kitabxanaçı iştirak etmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Bakı şəhərində fəaliyyət göstə-

rən internat məktəbləri arasında ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş «Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə» adlı müsabiqə keçirilmişdir. Müsabiqə iştirakçılarına Nazirlik tərəfindən Fəxri fərmanlar təqdim olunmuş, müsabiqənin qalibinə isə 1 dəst kompyuter avadanlığı hədiyyə edilmişdir. Bundan başqa, müsabiqə iştirakçıları üçün Nazirlik tərəfindən «Qobustan» Dövlət Tarix-Bədii Qoruğuna ekskursiya təşkil edilmişdir.

Beynəlxalq kitab mübadiləsi çərçivəsində İsveç, Mərakeş, Belarus, Türkiyə, ABŞ, Rusiya, Moldova və bir sıra digər ölkələrdə fəaliyyət göstərən kitabxanalara Nazirlik tərəfindən nəşr olunmuş kitablar göndərilmişdir.

Respublikada fəaliyyət göstərən kitabxanaların mövcud vəziyyətini yaxşılaşdırmaq, habelə respublikanın kitabxana-informasiya sahəsini müasir dünya standartlarına çatdırmaq məqsədilə «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin inkişafı və kitabxana xidmətinin yeniləşdirilməsi üzrə Dövlət Proqramı (2014–2020-ci illər)» və Tədbirlər Planının layihələri hazırlanmışdır.

2013-cü ilin iyun ayında Ukraynada keçirilən «Krım–2013» Beynəlxalq Kitabxana Konfransında C.Cabbarlı adına Respublika Gənclər, F.Köçərli adına Respublika Uşaq və Respublika Gözdən Əlillər kitabxanalarının əməkdaşları iştirak etmişlər.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə hazırlanan «Milli Atlas» üçün müvafiq sənədlər, statistik məlumatlar hazırlanmış və Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığına əsasən respublikada fəaliyyət göstərən bütün mərkəzi kitabxana və kitabxana filiallarının siyahısı hazırlanmış, Ədliyyə və Maliyyə nazirlikləri ilə, habelə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırılmışdır. Ktabxana-informasiya sahəsinin strukturu təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi ilə əlaqədar, Nazirlik tərəfindən müvafiq təşkilati işlər həyata keçirilmiş, Milli Kitabxananın bir qrup əməkdaşı Azərbaycan Respublikasının orden və medalları, «Əməkdar Mədəniyyət İşçisi» fəxri ad, habelə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin «Fəxri Mədəniyyət İşçisi» döş nişanı, fəxri fərmanı və pul mükafatı ilə təltif edilmişdir.

Kitabxanaların beynəlxalq əlaqələrini genişləndirmək, kitabxana sahəsində beynəlxalq təcrübəni tətbiq etmək məqsədilə, Azərbaycan kitabxanaçıları sentyabr ayında Nazirliyin vəsaiti hesabına Anapada keçirilən XV Beynəlxalq Konfransda iştirak etmişlər.

ELM VƏ TƏHSİL

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemində 242 təhsil müəssisəsi – Azərbaycan Turizm İnstitutu, Mingəçevir Turizm Kolleci, Bakı Turizm Peşə Məktəbi, Bakı Xoreoqrafiya Məktəbi, Ağcabədi şəhər Ü.Hacıbəyli adına Qarabağ Muğam Mərkəzi, Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzi, 183 uşaq musiqi, 51 uşaq incəsənət və 2 uşaq rəssamlıq məktəbi, 3 elmi mərkəz – Respublika Mədəniyyət Müəssisələri İşçilərinin İxtisasartırma və Hazırlıq Mərkəzi, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi fəaliyyət göstərir.

Nazirliyin iş planına uyğun olaraq, Kollegiyada 2013-cü ilin aprel ayında «Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzdə elmi işin təşkili barədə», sentyabr ayında «2012/2013-cü tədris ilinin yekunları və respublika uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması sahəsində qarşıda duran vəzifələr haqqında», dekabr ayında «Naftalan şəhər, Goranboy rayon uşaq musiqi və incəsənət məktəblərində (8 məktəb) tədris işinin vəziyyəti barədə» məsələlər müzakirə edilmişdir.

Strateji əhəmiyyət kəsb edən mədəniyyət siyasətinin həyata keçirilməsində elmin iştirakının təmin edilməsi, mədəniyyət müəssisələri əməkdaşlarının nəzəri hazırlıq səviyyəsinin artırılması, habelə onların müasir mədəniyyət menecmenti bacarıqlarına yiyələnməsi məqsədilə hesabat ilinin 20–22 fevral tarixində Salyan şəhərində, 22–24 aprel tarixində Hacıqabul şəhərində «Milli mədəniyyət və müasir mədəniyyət siyasəti» mövzusunda, 12–14 noyabr tarixində Ucar şəhərində «Milli mədəniyyət siyasəti: hədəf və perspektivlər» mövzusunda seminarlar keçirilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində tədris işinin təşkili ilə bağlı 31 oktyabr tarixində Astara şəhərində, 18 noyabr tarixində Salyan şəhərində, 29 noyabr tarixində Şamaxı şəhərində zona müşavirələri keçirilmişdir. Astara şəhərindəki müşavirədə Lənkəran şəhər, Astara, Lerik, Masallı, Yardımlı rayon uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin, Salyan şəhərində Salyan, Saatlı, Sabirabad, Neftçala rayon uşaq musiqi və incəsənət məktəblərinin, Şamaxı şəhərində Şamaxı, Ağsu, İsmayıllı, Qobustan rayon uşaq musiqi və incəsənət məktəblərinin direktorları və tədris işləri üzrə direktor müavinləri iştirak etmişlər.

Azərbaycan Turizm İnstitutuna, Mingəçevir Turizm Kollecinə, Bakı Xoreoqrafiya Məktəbinə, Bakı Turizm Peşə Məktəbinə, respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə 2013–2014-cü illər üçün şagird və tələbə qəbulu planları hazırlanaraq müvafiq təşkilatlara göndərilmiş, tədris müəssisələrinə şagird və tələbə qəbulu həyata keçirilmişdir.

2013-cü il ərzində Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində 35 kateqoriya üzrə 844 nəfər mədəniyyət işçisi ixtisasartırma kurslarında iştirak etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 avqust tarixli 309 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2009–2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı»nın tədbirlər planına əsasən uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində bir sıra mühüm işlər görülmüşdür. Eyni zamanda «Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Dövlət Proqramı (2014–2018-ci illər)» işlənib hazırlanmışdır.

Bakının 4 nömrəli Uşaq İncəsənət Məktəbi üçün yeni inzibati bina və zal, Bərdə şəhər 1 nömrəli uşaq incəsənət, Naxçıvan şəhər S.Rəcəbov adına 3 nömrəli, Ə.Cavid adına uşaq musiqi və sənətkarlıq məktəbləri üçün yeni binalar tikilib istifadəyə verilmiş, Bakı şəhər F.Əmirov adına 6 nömrəli onbirillik incəsənət, Ş.Ələkbərova adına 20 nömrəli uşaq musiqi məktəbləri binalarının yenidənqurma və əsaslı təmirdən sonra açılışı olmuş, Gədəbəy rayon Slavyanka kənd Uşaq Musiqi Məktəbi təmirdən sonra istifadəyə verilmişdir. Bakı şəhərində məcburi köçkün şəraitində fəaliyyət göstərən Füzuli şəhər 3 nömrəli, Ağdam rayon Gülablı kənd, Xocavənd rayon Tuğ kənd uşaq musiqi məktəbləri Müşfiqabad qəsəbəsində məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə yerləşdirilmişdir. Abşeron rayon Qobu qəsəbə Uşaq İncəsənət Məktəbi qəsəbədə yeni tikilmiş Mədəniyyət Mərkəzinə köçürülmüşdür.

Yeni tikilmiş, yenidən qurulmuş və əsaslı təmir olunmuş bütün məktəb binaları müasir inventar, avadanlıq və musiqi alətləri ilə təmin edilmişdir.

Şamaxı rayonunda musiqi sənətinin daha da inkişaf etdirilməsi məqsədilə Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində müasir tələblərə cavab verən üçmərtəbəli incəsənət təhsili mərkəzi inşa edilmiş, mərkəz bütünlüklə inventar, avadanlıq, musiqi alətləri ilə təchiz edilmişdir. 16 may tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə mərkəzin açılışı olmuşdur. Şamaxı rayonunda mövcud mədəniyyət müəssisələri şəbəkəsinin optimallaşdırılması məqsədilə Nazirliyin müvafiq əmri ilə Şamaxı şəhər H.Məmmədov adına Uşaq Musiqi və İ.Nəsimi adına Uşaq İncəsənət məktəbləri ləğv edilmiş və bu məktəblərin bazasında Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzi yaradılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 sentyabr tarixli 246 nömrəli Qərarı ilə Bakı şəhər Qara Qarayev adına 8 nömrəli

onbirillik Musiqi Məktəbinin bazasında Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi yaradılmışdır.

Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbində istedadlı uşaq və gənclər üçün ictimai əsaslarla «İstedad Mərkəzi» yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 14 oktyabr tarixli Sərəncamı ilə Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Mircavid Cəfərovun, Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Cahandar Xanlarovun, Bakı şəhər R.Hacıyev adına 15 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Jalə Mailovanın adları Azərbaycanın gənc istedadlarının «Qızıl kitab»ına yazılmış və onlar xüsusi aylıq təqaüdə layiq görülmüşlər.

Hesabat ilinin fevral-may aylarında Ağcabədi, Gədəbəy, Qubadlı, Şəmkir, Tovuz rayon uşaq musiqi və incəsənət məktəblərində təlim-tərbiyə prosesinin təşkili vəziyyətinin monitorinqi keçirilmişdir.

Nazirlik tərəfindən 17 adda dərslik və tədris proqramları çap edilərək uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə verilmiş, məktəblər üçün inventar avadanlıq və musiqi alətləri alınmışdır.

Musiqi fənlərinin tədrisi metodikasının təkmilləşdirilməsi məqsədilə 17 yanvar tarixində Bakı şəhər G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbində «Musiqili romantizm» mövzusunda elmi-metodiki seminar keçirilmişdir.

13–14 may tarixində Mingəçevir şəhərində uşaq musiqi və incəsənət məktəblərinə əməli və metodiki kömək göstərmək məqsədilə seminar-treninqlər və ustad dərsləri keçirilmişdir. Ustad dərslərini Bakı Musiqi Akademiyasının dosenti Tofiq Bədirxanov və Bülbül adına orta-ixtisas musiqi məktəbinin müəllimi Esmira Manafova aparmışlar. Seminar və ustad dərslərində Mingəçevir, Yevlax şəhər, Ağdaş, Bərdə, Goranboy, Ucar rayon uşaq musiqi və incəsənət məktəblərindən 120-ə yaxın müəllim iştirak etmişdir.

Bakı Xoreoqrafiya Məktəbinin müəllimləri Xalq Artisti Yusif Qasımov, Prezident təqaüdçüləri Akif Kərimli və Xamiz Cəfərov 7–8 noyabr tarixində Salyan və Biləsuvar rayonlarında uşaq incəsənət məktəblərinin müəllim və şagirdləri üçün ustad dərsləri keçirmişlər.

6 fevral tarixində Bakı şəhər Q.Qarayev adına 8 nömrəli 11 illik Musiqi Məktəbinin 75 illik yubileyinə həsr olunmuş tədbir keçirilmiş, yubileylə əlaqədar məktəb Nazirliyin Fəxri Fərmanı ilə təltif edilmiş, məktəbin bir qrup qabaqcıl pedaqoji işçisinə pul mükafatı verilmişdir.

19–27 aprel tarixində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə ümumtəhsil və orta ixtisas təhsili

müəssisələrinin şagird və tələbələri arasında keçirilmiş gənc ifaçıların II Respublika müsabiqəsində Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin, Bakı şəhər C.Hacıyev adına 3, T.Quliyev adına 12, R.Hacıyev adına 15, Ş.Ələkbərova adına 20, L. və M.Rostropoviçlər adına 21, Ə.Bədəlbəyli adına 23, 24, R.Babayev adına 25, 33, 34, G.Şaroyev adına 35, Gözdən əlil uşaqlar üçün 38, Sumqayıt şəhər Q.Qarayev adına 1 nömrəli uşaq musiqi məktəblərinin, Bakı şəhər 4 nömrəli və Qax şəhər uşaq incəsənət məktəblərinin şagirdləri uğurla iştirak edərək müxtəlif dərəcəli diplomlarla təltif olunmuşlar.

24–25 aprel tarixində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Q.Qarayevin anadan olmasının 95 illiyinə həsr olunmuş «Təhlil və ifa edir gənc musiqiçilər» adlı II Respublika elmi-ifaçılıq müsabiqəsində paytaxtın R.Behbudov adına 2 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Rauf Nəcəfzadə (tar), 5 nömrəli Uşaq İncəsənət Məktəbinin şagirdi Vaqif Təhməzov (tar), Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri Cavid Yusifzadə (fortepiano), Emin Hüseynov (violin) və Orxan Hüseynov (violonçel), 11 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Uğur Abbasov (tar), M.Maqomayev adına 26 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Anar Yusifov (violin), G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Mehman Səlimov (truba) uğurla iştirak edərək laureat olmuşlar.

Hesabat dövründə Bakı Xoreoqrafiya Məktəbinin, uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri, habelə gənc musiqiçilər xarici ölkələrdə keçirilmiş beynəlxalq tədbirlərdə uğurla iştirak etmişlər.

9–10 mart tarixində Belçikanın Namür şəhərində keçirilmiş gənc skripkaçıların «Bravo» VI Beynəlxalq müsabiqəsində Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri Zərrin Əliyeva və Nadir Eyvazov iştirak etmişlər. 17 ölkədən – Azərbaycan, Belçika, Fransa, Hollandiya, Avstriya, Çexiya, Latviya, Portuqaliya, Serbiya, Polşa, Rumıniya, Ukrayna, Rusiya, Qazaxıstan, Monqolustan, Koreya və Yaponiyadan 44 iştirakçının qatıldığı iki mərhələli müsabiqədə Zərrin Əliyeva II dərəcəli diploma və laureat adına layiq görülmüş, Nadir Eyvazov diplomla təltif olunmuşdur.

18–23 mart tarixində Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Azərbaycan musiqiçiləri – kanon ifaçısı Rəşad İlyasov və aşıq Vüqar Niftəliyevin rəhbərliyi altında «Ozan» instrumental ansamblı Odessa vilayətindəki Ukrayna Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı ilə Odessa şəhərində keçirilən Novruz şənliklərində iştirak etmişlər.

22–24 mart tarixində Estoniya Respublikasının Narva şəhərində İ.S.Bax adına gənc pianoçuların VII Beynəlxalq müsabiqəsində Bakı şəhər T.Quliyev adına 12 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Ayan Məmmədli, Bakı

şəhər G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdləri Maqsud Musazadə, Fidan Tağıyeva, Suada Hacızadə ölkəmizi uğurla təmsil etmişlər. Əlliyə yaxın iştirakçının qatıldığı iki mərhələli müsabiqənin nəticələrinə görə Ayan Məmmədli Fortepiano nominasiyası üzrə III dərəcəli mükafat, İmprovizasiya nominasiyası üzrə isə I dərəcəli mükafat almışdır. Suada Hacızadə II yerə, Maqsud Musazadə və Fidan Tağıyeva III yerə layiq görülərək diplomlarla təltif olunmuş və müsabiqənin laureatı adını qazanmışlar.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə şagirdləri, Prezident təqaüdçüləri Atabala Manafzadə və Nəriman Əmiraslanov 2–7 aprel tarixində Almaniyanın Frankfurt şəhərində keçirilmiş Gənc pianoçuların III Beynəlxalq Raxmaninov Müsabiqəsində uğurla iştirak edərək diplomlarla təltif olunmuşlar.

Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin müəllimi Sevinc Kərimova (fortepiano) və məktəbin məzunu, Prezident təqaüdçüsü Mədinə Şahgəldiyeva (kamança) 5–7 aprel tarixində Tatarıstanın Kazan şəhərində keçirilmiş «Avropa-Asiya» adlı I Beynəlxalq Yeni Musiqi Festivalında iştirak etmişlər.

Gənc pianoçu, Prezident təqaüdçüsü Nərmin Nəcəfli 10–14 aprel tarixində Litvanın Kaunas şəhərində keçirilmiş Gənc Musiqiçilərin XXII Beynəlxalq Festivalında və 15–21 aprel tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilmiş H.Neyhauz adına Gənc Pianoçuların IV Beynəlxalq Moskva Festivalında iştirak etmişdir.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Emin Eminzadə 11–15 aprel tarixində Qazaxıstanın Kostanay şəhərində keçirilmiş «Qızıl mikrofon» adlı XI Beynəlxalq Uşaq Vokal Müsabiqəsində iştirak edərək I yerə layiq görülmüşdür. Həmin məktəbin şagirdi Suada Hacızadə 30 aprel – 4 may tarixlərində Niderland Krallığında keçirilmiş «Perpetuum Mobile» Beynəlxalq Müsabiqəsində iştirak edərək II mükafata layiq görülmüşdür.

Aprel ayında İtaliyanın San Remo şəhərində keçirilmiş «Sanremo Junior 2013-IV edition» Beynəlxalq Uşaq Mahnı Müsabiqəsində Bakı şəhər T.Quliyev adına 12 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi, Prezident təqaüdçüsü Yasin Həsənov Qran-Pri mükafatına layiq görülmüşdür.

Gənc istedadlı vokalçı İlham Nəzərov 2013-cü il 6 may tarixində İtaliyanın Pezaro şəhərində keçirilmiş «Çitta di Pesaro» X Beynəlxalq Musiqi Müsabiqəsində uğurla iştirak etmişdir. İtaliya, İspaniya, Rusiya, Ukrayna, Yaponiya, Koreya, Türkiyə, Çin və digər ölkələrdən iştirakçıların qatıldığı müsabiqədə həmyerlimiz 100 ballıq qiymətləndirmə sisteminə

əsasən maksimal 100 bal toplayaraq I mükafata layiq görülmüş və müsabiqənin laureatı olmuşdur.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə şagirdi, Prezident təqaüdçüsü Nəriman Əmiraslanov 13–19 may tarixində İtaliyanın Barlassina şəhərində keçirilmiş «Gənc İstedadlar Orkestr ilə» adlı I Beynəlxalq Müsabiqədə II dərəcəli mükafata layiq görülmüş, habelə İtaliyanın «Pianofriends» Assosiasiyasının dəvətinə əsasən Milan şəhərində maestro Vincenzo Balzaninin ustad dərslərində iştirak etmişdir.

2013-cü ilin 17–20 may tarixində Rusiya Federasiyasının Novosibirsk şəhərində keçirilmiş Müstəqil Dövlətlər Birliyi iştirakçısı olan ölkələrin Gənclər arasında VIII Açıq Delfi Oyunlarında Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Süleyman Eyyubov (violin), Bakı şəhər F.Əmirov adına 6 nömrəli 11 illik İncəsənət Məktəbinin şagirdi Samir Hüseynov (kamança) Diploma layiq görülmüşlər.

21–22 may tarixində Sloveniyanın paytaxtı Lyublanada və Nova Qoritsa şəhərində keçirilmiş 28 May – Respublika gününə həsr olunan tədbirlərdə Bakı Xoreoqrafiya Məktəbinin tələbələrindən ibarət rəqs qrupu iştirak etmişdir.

Türkiyənin Manisa Gözəl Sənətlər və İdman Liseyinin dəvətinə əsasən Abşeron rayon Xırdalan şəhər Uşaq Musiqi Məktəbinin şagird və müəllimlərindən ibarət nümayəndə heyəti 25–28 may tarixində «Qardaş Məktəb Layihəsi» çərçivəsində Manisa Gözəl Sənətlər və İdman Liseyinin ilsonu konsertində çıxış etmişdir.

1 iyun tarixində Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Moskvanın Böyük Kreml Sarayında Azərbaycan, Belarus, Çin, Qazaxıstan, Rusiya və Ukraynadan istedadlı uşaqların iştirakı ilə «Melodika pokoleniy» adlı I Beynəlxalq Uşaq Musiqi Festivalı keçirilmişdir. Bu nüfuzlu tədbirdə ölkəmizi Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi Məktəbinin fleyta ixtisası üzrə şagirdi, 12 yaşlı Ağarəhim Quliyev təmsil edərək Kreml Sarayının Georgiyevski zalında Prezident orkestri ilə uğurla çıxış etmişdir.

12–21 iyul tarixində ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində Hollivudda keçirilmiş XVI Ümumdünya Musiqi Olimpiadasında Bakı şəhər 3 nömrəli Uşaq İncəsənət Məktəbinin vokal ixtisası üzrə şagirdi İbrahim Nəsrullayev uğurla iştirak etmişdir. 52 ölkədən iştirakçıların qatıldığı, 4 nominasiya üzrə keçirilən bu yarışmada İ.Nəsrullayev 3 gümüş və 1 bürünc medal qazanmışdır.

«Panmusica Austria» Musiqi Assosiasiyasının dəvətinə əsasən Bakı şəhər G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbinin fortepiano

ixtisası üzrə şagirdi, Prezident təqaüdçüsü Nəriman Əmiraslanov 7 avqust tarixində Avstriyanın Vyana şəhərində Motsart Konsert Zalında keçirilmiş «Afrikanın uşaqlarını xilas edək» adlı xeyriyyə konsertində simfonik orkestrin müşayiəti ilə çıxış etmişdir.

Hesabat ilinin 24–25 avqust tarixində İtaliyanın Rimini şəhərində keçirilmiş «Rimini Stars» müsabiqəsində Bakı şəhər T.Quliyev adına 12 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Ayan Məmmədli I dərəcəli Diploma layiq görülmüşdür.

Gənc skripkaçı, Prezident təqaüdçüsü Elvin Xoca Qəniyev 20–30 sentyabr tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən D.Oystrax adına V Beynəlxalq Skripkaçılar Müsabiqəsində uğurla çıxış edərək III mükafata layiq görülmüşdür.

Nazirliyin dəstəyi ilə istedadlı gənc pianoçu, N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasının tələbəsi, Prezident təqaüdçüsü Rüstəm Zeynalov 25–27 oktyabr tarixində Avstriyanın İnsbruk şəhərində keçirilmiş XXVIII EPTA Avstriya (Avropa Piano Assosiasiyası) Beynəlxalq Konfransı çərçivəsində solo konsert proqramı ilə çıxış etmişdir.

Çexiyanın Lidise şəhərində keçirilmiş 41-ci ənənəvi Beynəlxalq Uşaq İncəsənət Sərgisində Azərbaycandan 45 uşağın 387 əsəri təqdim edilmişdir. «Xalqımın ənənələri və irsi» mövzusunda keçirilən, 69 ölkədən 24593 əsərin iştirak etdiyi sərgidə 5 azərbaycanlı müəllifin əl işi mükafata layiq görülmüşdür, o cümlədən, Abşeron rayon Saray qəsəbə Uşaq İncəsənət Məktəbinin şagirdi Rəna Abdullayeva «Lidis qızılgülü» xatirə medalı və Diplomla təltif olunmuşdur. 4 şagird, o cümlədən, Quba şəhər Uşaq İncəsənət Məktəbinin şagirdi Rəhman Əliyev Fəxri Fərmana layiq görülmüşdür. 30 oktyabr tarixində Çexiyanın Azərbaycandakı Səfirliyində qaliblərin mükafatlandırılma mərasimi keçirilmişdir.

23–30 noyabr tarixində Estoniyanın Narva şəhərində keçirilmiş «Baltik ulduzları» adlı IV Beynəlxalq Musiqi Müsabiqəsində Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdləri Elçin Məmmədov (fortepiano) və Ağarəhim Quliyev (fleyta) yüksək səviyyədə çıxış edərək I dərəcəli mükafatlara layiq görülmüşlər.

İstedadlı gənclərin xarici ölkələrin tədris müəssisələrində təhsil almaları, təcrübə keçmələri və ustad dərslərində iştirak etmələri məsələlərinə Nazirlik tərəfindən xüsusi diqqət yetirilir. 17–25 iyun tarixində Samara vilayətində (Samara, Tolyatti və Novokuybışevsk şəhərlərində) Xalq Artisti Yuri Başmetin himayəsi altında MDB və Baltikyanı ölkələrin III Uşaq Musiqi Akademiyasında Bakı şəhər G.Şaroyev adına 35 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi, Prezident təqaüdçüsü Nəriman Əmiraslanov

(fortepiano), R.Hacıyev adına 15 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Leyla Zeynalova (violin), L. və M.Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Kamran Talıblı (fleyta) iştirak etmişlər.

«Yeni adlar» Regionlararası İctimai Xeyriyyə Fondu tərəfindən 26 iyul – 09 avqust tarixlərində Rusiya Federasiyasının Suzdal şəhərində Rusiyanın regionlarından, MDB, Baltikyanı və digər xarici ölkələrdən olan istedadlı gənc musiqiçilər, şairlər, rəssamlar və onların müəllimləri üçün XXI Yay Yaradıcılıq Məktəbində Bakı şəhər 24 nömrəli 11 illik Musiqi Məktəbinin klarnet ixtisası üzrə şagirdi, Prezident təqaüdçüsü Yusif Yusifov və onun müəllimi Vaqif Məmmədov iştirak etmişlər.

3–14 avqust tarixində Xəzəryanı ölkələrlə əməkdaşlıq çərçivəsində Həştərxan vilayətində istedadlı uşaqlar üçün təşkil edilmiş Yay Yaradıcılıq Məktəbində Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi Nadir Eyvazov, Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi Məktəbinin şagirdi Süleyman Eyyubov və müəllimi İlhamə Ağayeva iştirak etmişlər.

Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri Nigar Məmmədova (violonçel) və Elnarə Tağızadə (viola) 10–21 avqust tarixində Çexiya Respublikasının Praqa şəhərində Deylova Konservatoriyasında keçirilmiş ənənəvi «Zbraslav Master Klass» Beynəlxalq Musiqi Kurslarında iştirak etmişlər.

Gənc istedadlı violin ifaçısı, Prezident təqaüdçüsü Cəmilə Qarayusiflinin London Kral Akademiyasının professoru Mark Danelin (9–14 sentyabr, Belçika, Bütgenbah) və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin violin ixtisası üzrə şagirdi, Prezident təqaüdçüsü Emin Hüseynovun P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru Mixail Qotsdinerin (2–7 dekabr, Rusiya Federasiyası, Moskva) ustad dərslərində iştirakı təmin edilmişdir.

Hesabat dövründə Nazirliyin dəstəyi ilə gənc pianoçu, Əməkdar Artist Emil Məmmədov Amerika Birləşmiş Ştatlarında Berkli Musiqi Kollecində, gənc violin ifaçıları, Prezident təqaüdçüləri Elvin Xoca Qəniyev və Kamran Ömərli müvafiq olaraq İsveçrənin Sürix İncəsənət Universitetində və İspaniyanın Kraliça Sofiya adına Ali Musiqi Məktəbində, gənc vokalçı, «Üns» yaradıcılıq səhnəsinin solisti İlham Nəzərov İtaliyanın Osimo D'Arte Lirica Akademiyasında, Bakı Xoreoqrafiya Məktəbinin məzunu, Prezident təqaüdçüsü Ayan Eyvazova Moskva Dövlət Xoreoqrafiya Akademiyasında, gənc istedadlı klarnet ifaçısı Səddam Novruzbəyov Paris Musiqi Məktəbində təhsillərini davam etdirmişlər.

TURİZM

2013-cü il ərzində ölkədə turizmin inkişafı və respublikanın turizm potensialının təbliği istiqamətində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müvafiq işlər görülmüşdür.

Rayon (şəhər) mədəniyyət və turizm şöbələrinin (idarələrinin) müdirləri və turizm informasiya mərkəzlərinin rəhbərləri üçün 4–8 fevral tarixində Azərbaycan Turizm İnstitutunda «Turizm siyasəti, planlaşdırılması və idarəçiliyi» mövzusunda təlimlərin birinci mərhələsi təşkil olunmuşdur.

7 fevral tarixində «Şahdağ Qış-Yay Turizm Kompleksi»nə yerli turizm şirkətləri və media nümayəndələrinin iştirakı ilə info-tur təşkil olunmuşdur.

27–28 fevral tarixində Ukraynanın Yalta şəhərində keçirilmiş «II Beynəlxalq Qara Dəniz Turizm Forumu» və QDİƏT-nin Turizm sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun növbəti iclasında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi təmsil olunmuşdur. Nazirliyin əməkdaşı Forumda «Azərbaycanın turizm potensialı» adlı məruzə ilə çıxış etmişdir.

3 mart tarixində Bakı Biznes Mərkəzində təşkil olunmuş «Heydər Əliyev – 90: İqtisadi Modernləşmə» konfransında nazir müavini Nazim Səmədov təqdimat ilə çıxış etmişdir.

«Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2012-ci il tarixli 2577 nömrəli Sərəncamının icrasının təmin edilməsi məqsədilə 15 mart tarixindən elektron viza sisteminin tətbiqinə başlanılmış və bu sistemin fəaliyyəti hesabat dövründə təmin edilmişdir.

2013-cü ilin 26–27 mart tarixində Türkiyənin İzmir şəhərində keçirilən Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının 55-ci iclasında və «Ümumdünya İrs obyektlərində turizm: problemlər və imkanlar» mövzusunda seminarda Nazirlik təmsil olunmuşdur. Seminarda Nazirliyin nümayəndəsi tərəfindən BMÜTT-nin Avropa Komissiyasının növbəti iclasının 2014-cü ildə Bakıda keçirilməsi təklif olunmuş, 2013-cü ilin avqust ayında Zambiya və Zimbabvedə keçiriləcək seçkilər zamanı Azərbaycanın ÜTT-nin İcraiyyə Şurasına üzv olması məsələsi bir daha qeyd edilmişdir. Eyni zamanda Azərbaycanla BMÜTT arasında gələcək əməkdaşlığın genişləndirilməsi, bir neçə layihənin həyata keçirilməsi ilə bağlı nazir müavini Nazim Səmədovla Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının Baş Katibi Taleb Rifai arasında görüş keçirilmişdir.

Dünya İqtisadi Forumu və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının I Beynəlxalq Forumu ilə əlaqədar Bakıya gələn qonaqların asudə vaxtlarının səmərəli keçirilməsi üçün 8 və 11 aprel tarixində Bakı şəhərində ekskursiyalar təşkil edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyi 2013–2014-cü illər üzrə GUAM-ın mədəniyyət və turizm üzrə işçi qrupunun əlaqələndiricisi kimi, 16–17 aprel tarixində Ukraynanın Kiyev şəhərində keçirilmiş işçi qrupun növbəti iclasında təmsil olunmuşdur.

İpək Yolu üzərində davamlı turizmin inkişafının dəstəklənməsi və BMÜTT-nin İpək Yolu təşəbbüsü çərçivəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə 22–23 aprel tarixində Bakı şəhərində Ümumdünya Turizm Təşkilatının 3-cü BMÜTT İpək Yolu İşçi Qrupu Toplantısı keçirilmişdir.

22–26 aprel tarixində isə «Turizm siyasəti, onun planlaşdırılması və idarəçiliyi» və «Regionlarda turizm məhsulunun hazırlanması perspektivləri» mövzusunda kursların ikinci mərhələsi təşkil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə»yə uyğun olaraq, 13–17 may və 4–30 iyun tarixlərində yay turizm mövsümünün başlanması ilə əlaqədar bölgələrdə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli obyektlərdə mövsümə hazırlıq səviyyəsinin yoxlanması və cari mövsümdə turistlərə göstəriləcək xidmətin qiymətlərinin araşdırılması məqsədilə Bakı-Tərtər, Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Balakən və Bakı-Qazax istiqamətində yerləşən mehmanxana və mehmanxana tipli obyektlərdə monitorinqlər keçirilmişdir.

21–23 may tarixində Almaniyanın Frankfurt şəhərində «İMEX – 2013» – İşgüzar Turizm Üzrə Beynəlxalq Sərgidə Nazirliyin nümayəndəsi iştirak etmişdir. Sərgidə iştirak zamanı İTM (İsveç) və Cvent (ABŞ) şirkətlərinin nümayəndələri, Beynəlxalq Konqres Bürolar Assosiasiyasının rəhbərliyi, İMEX sərgisinin rəhbərliyi, Rusiya və Avropanın sahə üzrə bir neçə peşəkar şirkətlərinin nümayəndələri ilə görüşlər keçirilmişdir.

27–29 may tarixində Nazirlik Serbiyanın Belqrad şəhərində BMÜTT İcraiyyə Şurasının 95-ci iclasında təmsil edilmişdir. Azərbaycanın İcraiyyə Şurasına namizədliyinin irəli sürüldüyünü nəzərə alaraq, səfər çərçivəsində bir sıra ölkələrin nümayəndələri ilə ikitərəfli görüşlər keçirilmiş, 2013-cü ilin avqust ayında Zambiya və Zimbabvedə keçiriləcək BMÜTT Baş Assambleyasının 20-ci Sessiyasında İcraiyyə Şurasına üzvlüyə seçkilərlə bağlı danışıqlar aparılmışdır. Azərbaycanda işgüzar turizmin inkişafı məqsədilə

yaradılan Azərbaycan Konqres Bürosunun təşkili ilə bağlı təcrübə mübadiləsi məqsədilə ikitərəfli görüşlər keçirilmişdir.

10–12 iyun tarixində Bakı şəhərində BMT-nin Ümumdünya Turizm Təşkilatının «MDB ölkələri və Gürcüstan üçün Turizm statistikası sahəsində bilik səviyyəsinin artırılması Proqramı» çərçivəsində 3-cü (sonuncu) seminarı keçirilmişdir.

1–2 iyun tarixində İçərişəhərdə Avropa İttifaqı tərəfindən təşkil edilən «EuroVillage» festivalında Mədəniyyət və Turizm Nazirliyinin lövhəsi ziyarətçi və iştirakçılara paylanmaq üçün ingilis və rus dillərində müxtəlif növ reklam-çap məhsulları ilə təmin olunmuşdur.

İtaliyanın «La Repubblica» və «Messaggero» qəzetlərində Azərbaycanın turizm potensialına dair məqalələrin yerləşdirilməsi məqsədilə 11–15 iyun tarixində adıçəkilən qəzetlərin əməkdaşları üçün ölkəmizə press-tur təşkil olunmuşdur.

Hesabat dövründə, həmçinin Rusiyanın və Ukraynanın aparıcı turizm şirkətlərinin nümayəndələri üçün ölkəmizdə info-turlar təşkil edilmişdir.

22–23 iyun tarixində «Kulinariya turu» mədəni turizm marşrutunun hazırlanması və pasportlaşdırılması məqsədilə turizm şirkətlərinin iştirakı ilə cənub bölgəsi üzrə info-tur keçirilmişdir.

1–3 avqust tarixində Çinin Dunxuan şəhərində BMÜTT-nin Çin Milli Turizm Administrasiyası, Qansu əyaləti və Çinin turizm Palatasının birgə təşkil etdiyi İpək Yolunda turizm üzrə 6-cı Beynəlxalq görüşdə Nazirliyin nümayəndə heyəti iştirak etmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə Azərbaycanın nümayəndə heyəti 29 avqust tarixində Zambiya və Zimbabvedə keçirilən BMÜTT Baş Assambleyasının 20-ci sessiyasında iştirak etmiş və tədbirdə Azərbaycanın BMÜTT-nin Avropa üzrə İcraiyyə Şurasının üzvlüyünə namizədliyi müzakirə olunmuş, ölkəmiz Şuraya üzv seçilmişdir. Avropa qitəsinin 4 dövləti (Azərbaycan, Almaniya, Serbiya və Bolqarıstan) arasından Azərbaycanın üzvlüyü 25 səslə birinci olaraq seçilmişdir. Eyni zamanda Azərbaycanın təklifi nəzərə alınaraq BMÜTT-nin Avropa Komissiyasının 2014-cü il iclasının Bakı şəhərində keçirilməsinə dair qərar qəbul olunmuşdur.

12–15 sentyabr tarixində Yaponiyanın Tokio şəhərində keçirilən «JATA – 2013» Beynəlxalq Turizm Sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi iştirak etmişdir. Sərgidə, həmçinin ölkəmizin «ENC tours», «İmprotex travel», «Al travel», «Turizm.az» və «Geo travel» turizm şirkətləri təmsil olunmuşdur.

2013-cü ilin 23–24 sentyabr tarixində İstanbul şəhərində keçirilmiş QDİƏT-in Turizm sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun növbəti iclasında Mədəniyyət və Turizm Nazirliyi təmsil olunmuşdur.

24–27 sentyabr tarixində Fransanın Paris şəhərində keçirilən «Top Resa – 2013» beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi iştirak etmişdir. Sərgidə, həmçinin ölkəmizin «Geo Travel», «Gilan Tourism», «Millennium Tourism and Congress DMC», «RVS travel», «Billur Tur» və «SW travel» şirkətləri təmsil olunmuşdur.

«Baku City Tour» ekskursiya avtobuslarında audio bələdçi sisteminin tətbiq olunması məqsədilə «Baku City Tour» marşrutunun öyrənilməsi və ekskursiya avtobuslarında mövcud «Blaupunkt» sisteminin yenilənməsi ilə bağlı görüləcək işlərin smeta dəyərini hesablamaq üçün 24–28 sentyabr tarixində Türkiyənin «ADR Qrup» şirkətinin nümayəndələri ölkəmizdə səfərdə omuşdur.

Respublikamızın turizm potensialını əks etdirən filmin istehsalı və «Россия 2», «Моя планета» telekanallarında yayımlanan «Неспокойной ночи» televiziya layihəsində nümayişi məqsədilə, nəzərdə tutulan çəkilişlərin aparılması üçün Rusiya çəkiliş qrupu 25–30 sentyabr tarixində Azərbaycana səfər etmişdir.

27 sentyabr tarixində Ümumdünya Turizm Gününə həsr olunmuş konfrans keçirilmiş və Nazirliyin tabeçiliyində olan turizm nümayişi obyektlərində (muzeylərdə, qoruqlarda, komplekslərdə və abidələrdə) Açıq Qapı elan olunmuşdur. 27 sentyabr – Ümumdünya Turizm Günü ilə əlaqədar Bakının bəzi küçə və prospektlərində xüsusi quraşdırılmış monitorlar vasitəsilə reklam çarxları nümayiş etdirilmişdir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən «Tvinninq» layihəsinin icrasına başlanmış və onun 1-ci və 2-ci komponentləri üzrə işlər yekunlaşdırılmışdır.

«Tvinninq» layihəsi çərçivəsində Avstriyanın turizm sənayesinin təcrübəsini öyrənmək məqsədilə iyun ayında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti Avstriya Respublikasında səfərdə olmuş, burada dövlət və özəl sektorun nümayəndələri ilə görüşlər keçirmişdir.

Turizm şirkətlərinin fəaliyyətinə qoyulan minimal tələblər standartının layihəsi hazırlanaraq razılaşdırmaq üçün təqdim olunmuşdur.

Rusiyanın turizm üzrə internet saytlarının təhlili aparılmış, Azərbaycan haqqında yenilənmiş məlumat toplusu hazırlanmış və Rusiyanın turizm şirkətlərinin internet səhifələrində yerləşdirilməsi məqsədilə onlara təqdim olunmuşdur.

Atçılıq turizminin inkişafı, o cümlədən atçılıq-turizm müəssisələrinin işinin təkmilləşdirilməsi və turistlərin cəlb edilməsi məqsədilə İrlandiyanın Atçılıq müəssisələri Assosiasiyasının (AİRE – Association of İrish Riding Establishments) təcrübəsi ilə bağlı araşdırma aparılmışdır.

Qafqaz regionuna, o cümlədən Azərbaycana gəlmə turizm bazarının təhlili aparılmışdır.

BMÜTT-nin «Handbook on Tourism Destination Branding» təlimat kitabçasının təhlili aparılmış və bunun əsasında hazırlanması nəzərdə tutulan Azərbaycanda «Turizm destinasiyalarının bredinqi» təlimat kitabçasının məlumat bazasının yaradılması məqsədilə Turizm İnformasiya Mərkəzləri (TİM) üçün sorğu kitabçasının layihəsi hazırlanmışdır.

TourMis və TSA (Tourism Sattelite Account) statistik proqramları təhlil edilmiş və üstünlüklərin müəyyən edilməsi üzrə araşdırma aparılmışdır.

Azərbaycanın Rusiyada təbliği məqsədilə təbliğat planı hazırlanmışdır.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətindən alınan rəsmi məlumatların əsasında 2013-cü ilin birinci yarısında Azərbaycana gələn əcnəbi vətəndaşların sayı ilə bağlı müqayisəli təhlillər (ölkələr və regionlar üzrə) aparılmışdır.

Naftalan şəhərinin turizm potensialı ilə bağlı marketinq araşdırması, «Product Development» konsepsiyası əsasında və TALC (Tourism Area Life Cycle) modeli üzrə Naftalanda turizmin inkişaf perspektivlərinin qiymətləndirilməsi, həmçinin turizmə dair son 5 ilin statistikasının icmalı və təhlili aparılmışdır.

«Business Year» və «ABTA» jurnallarında Azərbaycanın turizm potensialına dair reklam səhifəsi yerləşdirilmişdir.

Yanvar-dekabr ayları ərzində 53 hüquqi və fiziki şəxs tərəfindən təqdim edilmiş sənədlərə baxılmış və onlara turizm fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya verilmişdir. Hazırda respublikada 241 turizm şirkəti fəaliyyət göstərir.

2013-cü ilin yanvar-dekabr ayları ərzində 74 hüquqi və fiziki şəxs tərəfindən təqdim edilmiş sənədlərə baxılmış və onlara mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya verilmişdir. Hazırda respublika ərazisində 258 hüquqi və fiziki şəxs Mədəniyyət və Turizm Nazirliyindən mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinə xüsusi razılıq (lisenziya) alaraq fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 02.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qay-

dalar»a əsasən «Bona Mente Holdinq» Məhdud Məsuliyyətli Cəmiyyətinə, «A.Q.Horizont» Məhdud Məsuliyyətli Cəmiyyətinə və «Riad Tour» Məhdud Məsuliyyətli Cəmiyyətinə turizm fəaliyyəti üçün verilmiş lisenziyaların fəaliyyəti dayandırılmışdır.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 02.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»ın 5.4.1. bəndinə əsasən «İSR Azeri Apart and Business Centre» Məhdud Məsuliyyətli Cəmiyyətinə mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinə verilmiş lisenziyanın fəaliyyəti ləğv edilmişdir.

Monitorinqlərin nəticəsi olaraq, Azərbaycan Respublikası Prezidentinin 02.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»ın 5.1.2. və 5.1.4. bəndlərinə əsasən «Səyahət-A» Məhdud Məsuliyyətli Cəmiyyətinə və «Qəçrəş» Açıq Səhmdar Cəmiyyətinə mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinə verilmiş lisenziyaların fəaliyyəti dayandırılmışdır.

Monitorinqlər zamanı sanitar-gigiyenik norma və qaydaları pozan 12 mehmanxana və mehmanxana tipli obyektə qarşı müvafiq tədbirlərin görülməsi ilə bağlı Səhiyyə Nazirliyinə məktub göndərilmişdir.

Lisenziya müddəti bitmiş və lisenziyası olmayan 205 mehmanxana və mehmanxana tipli obyekt rəhbərinə lisenziyanın alınmasının vacibliyi ilə bağlı xəbərdarlıq məktubu göndərilmişdir.

Hesabat dövrü ərzində ikitərəfli əməkdaşlıq sahəsində Hökumətlərarası Komissiyaların qəbul etdiyi sənədlərin icrası həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi İslam Əməkdaşlıq Təşkilatının İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) Turizm üzrə İşçi qrupuna daxil olmuşdur. Komitənin fəaliyyəti çərçivəsində Layihə Dövriyyəsinin İdarə edilməsi üzrə təlim proqramında Nazirlik təmsil olunmuş və sentyabr ayında Komitə tərəfindən qrant layihələr üzrə verilmiş elana əsasən turizm sahəsinə dair 2 layihə işlənib Komitəyə təqdim edilmişdir.

Arxeoloji turizm üzrə Ağsu və Şəmkir rayonları daxil olmaqla arxeoloji mədəni turizm marşrutunun pasportlaşdırılması məqsədilə 19 oktyabr tarixində ekspertlərin əraziyə səfərləri təşkil edilmiş və marşrutun pasportlaşdırılması həyata keçirilmişdir.

Hesabat ilinin 22–31 oktyabr tarixində Bakı şəhərində Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birgə mehmanxana idarəçiliyi,

qeyd-qəbul, masa xidməti və xadiməçilik mövzularında tədris kursları təşkil olunmuşdur. Təlimlərdə Bakı şəhərində 3–4 ulduzlu mehmanxanalarda çalışan 97 nəfər müvafiq ixtisaslar üzrə sertifikatlar almışdır.

18 noyabr tarixində İtaliyanın Roma şəhərində ölkəmizin turizm potensialının təbliğ olunması və ikitərəfli turizm əlaqələrinin genişləndirilməsi məqsədilə hər iki ölkənin turizm sənayesi nümayəndələrinin iştirakı ilə 1-ci İtaliya-Azərbaycan Turizm Forumu keçirilmişdir. Forumda Azərbaycanın turizm potensialı, eləcə də turizm şirkətləri tərəfindən sağlamlıq turizmi, mədəni turizm, qış turizmi, ekoturizm üzrə təqdimatlar keçirilmişdir.

7–8 dekabr tarixində Nazirliyin nümayəndəsinin, turizm şirkətlərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Salyan-Lənkəran-Masallı marşrutu üzrə «Cənub Mirvarisi» adlı ekoturizm və mədəni turizm marşrutunun yaradılması və pasportlaşdırılması ilə bağlı info-tur keçirilmişdir. İnfo-turda 25 turizm şirkəti və 14 media nümayəndəsi iştirak etmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 14–15 dekabr tarixində turizm şirkətlərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Qəbələ-Şəki-Qax marşrutu üzrə «Qədim Qafqaz Albaniyasının tarixi izləri» adlı mədəni turizm marşrutunun yaradılması və pasportlaşdırılması məqsədilə info-tur təşkil olunmuşdur.

Rusiyanın «Совершенно секретно» qəzetində Azərbaycana dair xüsusi buraxılışın nəşr edilməsi məqsədilə 22–26 oktyabr tarixində adıçəkilən qəzetin əməkdaşları üçün Azərbaycana press-tur təşkil olunmuşdur.

4–7 noyabr tarixində Böyük Britaniyanın London şəhərində keçirilən «WTM–2013» Beynəlxalq Turizm Sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Həmçinin sərgidə 11 yerli turizm şirkəti, «Geo Travel», «SW travel», «ENC tours», «The tour», «Turizm.az», «Victory tour», «Spektr travel», «AL travel», «İmprotex travel», «ATA travel», «Xəzər travel», 3 mehmanxana – «Four Seasons Hotel Baku», «Jumeirah Bilgah Beach hotel», «Gallery hotel» təmsil olunmuşdur.

19–21 noyabr tarixində İspaniyanın Barselona şəhərində keçirilən «EİBTM–2013» Beynəlxalq Turizm Sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini N.Səmədovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Həmçinin sərgidə 4 yerli turizm şirkəti, «Geo Travel», «Billur Tur», «Millennium Tourism and Congress», «Gilan Tourism», 2 mehmanxana – «Four Seasons Hotel Baku», «Jumeirah Bilgah Beach hotel» və Azərbaycan Konqreslər Bürosu təmsil olunmuşdur.

Rusiyanın «REN TV» kanalının sifarişi ilə «Telekompaniya Format Kino» şirkəti tərəfindən «Okeanların dahi sirləri» adlı sənədli filmin çəkilişi ilə bağlı şirkətin nümayəndələri üçün 21–24 noyabr tarixində Azərbaycana səfər təşkil olunmuşdur.

28–30 noyabr tarixində Polşanın Varşava şəhərində keçirilən «TT Warsaw–2013» Beynəlxalq Turizm Sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. Həmçinin sərgidə 4 yerli turizm şirkəti «Geo Travel», «Qafqaz travel», «Regea Travel», «Heritage Travel» təmsil olunmuşdur.

Rusiyanın «Russian Travel Guide» telekanalı tərəfindən ingilis dilində Azərbaycanın turizm potensialını əks etdirən sənədli-maarifləndirici filmin hazırlanması məqsədilə 4–29 dekabr tarixində telekanalın 7 nəfərdən ibarət əməkdaşı üçün Bakı şəhərinə və Azərbaycanın bir sıra turizm potensiallı regionlarına səfər təşkil olunmuşdur.

«Россия 2» kanalı üçün Azərbaycanın zəngin milli mətbəxi haqqında 26 dəqiqəlik verilişin növbəti buraxılışının hazırlanması məqsədilə çəkiliş qrupu 16–22 dekabr tarixində ölkəmizdə səfərdə olmuşdur.

İl ərzində Azərbaycanın turizm potensialını əks etdirən reklam çarxları «CNN», «Euronews», «TV5 Monde», «Россия 2», «Моя планета» telekanallarında nümayiş etdirilmişdir.

BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ MƏDƏNİYYƏT PROQRAMLARI

Hesabat dövrü ərzində beynəlxalq mədəni əlaqələrin inkişafına xüsusi diqqət yetirilmiş, qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi davam etdirilmiş, Nazirliyin rəhbər şəxsləri ilə xarici nümayəndələr arasında 100-dən çox görüş təşkil olunmuşdur.

27–28 yanvar tarixində Andorrada və 29 yanvar – 2 fevral tarixlərində İspaniyada «FİTUR» Beynəlxalq Turizm Sərgisinin açılış mərasimində və «Know-How» tədbirlərində Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev iştirak etmişdir.

BMT-nin Sivilizasiyaların V Dünya Forumunda, Berlin şəhərində təşkil olunan «İTB» Beynəlxalq Turizm Sərgisində və BMT-nin Ümumdünya Turizm Təşkilatının «2013-cü il İpək Yolu üzrə III İllik Nazirlər Toplantısı»nda iştirak etmək üçün Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev 27 fevral – 1 mart tarixlərində Avstriyada və 1–8 mart tarixində Almaniya Federativ Respublikasında səfərdə olmuşdur. Tədbir çərçivəsində BMT-nin Baş katibi Pan Gi Mun, UNESCO-nun Baş direktoru İrina Bokova, BMT-nin Sivilizasiyalar Alyansının gələcək Ali Nümayəndəsi Nasir Əbdüləziz Əl-Naser və digər şəxslərlə görüşlər keçirilmişdir.

Mədineyi-Münəvvərə şəhərinin 2013-cü ildə «İslam Mədəniyyətinin Paytaxtı» elan edilməsi ilə əlaqədar 12 mart tarixində keçirilən tədbirin açılış mərasimində iştirak etmək məqsədilə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Səudiyyə Ərəbistanı Krallığında səfərdə olmuşdur. Səfər müddətində Səudiyyə Ərəbistanı Krallığının Mədəniyyət və İnformasiya naziri Əbdüləziz bin Muhyiddin Xuca, İslam Konfransı Təşkilatının yeni seçilmiş Baş katibi İyad Madani, Oman Sultanlığının İrs və Mədəniyyət naziri Tariq Əl Səid və ISESCO-nun Baş katibi Əbdüləziz Əltuveycri ilə görüşlər keçirilmiş, «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu» imzalanmışdır.

26–28 mart tarixində Azərbaycanın BMT və onun digər beynəlxalq təşkilatları yanında Daimi Nümayəndəliyi tərəfindən BMT-nin Cenevrə şəhərindəki Baş Qərargahında keçirilən «Beynəlxalq Novruz Günü» tədbirində və Azərbaycan Mədəniyyət Gecəsində nazir müavini Sevda Məmmədəliyeva iştirak etmişdir.

15–17 aprel tarixində Avropa Şurasına (AŞ) üzv ölkələrin mədəniyyət nazirlərinin «Mədəniyyət idarəçiliyi və mədəniyyətdən bəhrələnmənin

təşviqi» mövzusuna həsr olunan növbəti 10-cu konfransında iştirak etmək məqsədilə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində Avropa Şurasının rəsmiləri və bir sıra ölkələrin nazirləri ilə rəsmi görüşlər keçirilmişdir.

16–17 aprel tarixində Demokratiya və İqtisadi İnkişaf üzrə Təşkilatın (GUAM) mədəniyyət və turizm üzrə işçi qrupunun iclasında iştirak məqsədilə işçi qrupunun rəhbəri, nazir müavini Nazim Səmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynaya səfər etmişdir.

7–8 may tarixində Rustavi şəhərində Heydər Əliyev Parkının, Tbilisi şəhərində ümummilli lider Heydər Əliyevə həsr olunmuş stelanın və M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin açılış mərasimlərində iştirak etmək məqsədilə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Gürcüstanda səfərdə olmuşdur.

24 fevral 2012-ci il tarixində Astanada keçirilən TÜRKSOY Nazirlər Şurasının qətnamələrinə uyğun olaraq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Katibliyi və TÜRKSOY tərəfindən «Türk Mədəniyyəti Beynəlxalq Təşkilatının yaradılması haqqında Saziş» layihəsi hazırlanmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir. Aidiyyəti dövlət qurumları tərəfindən irəli sürülmüş rəy və təkliflər nəzərə alınmaqla «Türk Mədəniyyəti Beynəlxalq Təşkilatının yaradılması haqqında Saziş» layihəsində müvafiq dəyişiklik və əlavələr edilmişdir.

27–28 fevral tarixində Vyana şəhərində BMT-nin Sivilizasiyalar Alyansının 5-ci Dünya Forumunda Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.

Forumun işində BMT-nin Baş katibi Pan Gi Mun, BMT Baş Assambleyasının prezidenti Vuk Ceremik, BMT-nin Sivilizasiyalar Alyansının hazırkı Ali Nümayəndəsi Corc Sampayo və gələcək Ali Nümayəndəsi Nasir Əbdüləziz Əl-Naser, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Avstriyanın Prezidenti Haynts Fişer, İspaniyanın Xarici İşlər naziri Xose Manuel Qarsiya, eyni zamanda digər ölkə və beynəlxalq qurumların rəhbər şəxsləri daxil olmaqla mindən artıq nümayəndə iştirak etmişdir.

Nazirlər toplantısında iştirakçılara II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu barədə məlumat verilmişdir.

Tədbir çərçivəsində Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin BMT-nin Baş katibi Pan Gi Mun ilə görüşü baş tutmuşdur.

Səfər zamanı BMT-nin Sivilizasiyalar Alyansının yeni Ali Nümayəndəsi Nasir Əbdüləziz əl-Naser ilə nazir Əbülfəs Qarayev arasında görüş

keçirilmişdir. Görüşdə Azərbaycan ilə Alyans arasında əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

UNESCO-nun Baş direktoru İrina Bokova və qurumun katibliyinin təmsilçiləri ilə keçirilmiş görüşdə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Komitəsinin növbəti sessiyasının Azərbaycanda keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

Hesabat dövründə BMT-nin Sivilizasiyalar Alyansının 5-ci Dünya Forumunun Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionuna həsr edilmiş sessiyasında Azərbaycan nümayəndə heyəti xüsusi təqdimatla çıxış etmişdir.

Hesabat ilinin dekabr ayında Bakıda keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin növbəti iclasına hazırlıq vəziyyətinin müzakirəsi məqsədilə UNESCO nümayəndə heyəti 11–12 aprel tarixində Bakıya səfər etmişdir.

Hesabat dövründə 23 avqust 2012-ci ildə Bişkek şəhərində imzalanmış, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 11 dekabr tarixli 482-İVQ nömrəli Fərmanı ilə təsdiq edilmiş «Türk Mədəniyyəti və İrsi Fondunun Nizamnaməsi»nin müddəalarına uyğun olaraq, Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında «Türk Mədəniyyəti və İrsi Fondu ilə əlaqədar Yerləşmə Ölkəsi haqqında» Saziş və «Türk Mədəniyyəti və İrsi Fondunun Prosedur qaydaları» hazırlanmışdır.

UNESCO-nun Baş qərargahında yerləşdirilməsi üçün qədim daş qoç və daş at heykəlləri və həmin heykəlləri bağlı hazırlanmış texniki fayl UNESCO-nun Sənət Əsərləri üzrə Məşvərət Komitəsinə təqdim edilmişdir. May ayının 13-də daş qoç və daş at heykəlləri UNESCO Baş qərargahının daxili həyətində quraşdırılmışdır.

11–14 iyun tarixində Parisdə UNESCO-nun Mədəni ifadə müxtəlifliyinin qorunması və təşviq olunması haqqında Konvensiyanın üzv dövlətlərinin IV Konfransında Mədəniyyət və Turizm nazirinin müavini Sevda Məmmədəliyeva iştirak etmişdir. Konfransın keçirilməsində əsas məqsəd Konvensiyadan irəli gələn bir sıra məsələlərin, eləcə də üzv dövlətlər tərəfindən Konvensiyanın müddəalarının həyata keçirilməsi vəziyyətinin müzakirəsi olmuşdur. Konfransda ilk dəfə olaraq 49 üzv dövlətin dördillik hesabatları nəzərdən keçirilmiş, Katibliyin hesabatlarla bağlı təhlil xarakterli sənədi və tövsiyələri müzakirə edilmişdir. Konfrans zamanı Konvensiyanın 21-ci maddəsinin (Konvensiyanın məqsəd və prinsiplərinin bütün müstəvilərdə, o cümlədən beynəlxalq, regional, ikitərəfli və yerli səviyyədə təşviq edilməsi ilə bağlı öhdəlik) üzv dövlətlər tərəfindən icrası ilə bağlı analitik məlumat müzakirə olunmuşdur.

2013-cü ilin 28 iyun tarixində Gürcüstanın Tbilisi şəhərində Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrinin Nazirlər Konfransında Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Konfransda Şərq tərəfdaşlığı proqramının əhəmiyyəti, ölkələr arasında əməkdaşlığın vacibliyi, mədəniyyətin iqtisadiyyatda rolu və s. məsələlər müzakirə olunmuşdur.

Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası və onun iki Protokoluna əsasən «Qobustan» Milli Tarix-Bədii Qoruğuna Gücləndirilmiş Mühafizə statusunun verilməsi ilə bağlı müvafiq materiallar cari dövr ərzində hazırlanaraq UNESCO-ya təqdim edilmişdir.

UNESCO-nun yubileylər proqramına salınması üçün Naxçıvan şəhərinin 5000 illik, Əhməd Bərdəçinin 1100 illik, Qutlu Musa Türbəsinin 700 illik və İlyas Əfəndiyevin 100 illik yubileyləri ilə bağlı fayllar hazırlanaraq UNESCO-ya təqdim edilmişdir.

UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ siyahısına daxil edilməsi üçün «Koroğlu» dastanı və «Yallı» rəqsi barədə yeni faylların hazırlanması, daş sənəti, nar, şəbəkə fayllarının yenidən işlənilməsi istiqamətində işlər davam etdirilmişdir.

20–21 iyun tarixində Minsk şəhərində MDB-nin iştirakçı dövlətlərinin Mədəni Əməkdaşlıq üzrə Şurasının iclasında Nazirlik təmsil olunmuşdur. MDB Dövlət Başçıları Şurasının qərarı ilə Qəbələ şəhəri 2013-cü ildə «Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı» seçilmişdir. Bununla əlaqədar olaraq, 29–30 iyun tarixində Qəbələdə MDB üzv ölkələrinin bədii kollektivlərinin iştirakı ilə Milli Rəqs Festivalı keçirilmişdir.

Azərbaycanın tanınmış filosof alimi Seyid Yəhya Bakuvinin 550 illik yubileyi UNESCO-nun «Görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri» proqramına daxil edilmişdir. Bununla əlaqədar olaraq, Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə dünyanın müxtəlif ölkələrindən olan alim-mütəxəssislərin iştirakı ilə 2–3 iyul tarixində Bakı şəhərində S.Y.Bakuviyə həsr olunmuş «Seyid Yəhya Bakuvi – 550» adlı beynəlxalq elmi konfrans keçirilmişdir.

8–9 iyul tarixində Fransanın Paris şəhərində UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsi Bürosunun iclasında Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Büronun gündəliyində duran məsələlərə Belçika tərəfindən təqdim olunan obyektlərə, həmçinin Azərbaycanın təqdim etdiyi iki obyektə – «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğuna və «Qobustan» Milli Tarix-Bədii Qoruğuna

Gücləndirilmiş Mühafizə statusunun verilməsi ilə bağlı müraciətlərin nəzərdən keçirilməsi və işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunmasının müzakirəsi daxil olunmuşdur. Büronun 9 iyul tarixində keçirilən iclasında Azərbaycanın müraciətləri müsbət qiymətləndirilmiş və cari ilin dekabrında sözügedən Komitə tərəfindən təsdiq edilməsi üçün tövsiyə edilmişdir.

2013-cü ilin 18 iyul tarixində Azərbaycanın UNESCO-ya üzv qəbul olunmasının 20 illiyi münasibətilə Paris şəhərində qurumun Baş qərargahında bir sıra tədbirlər keçirilmişdir. Tədbirlər zamanı Azərbaycan Respublikasının birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə UNESCO-nun Baş direktoru İrina Bokova arasında görüş keçirilmişdir. Görüşdə 20 il ərzində Azərbaycan-UNESCO əməkdaşlığının vəziyyəti və gələcək perspektivləri müzakirə olunmuşdur. Görüşdən sonra «Azərbaycan Respublikası Hökuməti və UNESCO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi»nin imzalanması mərasimi keçirilmişdir.

Daha sonra UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva və Baş direktor İrina Bokova ölkəmizin bu mötəbər təşkilata üzv olmasının 20 illiyi münasibəti ilə Azərbaycan Respublikası tərəfindən hədiyyə edilən daş at və daş qoç abidələrinin təqdimat mərasimində iştirak etmişlər. Sərgidə Azərbaycan ərazisində olan bütün daş abidələr, xüsusilə Ermənistan tərəfindən işğal edilmiş ərazilərdəki daş abidələrin şəkilləri nümayiş etdirilmişdir. UNESCO-nun Baş qərargahının həyətində qoyulan bu heykəllər burada daimi olaraq sərgilənəcəkdir. Heykəllər XII–XIII əsrlərə aiddir və Tovuz rayonunun Aşağı Ayıblı kəndində tapılmışdır. Ümumilikdə daş at və daş qoç fiqurları ənənəvi xalq sənətimizin, daş plastikası sənətinin geniş yayılmış növlərindən biridir. Bu cür heykəllər həm atın, həm də qoçun xalqımız tərəfindən güc və davamlılıq simvolları kimi qəbul olunduğunu əks etdirir.

İ.Bokova çıxışında Azərbaycan abidələrinin UNESCO qərargahının mötəbər məkanında qoyulmasının tarixi bir hadisə olduğunu və təşkilatın belə tarixi əhəmiyyətli abidələrə ev sahibliyi etməsinin qürurverici olduğunu qeyd edərək, Azərbaycan-UNESCO əməkdaşlığının bütün sahələrdə inkişaf etdiyini bir daha bəyan etmişdir.

Tədbirin iştirakçılarına Azərbaycanda tapılan daş heykəllərin tarixini əks etdirən kitablar paylanılmışdır.

UNESCO-nun yubileylər proqramına daxil edilmiş «Arşın mal alan» musiqili komediyası 17–19 sentyabr tarixində UNESCO-nun Baş qərargahında TÜRKSOY, Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyi

və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə Paris və Strasburq şəhərlərində səhnəyə qoyulmuş və sərgi təşkil edilmişdir. «Arşın mal alan» operettasının 100 illik yubileyi UNESCO-nun 2012–2013-cü illər üçün «Görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı»na daxil edilmişdir. Qeyd olunan yubileylər münasibətilə Paris şəhərində keçirilən tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. «Arşın mal alan» operettası Azərbaycanın Xalq Artisti, professor Ağaverdi Paşayevin bədii rəhbərliyi altında Qazaxıstanın Qaraqanda Simfonik Orkestrinin müşayiəti, TÜRKSOY-un üzvü olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə artistlərinin ifasında təqdim olunmuşdur. Üzeyir Hacıbəylinin Ev-Muzeyinin toplusu əsasında təşkil olunmuş sərgidə «Arşın mal alan» operettasının tarixini əks etdirən materiallar – afişalar, məqalələr, ən məşhur ifaçıların fotoşəkilləri nümayiş etdirilmişdir.

2013-cü ilin 28 oktyabr tarixində Parisdə UNESCO-nun mənzil qərargahında Azərbaycanın sədrliyi ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin Büro iclası, Komitənin üzv və müşahidəçi ölkələrinin iştirakı ilə informasiya görüşü və «Qeyri-maddi mədəni irsin qorunması haqqında» 2003-cü il Konvensiyasının 10 illiyinə həsr olunan sərginin açılışı keçirilmişdir. Tədbirdə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.

Büro iclasında dekabrın 2-dən 7-dək Bakıda keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasının sənədləri, bəzi ölkələrdə acınacaqlı vəziyyətdə olan ənənələr, tarixi abidələr, qeyri-maddi mədəni irs nümunələri və onlara UNESCO tərəfindən göstəriləcək maddi yardımlar müzakirə olunmuşdur.

5–20 noyabr tarixində UNESCO Baş Konfransının 37-ci sessiyası çərçivəsində keçirilən Mədəniyyət Komissiyasının iclasında iştirak etmək məqsədilə Mədəniyyət və Turizm nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti 14–19 noyabr tarixində Paris şəhərində səfərdə olmuşdur.

İclasda muzey və kolleksiyaların qorunması və təşviqi üzrə standartlaşdırma alətinin yaradılmasının texniki və hüquqi aspektləri üzrə ilkin tədqiqatların aparılması ilə bağlı fikir mübadiləsi edilmiş, bir çox məruzəçilər tərəfindən yeni normativ alətlərin hazırlanması dəstəklənmişdir. Azərbaycan nümayəndə heyəti tərəfindən iclas iştirakçılarına ölkəmizdə mədəniyyətin inkişafına yönəldilmiş islahatlar, bu sahədə həyata keçirilən layihə

və proqramlar, həmçinin UNESCO-Azərbaycan əməkdaşlığı haqqında ətraflı məlumat təqdim edilmişdir.

2–7 dekabr tarixində Bakıda UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyası keçirilmişdir. Sessiyada iştirak etmək üçün 793 nəfər qeydiyyatdan keçmiş, 116 ölkədən 611 nəfər iştirak etmişdir. Tədbir iştirakçılarının ümumi sayı 900-ə yaxın olmuş və budəfəki sessiya UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin tarixinə ən çox iştirakçı sayı olan iclas kimi düşmüşdür.

Açılışdan öncə iştirakçılara ölkəmizin mədəniyyətini, tarixini, incəsənətini və müasir inkişafını əks etdirən müxtəlif dillərdə kitab, jurnal və digər çap məhsulları təqdim edilmişdir.

Sessiyaya sədrlik edən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev bu sessiyanın Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyanın 10 illik yubileyi ilə eyni vaxta təsadüf etdiyini bildirmiş və sənədin əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki, Qeyri-Maddi Mədəni İrs üzrə 2003-cü il Konvensiyası dünyada geniş auditoriya tərəfindən qəbul olunur. UNESCO üzvü olan 195 ölkədən 156-sı bu Konvensiyaya dəstək verir. Bu illər ərzində Azərbaycan da Konvensiya çərçivəsində çox dəyərli, xalqımızın mənəvi dəyərlərini əks etdirən nümunələrin dünya qeyri-maddi mənəvi irs siyahısına daxil edilməsinə nail olub.

Sessiyanın gündəliyində duran ən əsas məsələ təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irsin siyahısı və bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı üzrə qərarın verilməsi olmuşdur. Sessiyanın keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Mədəniyyət işləri üzrə UNESCO-nun direktor müavini Françesko Bandarin, Qeyri-Maddi Mədəni İrs Üzrə Konvensiyanın katibi Sesil Düvelin, yerli və beynəlxalq jurnalistlərin iştirakı ilə mətbuat konfransı keçirilmişdir. Mədəniyyət işləri üzrə UNESCO-nun direktor müavini Françesko Bandarin Azərbaycanın sessiyanın keçirilməsinə göstərdiyi qayğını yüksək qiymətləndirmişdir.

Komitənin VIII sessiyasında təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irsin siyahısına təklif edilən nominasiyalar nəzərdən keçirilmişdir. İlk olaraq Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim edilən «Çövkən – qədim atüstü Qarabağ oyunu» nominasiyası müzakirə olunmuşdur.

Azərbaycanın ənənəvi milli oyun növü olan Çövkənin UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına salınması

ilə bağlı ölkəmizin nümayəndə heyətinin məlumatı və oyun haqqında ətraflı informasiya (oyunun xüsusiyyətləri və oyunla bağlı video) iclas üzvlərinin nəzərinə çatdırılmışdır.

Daha sonra, Çövkən Qarabağ atüstü oyununun UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Qərarın qəbulundan dərhal sonra Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev media nümayəndələrinə açıqlama verərək, ilk növbədə, bütün xalqımızı, xüsusilə Azərbaycan Respublikasını sessiyada yüksək səviyyədə təmsil edən nümayəndə heyətini ürəkdən təbrik etmişdir. Azərbaycan mədəniyyəti tarixində çox böyük bir hadisə baş verdiyini bildirən Nazir, Azərbaycanın qədim ənənələrində kök salan, bu gün də yaşayan və xalqları birləşdirən, Azərbaycan mədəniyyətini və mənəviyyatını əks etdirən milli xalq oyunumuz Çövkənin UNESCO-nun siyahısına daxil edilməsini yüksək qiymətləndirmişdir.

Ümumiyyətlə, sessiya zamanı Təcili Qorunma siyahısına salınmaq üçün 12 nominasiya irəli sürülmüş və 4 nominasiya – Azərbaycan, Qvatemala, Monqolustan və Uqandanın nominasiyaları siyahıya salınmışdır. Reprezentativ siyahıya salınmaq üçün 31 nominasiya irəli sürülmüş, onlardan 25-i qəbul olunmuşdur.

Sessiya Azərbaycanda İnternet vasitəsilə onlayn yayımlanan ilk beynəlxalq tədbir idi. Gündəlik izləyicilərin sayı əvvəlki sessiyalardan iki dəfə artıq – gün ərzində 14300 nəfər olmuşdur.

İNVESTİSİYA VƏ TEXNİKİ PROQRAMLAR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s nömrəli Sərəncamı ilə mədəniyyət və turizm obyektlərinin tikintisi, təmiri və yenidənqurulması üçün Mədəniyyət və Turizm Nazirliyinə 43 obyekt üzrə 146533,00 manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Cari ilin 3 dekabr tarixinə qədər yerinə yetirilmiş təmir-tikinti işləri üçün ayrılmış vəsait 136307,32 manat, yaxud 93,0% təşkil etmişdir, o cümlədən «Şahdağ» Qış-Yay Turizm Kompleksinin yaradılması layihəsi (nəzərdə tutulan vəsait 100000,0 min manat) üzrə maliyyələşmə 100000,00 min manat, yaxud 100,0% təşkil edir.

Hesabat dövründə mədəniyyət və turizm obyektlərinin tikintisi, təmir-bərpası və yenidənqurulması ilə əlaqədar aşağıdakı işlər görülmüşdür:

Azərbaycan Milli İncəsənət Muzeyində keçid korpusunun tikintisi başa çatmışdır. Muzeyin Niyazi küçəsi, 9 ünvanında yerləşən binasında təmir-bərpa və yenidənqurma işləri üçün layihə-smeta sənədləri hazırlanır.

Qəbələ rayon Mədəniyyət Evinin tikintisi başa çatmışdır.

Azərbaycan Dövlət Musiqili Teatrının binasında təmir və bərpa işləri başa çatmışdır.

«Şahdağ» Qış-Yay Turizm Kompleksinin növbəti 1.1.2 və 1.2 mərhələlərinin tikintisi davam etdirilir.

Gəncə şəhərində «Şah Abbas» Karvansarayının bərpa işləri davam etdirilir.

Ağdam rayonu, Xındırıstan kənd Uşaq Musiqi Məktəbinin tikintisi davam etdirilir.

Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı binasında yenidən qurulma işləri başa çatmışdır.

Tərtər şəhərində Mədəniyyət Evinin əsaslı təmir işləri başa çatmışdır.

Bərdə şəhərində qəza vəziyyətində olan 1 nömrəli Uşaq İncəsənət Məktəbi üçün yeni binanın tikintisi başa çatmışdır.

Sabunçu rayonu, Nardaran qəsəbəsindəki Mədəniyyət Evində muğam musiqi evi yaradılmaqla əsaslı təmir işləri davam etdirilir.

Binəqədi rayonu, F.Əmirov adına 6 nömrəli Uşaq Musiqi Məktəbinin binasında yenidənqurma və əsaslı təmir işləri başa çatmışdır.

Xətai rayonu, Əhmədli qəsəbəsində kitabxana binasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış, lakin söküntüsü nəzərdə tutulan binada 11 nəfərdən ibarət 3 məcburi köçkün ailəsi məskunlaşdığına görə tikinti işlərinə başlanmayıb.

Qaradağ rayonu, Qobustan Mədəniyyət Mərkəzi binasının əsaslı təmir işləri başa çatmışdır.

Qaradağ rayonu, Müşfiqabad qəsəbəsində Mədəniyyət Evinin əsaslı təmir işləri davam etdirilir.

Nərimanov rayonu, 21 nömrəli Musiqi Məktəbinin əsaslı təmirinə başlanmışdır.

Nərimanov rayonu, 23 nömrəli Musiqi Məktəbinin əsaslı təmir işləri başa çatmışdır.

Nəsimi rayonu, 20 nömrəli Uşaq Musiqi Məktəbinin əsaslı təmiri və yenidən qurulması işləri başa çatmışdır.

Səbail rayonu, Bibiheybət qəsəbəsində Mədəniyyət Evi və kitabxananın əsaslı təmir işləri başa çatmışdır.

Şəki şəhərində Şəkixanovların evinin bərpası işləri başa çatmışdır.

Tovuz rayonunda Mədəniyyət Evinin yenidən qurulması işləri davam etdirilir.

A.A.Bakıxanov adına Quba Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının tikintisi davam etdirilir.

Bərdə şəhərində «Allah-Allah» türbəsinin konservasiyası işləri davam etdirilir.

Qaradağ rayonu, Qızıldaş mədəniyyət mərkəzinin (kitabxana daxil olmaqla) tikintisinə başlanmışdır.

Sabunçu rayonu, Maştağa qəsəbəsində H.Abbasov adına Mədəniyyət Mərkəzinin (13 nömrəli kitabxana filialı daxil olmaqla) tikintisinə başlanmışdır.

Xəzər rayonu, Şağan qəsəbəsində mədəniyyət mərkəzinin (kitabxana daxil olmaqla) tikintisinə başlanmışdır.

Sabirabad rayonunda Mədəniyyət Evinin əsaslı təmir işləri davam etdirilir.

«Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunda konservasiya işləri başa çatmışdır.

Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində tikinti işləri başa çatmaq üzrədir.

Bakı şəhəri, Səbail rayonu, Bayıl qəsəbəsində C.Hacıyev adına 3 saylı uşaq musiqi məktəbinin əsaslı təmir işləri başa çatmışdır.

Binəqədi rayonu, Müslüm Maqomayev adına 26 nömrəli Uşaq Musiqi Məktəbinin əsaslı təmiri və yenidən qurulma işləri davam etdirilir.

Şabran rayonunda «Çıraqqala» Qoruğu abidələrinin («Çıraqqala»nın bürc və qala divarları) konservasiyası və qoruğun yeni inzibati binasının tikinti işləri üçün layihə-smeta sənədləri hazırlanır.

Tovuz rayonunda aşıq H.Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi binasının tikinti işləri davam etdirilir.

Oğuz şəhərində «Alban» məbədinin bərpası üçün layihə-smeta sənədləri hazırlanır.

Bərdə şəhərində Mədəniyyət Sarayı binasının yerində Mədəniyyət Mərkəzi binasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmışdır.

Bakı şəhəri, Nəsimi rayonunda Bakı Xoreoqrafiya Məktəbi kompleksinin əsaslı təmiri və müasir avadanlıqlarla təchizatı üçün layihə-smeta sənədləri hazırlanmışdır.

Lənkəran şəhərində Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmirinə başlanmışdır.

Şəki şəhərində Xan Sarayının hasarlanması obyekti üzrə layihə-smeta sənədləri hazırlanır.

«Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri» maddəsi ilə 2013-cü ildə maliyyələşdirilən mədəniyyət və turizm obyektlərinin təmir-bərpası ilə əlaqədar aşağıdakıları qeyd etmək olar:

Quba rayonu, Xınalıq kəndində Əbu-Müslüm məscidinin bərpası başa çatmışdır.

Alban abidələrində elmi-tədqiqat işlərinin aparılması və ayrı-ayrı elementlərdə möhkəmləndirmə işləri üzrə layihə-smeta sənədləri hazırlanır.

– Qəbələ rayonu, Nic kəndində Göyün məbədinin bərpası və etnoqrafiya muzeyinin yaradılması üçün layihə-smeta sənədləri hazırlanır.

Qəbələ Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki «Səlbir» qalasının bərpa və konservasiya işləri üçün layihə-smeta sənədləri hazırlanır.

MALİYYƏ VƏ İQTİSADİYYAT

Hesabat dövründə mədəniyyət və turizm müəssisələrinin 2012-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunları Nazirliyin kollegiya iclasında müzakirə edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinə 2013-cü ilə ayrılan büdcə vəsaitinin təşkilatlar və müəssisələr arasında bölgüsünün təhlili aparılmışdır.

Teatr-tamaşa müəssisələrinin əsas proqnoz göstəricilərinin və büdcədən ayrılan vəsaitin bölgüsü, ştat cədvəlləri hazırlanmış, təsdiq olunmuş, yerlərə çatdırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanaların, klub müəssisələrinin, uşaq musiqi məktəblərinin və digər statistik hesabatların 2012-ci il üzrə toplu (yekun) hesabatları, Mərkəzi Aparat üzrə müvafiq hesabatları qəbul edilərək toplusu hazırlanmış və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur.

2014-cü il üçün mədəni-maarif müəssisələrinin şəbəkə proqnozlarının təhlili və təsdiqi üçün müvafiq işlər aparılmışdır.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 11.6-cı maddəsinə müvafiq olaraq Mədəniyyət və Turizm Nazirliyinin, o cümlədən, «Mərkəzi Aparat», «Mədəniyyət», «Turizm» və «Təhsil» bölmələrinin xərc maddələri nəzərə alınmaqla mərkəzləşdirilmiş xərclərdən maliyyələşən müəssisə və təşkilatlar üzrə 2013-cü il və sonrakı 3 ilə görə büdcə və büdcədənkənar layihələri hazırlanmış, son təhlili aparılmış, ona uyğun hazırlanmış proqramlar, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası, proqnoz göstəriciləri müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Kapital Qoyuluşu üzrə müəyyən olunmuş hesabatlar mütəmadi olaraq hər ay Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və yerli statistika idarələrinə təqdim olunmuşdur.

2013-cü il ərzində rüblər üzrə «Mərkəzi Aparat», «Mədəniyyət», «Turizm» və «Təhsil» bölmələrində dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən müəssisələrin və təsərrüfat təşkilatlarının icmalı hazırlanmış və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Statistika Komitəsinə və yerli statistika idarəsinə təqdim olunmuşdur.

Hesabat dövründə «Mərkəzi Aparat», «Mədəniyyət», «Turizm» və «Təhsil» bölmələrinin xərc maddələri nəzərə alınmaqla paraqraflar üzrə hazırlanmış 2014–2017-ci illər üzrə büdcə və büdcədənkənar layihələrin son təhlili aparılmış və Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Mədəni-maarif müəssisələrinin 2014-cü il üzrə şəbəkə proqnozlarının layihələri təhlil edilmiş, təsdiq olunmuş proqnozlar Azərbaycan Respublikası Maliyyə Nazirliyinə və yerlərə çatdırılmışdır.

«Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunda olan uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inzibati və xidmətedici heyət işçilərinin say normativləri» yenidən işlənərək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilmişdir.

«Teatr, konsert, sirk müəssisələrində olan fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası» hazırlanaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmişdir.

Mədəniyyət və turizm işçilərinin, qismən büdcədən maliyyələşən teatr, konsert, sirk müəssisələrinin vəzifə maaşlarına əlavələrin təyin edilməsi qaydaları yenidən işlənərək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

«Azərbaycan teatrı 2009–2019-cu illərdə Dövlət Proqramı»na uyğun olaraq respublikada teatr sahəsində idarəetmənin və maliyyə-iqtisadi mexanizmlərin təkmilləşdirilməsinin təmin edilməsi ilə əlaqədar islahatlar aparılmış, Beynəlxalq Muğam Mərkəzinin və Dövlət Mahnı və Muğam teatrlarının yeni strukturu işlənib hazırlanmışdır.

«Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının 2-ci hissəsinin 4-cü abzasını rəhbər tutaraq «Mədəni-maarif, turizm müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid-Tarif İxtisas Sorğu Kitabçası»na dəyişikliklər edilərək təkmilləşdirilmiş və 13 iyun 2013-cü il tarixində Ədliyyə Nazirliyinin Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

«Azərbaycan teatrı 2009–2019-cu illərdə Dövlət Proqramı»nın 2.2-ci bəndinin icrası ilə əlaqədar «Teatr, konsert, sirk müəssisələrində olan fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası» layihəsinin son variantı Azərbaycan Respublikası Əmək Məcəlləsinin 57-ci maddəsinin 2-ci hissəsinə və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə»yə uyğun olaraq təsdiq edilmiş və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə, kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri»nə dair qərarın icrası ilə əlaqədar yeni vəzifələrin ixtisas sorğu kitabçasına daxil edilməsi qaydaları işlənib hazırlanmış və təsdiq olunmuşdur.

KADRLARLA İŞ

Mədəniyyət və turizm sahəsində dövlət kadr siyasətinin həyata keçirilməsi istiqamətində Nazirlik tərəfindən «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununun, «Azərbaycan Respublikasının Dövlət Qulluqçularının Reyestrinin aparılması Qaydaları»nın və bu məsələyə aid digər normativ-hüquqi aktların icrası ilə bağlı zəruri işlər görülmüşdür.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə cari dövr ərzində elan edilmiş 2 müsabiqəyə 57 yer (24 vəzifə Nazirliyin aparatından, 9 vəzifə Bakı şəhər Mədəniyyət və Turizm İdarəsindən, 24 vəzifə rayon mədəniyyət və turizm şöbələrindən), 11 müsahibəyə isə 14 yer (10 vəzifə Nazirliyin aparatından, 1 vəzifə Bakı şəhər Mədəniyyət və Turizm İdarəsindən, 3 vəzifə rayon mədəniyyət və turizm şöbələrindən) təqdim olunmuşdur.

Qeyd edilən müsabiqələrdən müvəffəqiyyətlə keçmiş 15 nəfər (onlardan 13 nəfər – Nazirliyin aparatında, 1 nəfər – Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində, 1 nəfər – Şuşa rayon Mədəniyyət və Turizm şöbəsində) müvafiq işlə təmin edilmişlər.

Dövlət qulluqçularının vəzifədə yüksəlişi məqsədilə vakant yerlərin tutulması üçün elan edilən müsahibələrdə müvəffəqiyyət qazanan 9 nəfər namizəd müvafiq vəzifələrə təyin olunmuşlar.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində xaricdə təhsil almış və ehtiyat kadrlar siyahısına daxil edilmiş bir nəfər Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin xarici turizm sektorunda vakant olan məsləhətçisi vəzifəsinə təyin edilmişdir.

Həmçinin vakant olan bəzi vəzifələrin tutulması məqsədilə ehtiyat kadrlar siyahısında olan bir nəfər Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin mədəni-kütləvi, kitabxana, mədəniyyət evləri və muzey işi sektorunun məsləhətçisi vəzifəsinə qəbul edilmişdir.

Cari dövr ərzində Nazirliyin aparatına, tabe təşkilat və müəssisələrə ümumilikdə 80 nəfər işçi təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Əmək Məcəlləsində yaş həddi ilə bağlı edilmiş dəyişikliklərin icrası ilə əlaqədar hesabat dövründə 42 əməkdaşın çalışma müddətləri

uzadılmış, 7 əməkdaşın isə təqaüdə çıxmaları ilə əlaqədar əmr hazırlanmış, onlara Nazirliyin Fəxri Fərmanı və pul mükafatı verilmişdir.

Hesabat dövründə Nazirliyin dörd, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin iki və Göygöl rayon Mədəniyyət və Turizm Şöbəsinin bir əməkdaşı sınaq müddətinin bitməsi ilə əlaqədar daimi dövlət qulluğuna qəbul edilmiş və onlara müvafiq olaraq «2-ci dərəcə dövlət qulluqçusu» və «kiçik dövlət qulluqçusu» ixtisas dərəcələri verilmişdir. 2 nəfər əməkdaş isə staj müddətinin bitməsi ilə əlaqədar sınaq müddəti ilə dövlət qulluğuna qəbul olunmuşdur.

Hesabat ilində Nazirliyin 21 əməkdaşına müvafiq ixtisas dərəcəsi verilmişdir.

Nazirliyin 23 əməkdaşına Dövlət qulluğundakı qulluq stajları ilə bağlı vəzifə maaşlarına əlavə haqqın ödənilməsi təmin edilmişdir.

Brona alınma işləri ilə əlaqədar təlimata uyğun olaraq Nazirliyin və tabeliyində olan təşkilat və müəssisələrin əməkdaşlarının 2012-ci il üçün hərbi uçotu haqqında statistik məlumatlar ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilmiş və 2013-cü il üçün məlumatların hazırlanması üzrə müvafiq işlər aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən orden, medal və fəxri adlarla təltif olunmuş 70 nəfər mədəniyyət və incəsənət xadiminə nazir Əbülfəs Qarayev layiq görüldükləri fəxri adları təqdim etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyul 2012-ci il tarixli Fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyinin Əsasnaməsində edilmiş dəyişikliyə uyğun olaraq «Fəxri Mədəniyyət İşçisi» və «Fəxri Turizm İşçisi» döş nişanları təsis edilmişdir.

Bununla əlaqədar, Mədəniyyət və Turizm Nazirliyinin Kollegiyasının Qərarı ilə mədəniyyət və turizm sahəsində səmərəli xidmətlərinə görə 96 əməkdaş Mədəniyyət və Turizm Nazirliyinin «Fəxri Mədəniyyət İşçisi», 9 əməkdaş isə «Fəxri Turizm İşçisi» döş nişanları ilə təltif edilmişdir.

ANALİTİK TƏHLİL
VƏ PROQRAM TƏMİNATI

Analitik təhlil və proqram təminatı üzrə 2013-cü il ərzində görülən işləri aşağıdakı şəkildə qeyd etmək olar:

Nazirlikdə «DATA» mərkəz yaradılmış, mərkəzə optik xətt çəkilmiş və «AzDataCom» şəbəkəsi vasitəsilə EHDİS portalına qoşulmaq üçün müvafiq işlər aparılmışdır. Nazirliyin aparatında çalışan əməkdaşların e-imza ilə təmin olunması üçün müfaviq müraciət məktubu göndərilmişdir. EHDİS («Elektron Hökumət» Dövlət İnformasiya Sistemi) Elektron Xidmətlər Portalına qoşulmaq üçün e-imza və xüsusi şifrə alınmış, müvafiq serverlərin və şəbəkə avadanlıqlarının alınması təmin edilmişdir. Serverlər və şəbəkə Elektron Xidmətlər Portalına qoşulmuşdur. Mövcud xidmətlərin portala qoşulması ilə bağlı məlumatlar Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinə təqdim edilmişdir.

Məlumat Hesablama Mərkəzi ilə birgə müvafiq işlər aparılmış və portala qoşulma təmin edilmişdir. Həmçinin müvafiq sistemlər (lisenziyaların verilməsi) arasında informasiya mübadiləsinin səmərəli təşkili məqsədi ilə fərdi identifikasiya kodu tətbiq edilmişdir.

Hesabat dövründə Nazirliyin Kollegiya iclasında «Fiziki və hüquqi şəxslər tərəfindən turizm və mehmanxana fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün sənədlərin elektron qaydada qəbulu» haqqında məsələ müzakirə edilmişdir.

Hazırda Nazirliyin e-xidmətlər saytında (www.e-services.mct. gov.az) aşağıdakı interaktiv xidmətlər mövcuddur:

Turizm sahəsi üzrə sənədlərin qəbulu

Turizm fəaliyyəti

Fiziki şəxslər tərəfindən turizm fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün müraciət və sənədlərin qəbulu

Hüquqi şəxslər tərəfindən turizm fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün müraciət və sənədlərin qəbulu

Mehmanxana fəaliyyəti

Fiziki şəxslər tərəfindən mehmanxana fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün müraciət və sənədlərin qəbulu

Hüquqi şəxslər tərəfindən mehmanxana fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün müraciət və sənədlərin qəbulu

Yerləşdirmə obyektinin təsnifatı

Fiziki şəxslər üçün yerləşdirmə obyektinin təsnifatdan keçirilməsinə dair müraciət və sənədlərin qəbulu

Hüquqi şəxlər üçün yerləşdirmə obyektinin təsnifatdan keçirilməsinə dair müraciət və sənədlərin qəbulu

E-müraciət

Ərizə, şikayət, təkliflər

Qəbula yazılmaq

Rəhbər şəxslərin qəbuluna yazılma

Qeyri-etik davranış barədə

Ərizə, şikayət, təkliflər

Xəritə

CİS naviqasiya sistemi üzrə xidmətlər

Hazırda turizm, mehmanxana, mehmanxana tipli obyektlərə və turizm fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərə icazələrin, lisenziyaların verilməsi üçün müraciətin və sənədlərin qəbulu yalnız e-xidmətlər vasitəsilə həyata keçirilir.

Hesabat dövrü ərzində bu xidmətlərlə 17294 nəfər maraqlanmış, 262 müraciət daxil olmuş, 129 müraciətə baxılmış və 133 müraciət hazırda icradadır.

Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07.03.13 tarixli 26/14-39 nömrəli tapşırığına əsasən «2013–2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və «elektron hökumət»in inkişafına dair Dövlət Proqramı»nın layihəsinə daxil edilməsi üçün təkliflər hazırlanıb müvafiq qurumlara təqdim edilmişdir. Nəticədə 5 təklif tədbirlər planına əlavə edilmişdir.

Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi ilə əlaqədar Tədbirlər Planına əsasən bir sıra kitabxana, muzey və parklarda yerli büdcə hesabına ödənişsiz Wi-Fi zonaları yaradılmışdır.

Nazirlikdə tətbiq edilən sistemlərin (147 nömrəli telefon məlumat sistemi, Daxil olan sənədlərin qeydiyyatı sistemi, Daxil olan ərizə, şikayət və təkliflərin qeydiyyatı sistemi, Kinoların reyestri proqramı, Azərbaycan qeyri-maddi mədəni irs abidələrinin reyestri sistemi, Tarixi abidə, heykəl və monumentlərin reyestri proqramı, «Ezamiyyələrin qeydiyyatı və nəzarəti» proqramı, «İşə davamiyyətə, intizam qaydalarına, tədbirlərə nəzarət» sistemi, «İnventarların uçotunun aparılması» proqramı, «Fərman, Sərəncam, Qərarlar, Əmrlərin icrasına nəzarət» proqramı, Dövlət Rəsm Qalereyalarında

saxlanılan əsərlərin «Vahid Elektron Kataloqu» proqramı) və aidiyyəti veb (mct.gov.az, cls.az, azerbaijan.travel və digər saytlar) portalların işinə daim nəzarət edilmiş, məlumatların təhlükəsizliyi və qorunması təmin olunmuş, sistemlər işlək vəziyyətdə saxlanılmışdır.

Turizm üzrə informasiya naviqasiya sisteminin təkmilləşdirilməsi işləri davam etdirilmişdir. Hazırda gomap.az portalına gündə 5000-dən çox istifadəçi daxil olur.

Mədəniyyət və Turizm Nazirliyi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə «NETTY» Azərbaycan Milli İnternet Mükafatının təşkili və keçirilməsinə rəsmi dəstək verir. 2013-cü il İnformasiya ili çərçivəsində təşkilatçılarla müvafiq işlər aparılmış, 18 iyun tarixində Muğam mərkəzində tədbirin mükafatlandırma mərasimi keçirilmişdir. Nazirliyin Müsabiqəyə rəsmi dəstək verməsi Azərbaycanda mədəniyyətin, turizmin inkişafı ilə bağlı yeni saytların və portalların yaradılmasına stimul yaradır və nəticə etibarı ilə hər il bu sahələrdə yeni maraqlı saytlar yaradılır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar 6–7 may tarixində Qəbələ şəhərində «elektron hökumət» təcrübəsi üzrə keçirilmiş konfransın sərgi zalında Nazirliyin «GOMAP» və «ALİSA» sistemləri nümayiş etdirilmişdir.

İyul ayının 4–5-də Şamaxı şəhərində Şamaxı, Qobustan, İsmayıllı və Ağsu rayon mədəniyyət və turizm şöbə müdirlərinin, müəssisə rəhbərlərinin iştirakı ilə rayon mədəniyyət və turizm şöbələrinin işinin təşkilində informasiya texnologiyalarının tətbiqinə dair seminar keçirilmişdir.

2013-cü ilin sentyabr ayının 11-dən 19-a kimi Nazirliyin əməkdaşları üçün e-imza vasitəsi ilə sənədlərin imzalanması mövzusunda praktik məşğələlər keçirilmişdir. Nazirliyin bütün əməkdaşları e-imza ilə işləmək qaydalarını öyrənmişlər.

Noyabr ayının 28-də Nazirliyin sifarişi ilə yaradılmış Virtual Mərkəzləşdirilmiş Elektron Kitabxana sisteminin təqdimatı olmuşdur.

Vahid Mərkəzləşdirilmiş Kitabxana Sistemi şərti olaraq iki hissədən ibarətdir: İctimaiyyətə açıq olan hissə və Vahid Mərkəzləşdirilmiş Kitabxana portalı və inzibati, daxili istifadə üçün nəzərdə tutulan proqram təminatı hissəsi.

Sözügedən sistem artıq Bakı şəhərinin üç rayon mərkəzi kitabxanasında – Xətai MKS, Nərimanov MKS və Səbayil MKS-də tətbiq olunmağa başlanmışdır.

Sistemin hazırlanma prosesində dünyanın ən qabaqcıl kitabxana sistemlərinin təcrübəsindən yararlanmaqla yanaşı, xüsusi kitabxana işi üzrə mütəxəssis komanda ilə işlənmişdir. Hazırlanan ALİSA sistemi ən son texnologiyaların tətbiqi ilə işlənmiş veb əsaslı sistemdir. Sistem MARC21, ISO2709, UNICODE, Z 3950 və digər standartlar və protokolları dəstəkləyir.

2–5 dekabr tarixində keçirilən «BakuTel–2013» sərgisində «SİNAM» MMC tərəfindən hazırlanmış Gomap.az layihəsi, Ultra MMC tərəfindən hazırlanmış «ALİSA» Vahid Mərkəzləşdirilmiş Elektron Kitabxana sistemi nümayiş etdirilmişdir. Sistemlər sərgi ziyarətçilərinin böyük marağına səbəb olmuşdur.

Dekabr ayının 1–8 tarixində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin Bakıda keçirilən VIII sessiyasında sessiyanın işinin birbaşa onlayn rejimində yayılması, iştirakçıların mobil qurğularına Wİ-Fİ vasitəsilə internetin verilməsi təmin edilmiş və qarşıya qoyulan bütün texniki məsələlər həll olunmuşdur.

REGİONLARLA İŞ

Hesabat dövründə şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) 2012-ci il ərzində fəaliyyətinin təhlil edilməsi, regionlarda mədəniyyət və turizm sahəsində mövcud problemlərin və onların həlli yollarının müzakirəsi, Mədəniyyət və Turizm Nazirliyinin yerli orqanlarının işinin təkmilləşdirilməsi məqsədilə şəhər (rayon) mədəniyyət və turizm şöbələrinin müdirləri və məsləhətçilərinin iştirakı ilə mart ayının 15-də Bakı şəhərində «Regionlarda mədəniyyət və turizm: 2012-ci ilin yekunları» ümumrespublika müşavirəsi keçirilmişdir. Müşavirədə regionlarda dövlət mədəniyyət və turizm siyasətinin icrası ilə bağlı görülən işləri əks etdirən fotostend və nəşrlərdən ibarət sərgi nümayiş etdirilmişdir.

Mart ayının 12–13-də qaçqın və məcburi köçkünlərin məskunlaşdığı Ağcabədi rayon Taxtakörpü qəsəbəsində və Goranboy rayonunda incəsənət ustalarının iştirakı ilə Novruz bayramına həsr olunmuş konsert proqramı təşkil edilmişdir.

Mart ayının 18-də Novruz bayramı ərəfəsində, iyun ayının 13-də Milli Qurtuluş günü ərəfəsində, oktyabr ayının 11-də Qurban bayramı ərəfəsində, noyabr ayının 14-də Milli Dirçəliş Günü ərəfəsində Salyan rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinə ərzaq yardımı paylanmışdır.

May ayının 7-də Ağstafa şəhərində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş aşıq ifaçılığı festivalı keçirilmişdir.

Mədəniyyət və turizm sahəsində qəbul edilmiş dövlət proqramlarının və normativ aktların, «Mədəniyyət haqqında» 2012-ci il 21 dekabr tarixli Qanunun icrası vəziyyətinin müzakirəsi məqsədi ilə may ayının 13-də Qazax, may ayının 23-də Lənkəran, iyun ayının 13-də Salyan, noyabr ayının 7-də Oğuz, noyabr ayının 28-də isə İsmayıllı rayonunda regional işçi müşavirələr keçirilmişdir.

Nazirlik tərəfindən təsdiq olunmuş «Şəhər (Rayon) Mədəniyyət Mərkəzlərinin yaradılması» layihəsi ilə əlaqədar həyata keçirilən islahatlar Şəki şəhər və Abşeron, Balakən, Gədəbəy, Göygöl, Xaçmaz, Qazax, Qəbələ, Masallı və Şamaxı rayonlarının klub müəssisələrinin fəaliyyətinə öz müsbət töhfəsini vermiş və bu müəssisələr mövcud imkanlar daxilində tam gücü ilə işləməyə başlamışlar.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən Mədəniyyət və Turizm naziri tərəfindən 19 aprel tarixində Saatlıda – 37, 17 may tarixində Mingəçevirdə

– 32, 21 iyun tarixində Gəncədə – 55, 19 iyul tarixində Qubada – 41, 30 avqust tarixində Qobustanda – 34, 6 sentyabr tarixində Cəlilabadda – 40, 4 oktyabr tarixində Sumqayıtda – 31, 18 noyabr tarixində Şirvanda – 33, 16 dekabr tarixində Şəkidə – 36 vətəndaş qəbul edilmiş və hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun surətdə həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilmişdir.


Azərbaycanda muzeylərin artım dinamikası (2003-2013)
250
200
150
100
50
0
140
143
160
169
189
200
203
204
206
212
217
2003
2004
2005
2006
2007
2008
2009
2010
2011
2012
2013


2003-2013-cü illərdə Azərbaycanda turizm şirkətlərinin sayı
300
250
200
150
100
50
74
135
197
240
255
230
218
210
178
221
245
2003
2004
2005
2006
2007
2008
2009
2010
2011
2012
2013


2003-2013-cü illərdə xarici ölkələrə gedən azərbaycanlıların sayı
4.0 mln
3.5 mln
3.0 mln
2.5 mln
2.0 mln
1.5 mln
1.0 mln
1.376.303
1.473.496
1.829.765
1.835.928
1.631.348
2.162.372
2.362.475
3.175.606
3.550.232
3.874.382
3.950.000*
2003
2004
2005
2006
2007
2008
2009
2010
2011
2012
2013

2003-2013-cü illərdə Azərbaycana gələn xarici vətəndaşların sayı
2.5 mln
2.0 mln
1.5 mln
1.0 mln
1.013.811
1.348.655
1.177.277
1.193.742
1.332.701
1.898.939
1.830.367
1.962.906
2.239.141
2.484.048
2.300.000*
2003
2004
2005
2006
2007
2008
2009
2010
2011
2012
2013


2003-2013-cü illərdə Azərbaycanda mehmanxanaların sayı
550
500
450
400
350
300
250
200
150
100
50
2003
2004
2005
2006
2007
2008
2009
2010
2011
2012
2013
96
238
262
288
320
370
452
499
508
514
516

Mədəniyyət və Turizm Nazirliyinin
2013-cü ildə gördüyü işlər barədə
HESABAT

Çapa imzalanmışdır 08.01.2014. Kağız formatı 70x100 1/16.
Ofset çapı. Fiziki çap vərəqi 6,0. Sifariş 3. Tiraj 200.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121A
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com